**“Almazı yerin dərinliyində axtardığımız kimi,həqiqəti də düşüncələrin dərinliyində axtarmalıyıq.(V.Hüqo)**

## “Tənhalıq mənim dostumdur”

## PROLOQ

Hava təzəcə işıqlanmışdı.Səhər saat 8:20 olardı. Qış olduğundan və havalar da keçən ilkindən soyuq olduğuna görə bu yerlərdə hava belə gec işıqlaşırdı. Ona görə də kəndin nə ayağında, nə də başında bir ins-cins gözə dəymirdi. Hamı səhərin şirin yuxusunda idi. Gecə böcəklərinin səsini və kanaldan axan suyun şırıltısını istisna etsək demək olar ki, tam sakitlik idi. Amma birazdan bu sakitliyə son qoyuldu. Kəndin ayağında böyük bir ferma vardı. Ferma boyunca böyük Qarabağ kanalı axırdı. Artıq səhər 8 : 30 olardı. Çoban Əhmədalının səsi ətrafı bürümüşdü.Hava şaxtalı olduğundan Əhmədalı kişi bərk bürünmüşdü. Ümumiyyətlə bu yerlərdə fevral ayını "cəhənnəm ayı" adlandırırlar.Çoban Əhmədalı sürüsünü Qarabağ kanalı boyunca aparırdı.”Xallı”adlı it də sürünün yanında gedirdi. Bu it çoban Əhmədalının kənddə ən yaxın dostu idi. İstər yayın istisi, istərsə də qışın şaxtası olsun fərqi yoxdur, Xallı heç vaxt çoban Əhmədalını tək qoymazdı.Sürü Qarabağ kanalı boyunca yavaş - yavaş gedirdi. Birdən çoban Əhmədalı gördü ki, Xallı sürünün yanında yoxdu. Ətrafa boylandı,amma Xallı gözə dəymirdi. Düşündü,yəqin kanaldan su içir indi gələr. Biraz sürü irəliləmişdi ki, Xallının səsi gəldi. Bu səs çoban Əhmədalını qorxutdu. Çünki Xallı ancaq canavar, ya da başqa təhlükəli nəsə görəndə belə mırıldıyırdı. Çoban Əhmədalı yerində duruxsundu. İtin səsi 15 metr arxada kanalın qırağında kol-kosun yanında gəlirdi.Biraz irəli gedən Əhmədalı:

- Xallı, Xallı bura gəl - deyərək çağırdı.

Sahibinin səsini eşidən Xallının mırıltısı daha da qızışdı. Çoban Xallını çox istəyirdi. Öz sadiq itini itirməkdən qorxan Əhmədalı kişi Xallının səsi gələn tərəfə getdi. Biraz getmişdi ki, Xallının Kanalın qırağında durub mırıldadığını gördü.

- Yəqin tısbağa görüb - deyə fikirləşdi.

Xallını yanına çağırdı. Amma it heç başını sahibinə sarı belə çevirmədi.Ancaq gözünü suya zilləyib dartınırdı. Çoban Əhmədalı itin yanına gəldi,onun başını tumarlayıb sakitləşdirdi. Əhmədalı kişi it mırıldayan tərəfə baxdı. Çoban Əhmədalını dəhşət bürümüşdü. Qorxusundan bir addım belə geri atmadı. Kanalda insan cəsədi vardı. Əynində qara kutka olan bu adamın cəsədi kolluxa ilişib qalmışdı. Meyitin suda əlləri görsənirdi, amma sifətini görə bilmədiyindən Əhmədalı bunun kim olduğunu bilmədi.Çoban Əhmədalı yerində donub qalmışdı. Ona elə gəlirdi ki, qorxulu yuxu görür birazdan ayılacaq. 38 yaşlı Əhmədalı Xallının mırıltısına diksindi. Kanala yaxınlaşdı, meyitin kutkasından yapışıb özünə sarı dartdıCəsədi sudan çıxaranda Çoban Əhmədalını yenidən dəhşət bürüdü.

- Aman Allah bu ki Səfərin oğlu İlhamdı. Meyit suyun soyuğundan göyərmişdi. Sifətinin dəşətli ifadəsi vardı. Çoban Əhmədalı meyiti kanalın qırağında qoyub kəndə qaçdı. Qorxduğundan heç sürüsünü belə fikirləşmədi.

****

Çox keçmədi ki, Usta Səfərin oğlu İlhamın Qarabağ kanalındakı müəmmalı ölümü bütün rayona yayıldı. Bu hadisə haqqında dedi - qodular çoxalırdı. Artıq 7 gün idi ki, usta Səfərin ailəsi baş vermiş bu faciənin təsirində idi. İlhamın

anası Güllü xanım bu xəbəri eşidəndə sanki bütün rayon onun üçün cəhənnəm oldu. İlhamın atası Usta Səfər isə yeganə oğlu İlhamı itirməsilə heç cür barışa bilmirdi. İlhamın ölüm səbəbi isə hamı üçün müəmmalı idi.

****

Usta Səfərin həyətinə çoxlu insan toplaşmışdı. Evdən qadınların fəryad dolu səsi gəlirdi.İlhamın nakam ölümü hamını sarsıtmışdı. 21 yaşında olmasına baxmayaraq bütün kənd bu oğlanın xətrini istəyirdi. Çoban Əhmədalı bugün dəUsta Səfərin yanında idi. Həmin hadisədən hələ də özünə gəlməyən Çoban Əhmədalı demək olar ki, hər gün İlhamın valideyinlərinin yanında olurdu. Həmin gün Əhmədalı kişi İlhamın faciəsini onun valideyinlərinə xəbər gətirəndə Usta Səfər təzəcə yuxudan durmuşdu. Güllü xanım içəridə çay qaynadırdı. İlhamın bacısı Səyidə isə hələ yatırdı. Gecə İlham evə gəlməmişdi. Amma bu valideyinlərini heç də ciddi narahat etməmişdi. Çünki İlhamın dostugildə, əmisigildə qaldığı günlər çox olmuşdu. Usta Səfər həmin gün də elə zənn etmişdi ki, İlham yəqin dostugildədi, ya da əmisigilə gedib. Çoban Əhmədalı xəbəri Usta Səfərin ailəsinə çatdıranda Usta Səfərin dizləri yerə çökdü, dünya başına daraldı. Həmin gün Güllü xanım saçlarını yola - yola Çoban Əhmədalının yaxasından yapışıb "bu xəbərin yalan olmasını" ondan tələb etsə də Əhmədalı ona istədiyi cavabı verə bilməmişdi.. Güllü xanım özünü itirmişdi. Tez bir zamanda Güllü xanımın naləsi bütün kənddə yayıldı. Xəbəri eşidənlər Qarabağ kanalına tərəf axışırdı. Usta Səfər nə qədər elədiki özüdə Qarabağ kanalına gedib oğlunun cansız bədənini qucaqlasın, amma ayaqları sözünə qulaq asmadı.

****

Usta Səfərin darvazasının yanında mersedes markalı bir maşın dayandı. Sürücünün yanında qara kostyumlu Qabil Fərəcov oturmuşdu. Maşın 2 dəqiqə olardı ki, Usta Səfərin darvazasının qarşısında dayanmışdı,amma Fərəcov hələ maşından yerə düşməmişdi. Kirpiyinin altındakı qara gözləri ətrafa nəzər salırdı. Fərəcovun üzünə diqqətlə baxdıqda onun sifətindəki narazılığı görməmək olmazdı. Mersedesin qabaq qapısı açıldı. Fərəcov yetərincə canlı-cüssəli insan idi. Sifətinin enniliyindən qulaqları güclə görsənirdi. Yavaş - yavaş maşından düşən Fərəcov havanın soyuqluğundan şikayət edərək"xarabanın havasına baxda" dedi. Qabil Fərəcov Bələdiyyənin sədri idi. 8 il olardı ki, sədr işləyirdi. İmkanı yaxşı idi. Bakıda bir şirkətlə nəsə iş birliyi qurmuşdu. Amma Fərəcovun bu şirkətlə nə iş gördüyünü özündən başqa kimsə bilməzdi. Fərəcov təzə ayaqqabısı çirklənməsin deyin palçıqlı yerdən ehtiyyatla addımlayırdı.Yavaş - yavaş darvazadan içəri keçdi. Usta Səfər həyətdə oturmuşdu. Fərəcovun ona sarı gəldiyini görüb ayağa qalxdı və ona sarı getdi.Fərəcov:

.- Başınız sağ olsun.

- Sağolun-Usta Səfər bu 7 günün içində tamam başqa adam olmuşdu. Əvvəlki Səfərdən əsər-əlamət belə qalmamışdı. Fərəcovun qarşısında sanki əvvəlki qüvvətli qolları olan Usta Səfər deyil, arıx - cılız bir uşaq dayanmışdı. Qabil Fərəcov ürəyində dedi:

Bu kişinin vəziyyəti elədir ki, belə görürəm elə bu da yaxınlıqda oğlunun dalınca gedəcək.

- Allah səbr versin..Eşitdim çox pis oldum.Bakıdaydım. Dünən yox sırağagün eşitdim. İlhamın belə iş tutmasına inan bilmirəm.

O, çox sakit uşaq idi. Oğlum Allahyar ilə bərk dost idilər. Allahyar özüdə çox pis olub. Anası deyir həmin xəbəri eşidən gündən özünə gələ bilmir. Sizə gəlmədiyinə görə ondan inciməyin.O, çox pis vəziyyətdədir.

- Nə incimək Fərəcov. Heç bilirəm ki, kim gəlir, kim gedir. Allahyarın bizə gəlməsi ilə nə dəyişəcək ki?.İlham geri qayıdan deyil-Səfərin gözləri doldu. Ağlamaq istəyirdi. Amma gözlərinin yaşı da qurumuşdu. Özünü saxlaya bilməyib:

- Belimi sındırdın İlham!.Belimi sındırdın! - dedi.

Fərəcov: -Elədemə..-Darvazanın qabağında polis maşını dayandı.Maşından bir kök, biri isə ondan biraz arıq iki polis darvazadan içəri girdi. Bunlardan biri Leytenant Qarayev idi. Digəri isəməhkəmə tibbi ekspertizasının nümayəndəsi Cəfərzadə Səlim idi.Əlində qovluq tutan Səlim Cəfərzadə yeyin addımlarla Fərəcovla qabaq - qabağa dayanmış Usta Səfərə yaxınlaşdı. Cəfərzadə:
-Salam.Bir daha başınız sagolsun. ------
-Sağolun. Allah razı olsun.

Cəfərzadə üzünü Fərəcova tutub:

- Bakıdan nə vaxt qayıdıbsınız yoldaş Fərəcov?.

- Bu gün səhər.

- Hə lap yaxşı. Səfər məllim, İlhamın ölümü ilə bağlı ekspertizanın nəticələri açıqlanıb. Əgər bu gün özünüzü pis hiss edirsinizsə biz başqa vaxt gələ bilərik.

- Yox. Deyin görüm.Onsuzda mənimçün daha heç nəyin mənası yoxdu. Xahiş edirəm nə varsa hamısını deyin. Eşidirəm sizi.

Cəfərzadə gördü ki, Usta Səfər bu sözləri deyəndə ayaqları əsdi. Ayaq üstə özünü güclə saxladı.

- Bəlkə oturağın?.

- Hə əlbəttə. Bağışdıyın. Lap başımı itirmişəm. Buyurun keçin - Usta Səfər müqəssir kimi cavab verdi.

Onlar keçib qapıdakı stolda əyləşdilər. Səlim Cəfərzadə Usta Səfərlə qarşı - qarşıya əyləşdi. Fərəcov da bunlarla birlikdə əyləşdi. Leytenanat Qarayev Fərəcovun qarşısında əyləşdi. Cəfərzadə əlindəki qovluğu açdı. İçəridəki bir neçə kağızı səliqə ilə stolun üstünə qoydu. Sonra əlini döş cibinə saldı. Qələmi də çıxarıb səliqə ilə kağızın üzərinə qoydu. Onun belə ləng hərəkəti Səfəri qıcıqlandırırdı. Nəhayət Cəfərzadə sözə başladı.

- Məhkəmə tibbi ekspertizasının rəyinə əsasən İlhamın ölməsinə səbəb onun suda boğulması olub.Mərhum gecə saat təxminən 23:00 radələrində intihar məqsədilə özünü Qarabağ kanalına atmışdır.Su həddən artıq soyuq olub. Mərhum intihar zamanı özündə olmuyub.O,elədiyi hərəkətin dəhşətini suya düşəndən sonra dərk edib.Soyuq suyun dəhşətli ağrıları onun iliyinə işləməsi İlhamın qorxmasına səbəb olub. Elə oradaca ürəyi partdıyıb. Ehtimala görə İlham özünü Qarabağ kanalının yuxarı hissəsindəki Qəbristanlıq tərəfdəki körpüdən atıb. Meyit doqquz saata yaxın suda qalıb.

- Axı cəsət mən bildiyimə görə körpünün yanından tapılmıyıb- Qabil Fərəcov gözlərini Səlim Cəfərzadənin üzünə zilləyərək dedi.

- Meyit körpünün yanında tapılmayıb. İlhamın cəsədi körpüdən 150 metr kənarda Əlişanovların fermasına yaxın yerdə tapılıb. Meyiti Çoban Əhmədalı səhər saat 8 : 45 radələrində kanalın qırağında tapıb. Əhmədalının verdiyi ifadəyə görə İlhamın cəsədi kollara ilişib qalıb. Əllərində kolların cızdığı izlər var. Tibbi ekspertiza göstərir ki, meyit təxminən 9 saat suda qalıb. Su çox soyuq olduğundan cəsədi göyərmişdi. Ölünün üzərindən mobil telefon tapılmayıb. Amma sizin dediyinizə görə (o, Usta Səfəri nəzərdə tuturdu) İlham axırıncı dəfə evdən çıxanda onun telefonu üstündə olub. Biz belə qənaətə gəlirik ki, İlhamın telefonu suya düşüb.

- Demək siz belə düşünürsünüz ki, mənim oğlum İlham özünə qəsd edib. Usta Səfər biraz əsəbiləşmişdi. Oğlunun intihar etməsinə inanmaq istəmirdi.

- Bunu təkcə mən demirəm. Aparılan araşdırmalar sübut edir ki, İlham özünə qəsd edib. Meyitin üzərində əlavə izlərə rast gəlinməyib. Heçbir zorakılıq izləri də yoxdur.

Prokurorluqda bu iş hələ bağlanmayıb - Leytenant Qarayev dilləndi.

- Necə yəni bağlanmayıb? - Qabil Fərəcov gözlərini Leytenant Qarayevə zillədi. Fərəcovun nədənsə Qarayevdən xoşu gəlmirdi.

- İlhamın intihar etməsi ehtimalı daha çoxdur. Meyitin üzərində aparılan ekspertizanın nəticəsi göstərir ki, bu

intihardır. Amma mən şəxsən bu nəticəylə heç cür razılaşmıram.

- Mən sizi başa düşürəm - Fərəcov biraz təbəssümlə dilləndi.

- Necə yəni? Leytenant Qarayev biraz əsəbi şəkildə gözlərini Fərəcova zillədi.

- Siz İlhamın dayısısınız. Onun intihar etməsini qəbul etmək sizə ağırdır. Necə ki, onun valideyinləri bunu qəbul edə bilmir. Düzünü bilmək istəsəniz mən də İlhamın intihar etməsinə inanmıram. Gözümüzün qabağında böyümüş uşaqdır. Mən onu oğlum Allahyarla bir bilmişəm. Rəhmətlik harda görsəydi mənə salam verərdi. Böyük-kiçik yeri biləniydi. Kəndimizdə helə oğullar çox azdı. Amma neynəmək olar. Tibb ekspertizasının rəyinə inanmalı olacayıq. Səlim Cəfərzadəni çoxdan tanıyıram. Bir yerdə duz - çörək kəsmişəm. Ona görə inanmıram Cəfərzadə nədəsə səhvə yol verə. İkinci bir tərəfdən əgər bu intihar deyilsə, onda belə çıxır ki, İlhamı kimsə qəsdən kanala tullamışdır. Mən ömründə buna inanmaram. Usta Səfərin ailəsi indiyədək bir qarışqanı belə incitməyib. İlhamın özüdə sakit adam idi. Bir kimsə ilə işi olmazdı.

- Fərəcov sakit şəkildə bu sözləri dedi. Və getməyə hazırlaşdı.

- İlham mənim doğma bacım oğludu. Öz bacımı necə tanıyıramsa, İlhamı da elə tanıyıram. O, çox vaxt nəsə problemi olanda mənə zəng edərdi. Onun heç bir problemi yox idi. Valideyinləri ilə də münasibəti qaydasındaydı. İlhamın intihar etməsinə heç bir səbəb yox idi.

- Leytenant Qarayev yavaş - yavaş əsəbləşirdi. Söhbətin gedişi Usta Səfəri hövsələdən çıxarırdı. O, hər şeyi dəqiq bilirdi. İlham intihar edə bilməzdi. Nə Fərəcov, nə Cəfərzadə nə də Qarayev İlhamı mənim qədər tanıya bilməzdilər. O, mənim oğlumdu. Onun əlindən tutub məktəbə mən aparmışam. Dərsləriylə mən maraxlanmışam. Usta Səfər bu fikirdəykən yadına İlhamla bağlı bir xatirə düşdü.

Həmin gün bərk qar yağdı. Hava çox soyuq idi. İlham onda dördüncü sinifdə oxuyurdu. Pəncərədən qarın yağmağını görən İlham çox sevindi. Qar İlham üçün qışın bəzəyi idi. Tezdən hər gün duran kimi tez pəncərəyə sarı qaçıb qarın yağıb - yağmamasını görmək istəyirdi. Qarın yağmadığını görəndə çox məyus olardı. Amma bu gün çox sevincli idi. Buna səbəb qarın yağması idi. Hər tərəf ağ rəngə boyanmışdı. Nafesin qıraqlarında buz parçaları sallanmışdı. Azacıq külək də əsirdi. Güllü xanım çayniki peçin üstünə qoydu.Səhər yeməyini stolun üstünə düzdü.

- Bu gün işə gedəcəksən? - Güllü xanım qapının ağzında dayanan Səfərdən soruşdu. Onun üzündə bir nigaranlıq vardı. Həyat yoldaşının soyuq havalarda belə ağır işdə işdəməsi onu doğurdan da narahat edirdi.

- Hə gedəcəm.

- Havanı görmürsən. Heç belə havada da bayıra çıxmaq olar. Qışın bu vaxtında xəstələnib eliyərsən. Özün də bu gecə hey öskürmüsən.

- Mən getməliyəm. Yalçına dünən söz vermişəm.

- Yalçına verdiyin söz öz canından artıq olmayacaq ki?. Nolsun söz vermisən. Məgər sən söz verəndə bilirdin ki, bu gün hava belə olacaq.

- Yaxşı da sən də. Sabah - sabah qırmayaq bir - birimizi. Tez qayıdacam.

- Özün bilərsən ta. Sən guya nə vaxt məni eşitmisən. - Güllü küskün şəkildə başını aşağı saldı.

Usta Səfər əl - üzünü yuyub içəri girdi. Peçə yaxınlaşdı. Əllərini qızdırdı. Sonra stola yaxınlaşıb oturdu. Təzəcə çaydan bir qurtum içmişdi ki, İlhamın səs - küyünü eşitdi.

- Ana! Ana! tez mənim çörəyimi ver.

- Sən niyə belə tez durmusan - anası soruşdu.

- Necə yəni niyə. Axı məktəbə getməliyəm.

- Balaca, deyəsən, sən hələ pəncərədən çölə baxmamısan - atası təbəssümlə dedi.

- Baxmışam. Elə ona görə də, belə tezdən durmuşam. - İlham gözlərini atasına zilləmişdi.

- Sən heç yerə getmiyəssən. Belə soyuq havada onsuzda heç məllimlər də gəlmir, nəinki 4- cü sinif uşaqları. Get gir yerinə yat. Atan da işə gedir. Səni kim aparacaq dərsə. Tək başına məktəbə getməyi ağlına belə gətirmə. Gedərsən soyuq olar.

Xəstələnərsən. Sən də ki maşallah xəstələnəndə azı 1 aya ayılırsan.

Anasının bu sözləri İlhamın bütün əhvalını pozsada ümidini kəsmədi. Usta Səfər çay içirdi. İlhamın üzünə baxmırdı. Çünki bilirdi ki, oğlunun üzündə bu dəqiqə çox yazıq bir ifadə var. Həmin ifadəni görsə məcburdur ki, İlhamı dərsə aparsın. Elə bu fikirdə idi ki, bajaca İlham onun şalvarından yapışıb:

- Ata nolar gəl məktəbə gedək. Xahiş eliyirəm nolar. Söz verirəm ta sənnən heçnə xahiş etmiyəcəm. Nolar, nolar. - İlham yavaş - yavaş ağlamağa başdamaq istiyirdi.

- Yaxşı ağlama aparacam. Sən onsuzda mənim başımın bəlasısan.

Səfər müəllim! - Səlim Cəfərzadənin səsinə ayılan Usta Səfər gözlərini Cəfərzadənin üzünə zillədi. İlhamla bağlı bu xatirədən ayrılmaq ona çətin gəldi. Bir anlıq o, hər şeyi unutmuşdu. Real həyatdan uzaqlara getmişdi. Ən çox sevdiyi insanların əhatəsində idi.”Həmin gün mən ağır işdə işdədim. Hələ ondan əvvəl balaca İlhamımı hər tərəfin qarla örtülməsinə baxmayaraq dərsə aparmışdım. Ax! o zamanlar. Yol boyu İlham susmadı. O, çox üşüyürdü. Amma o, bütün yol boyu üşüdüyünü dilinə də gətirmədi. O, hey gülümsəyirdi. Güldüyü hər anda dişlərinin bir - birinə dəydiyini görürdüm.Balaca İlhamım. Mənin balacam. O vaxtlar elə düşünürdüm ki, mən həyatımın ən çətin günlərini yaşayıram. Ağır iş rejimi məni çox yorurdu. Qış soyuq gəlmişdi. Odun ehtiyatı tükənirdi. Amma indi mən düşünürəm ki, səhv etmişəm. O vaxtlar mənim ən xoşbəxt günlərim imiş. Mənim gözəl ailəm vardı. İlham kimi oğlum vardı. Güllü kimi həyat yoldaşım vardı. Səyidə kimi qızım

vardı. Hələ mən Səyidənin dünyaya gəlməsini demirəm. İlahi! Mən necə xoşbəxt imişəm. Gündəlik 5 saatlıq ağır işdən sonra öz ailəmin yanına qayıdırdım. Çox yorğun olurdum. Şikayət edirdim yaşadığım həyatdan. Amma heç vaxt əldən düşmürdüm. Bu gün mən heç bir iş görməmişəm. Bugünkü işim gəlib - gedənlərin baş sağlığını qəbul etməkdən ibarət olub. Amma demək olar ki, mən əldən düşmüşəm. Mən çökmüşəm. Taqətim qalmayıb.Gücüm qalmıyıb. Axı bu camaat niyə bura yığışıb?. Neynirəm onların baş sağlığını? Mənə oğlum lazımdı. Mənə İlhamı qaytara bilməyəcəklərsə neynirəm onların baş sağlığını? Nəyimə lazımdı məhkəmə tibb ekspertizasının rəyi? Nəyimə lazımdı intihar və qətl arasında gedən mübahisələr, araşdırmalar?. Hələ arvadların səsinə bax. İlahi. Axı bu nə müsibətdi. Niyə axı? Mən axı bundan sonra neyliyəcəm?. Nolar Allahım məni keçmişə qaytar. 5 saatlıq nədi? 24 saat dayanmadan işdiyərəm. Heç evədə gəlmərəm. Yetər ki, hər şey əvvəlki kimi olsun. Mənim ailəm salamat olsun. Bir dəli şeytan deyir qalx ayağa,qov burdakı bütün insanları, getmiyəni ver ağacın altına, baş - gözünü vur yarala. Bu nədi? Yoxsa mən dəli oluram?

- Kəsin səsinizi! - Usta Səfər üzünü evdəki pəncərəyə tutub var səsiylə qışqırdı. Evdəki ağlaşma səsi kəsildi. Bir anlıq hər tərəfə sükut çökdü. Stolda oturanlar diksinmiş şəkildə gözlərini Usta Səfərin üzünə zillədi. Hamı Usta Səfərin gözlənilməz hərəkətindən qorxmuşdu. Hətta Qabil Fərəcov da qorxmuşdu. O, 10 ilə yaxın olardı ki, Usta Səfəri tanıyırdı. Onun sakit hərəkətlərinə o qədər öyrəşmişdi ki, indiki vəziyət ona doğrudan da qəribə gəlirdi.

- Yaxşısı budur durun gedək-deyə-Qabil Fərəcov dilləndi. Başı ilə Səlim Cəfərzadəyə işarə elədi. Onlar durdular. Yavaş -

yavaş darvazaya tərəf addımladılar.. Darvazanın qarşısında dayandılar. Leytenant Qarayev polis maşınına sarı getdi. Qabil Fərəcov Səlim Cəəfrzadənin qolundan tutub kənara çəkdi.

- Qulaq as gör sənə nə deyirəm. Usta Səfər indi özündə görürsən ki, pis vəziyyətdədi. Nə danışdığını, nə etdiyini də bilmir. Onu başa düşmək çətin deyil. Onun yerinə məndə olsam belə vəziyyətə düşərəm. Məlumdur ki, o, oğlunun intihar etməsinə inanmır. Sən bu işi çox da qurdalama. Çalış, bu işi tez bağla getsin. Özündə maşallah çox savadlı ekspertsən.Bütün dəlillər göstərir ki, bu intihardır. Əgər iş böyüsə belə bunun heç bir mənası yoxdu. Mən 8 ildi ki, Bələdiyyə sədriyəm. Bu camaatı yaxşı tanıyıram. Burda qətldən söhbət belə gedə bilməz. Leytenant Qarayev işi qurdalamaq istiyir. Çalışın onu fikrindən daşındırın. İş böyüsə olan elə mənə olacaq. Özün bilirsən Bakıda şirkətlə şərikəm.

- Hə eşitmişəm-Səlim Cəfərzadə dilləndi.

- O şirkət indi bu saat təhlükə altındadı. Rəqabət bizi əldən salıb.İki müqavələmiz dalbadal ləğv edləndən sonra vəziyyətimiz lap pisləşib. Belə bir gündə mənim o işləri atıb bura gəlməyim şirkətin fəlakəti deməkdi. Mən tezliklə Bakıya qayıtmalıyam. Yazda Bələdiyyə seçkiləridir. Bu iş böyüsə gərək Bakıdan nümayəndələr gələ. Dövlət adamlarının bura axını mənə sərf etmiyəcək. Şirkət işi mənim başımı çox qarışdırıb.3 il olar ki, heç bilmirəm buralarda hansı işlər görülüb, hansı işlər görülmüyüb. Müavinim Kərimli də artıq mən çalan havaya oynamaq istəmir. Məsələni çox uzatmaq istəmirəm. Siz ağıllı adamsınız. Güman edirəm ki, tezliklə bu işi bağlı elan edəcəksiniz. Leytenat Qarayevə çox da fikir vermə. Onu da başa düşmək lazımdı. O, yaxşı polisdi. Savadlıdı və eyni

zamanda işini bilәndi. Onu bu işi uzatmağa qohumluq tellәri mәcbur edir. Sizi inandırıram ki, әgәr ölәn adam İlham deyil, başqası olsaydı Qarayev bu işi intihar adıyla çoxdan bağlamışdı.Özünüz görәcәksiz bir-iki gündәn sonra prokurorluqda da bu iş bağlanacaq. Mәn buralarda çox qala bilmәrәm. Şirkәtimizin taleyi bir tükdәn asılıdır. Hәlә bura gәldiyimә görә başım çox ağrıyacaq. Güman edirәm ki, mәni düzgün başa düşәrsiniz.

- Әlbәttә yoldaş Fәrәcov. Burda çәtin bir iş yoxdur.

- Onda Xudahafiz.

- Xudahafiz.

Qabil Fәrәcov yeyin addımlarla mersedes markalı maşına yaxınlaşdı. Qapının sürücünün açmasını gözlәmәdi. Özü qapını açıb әylәşdi. Mersedesin motorunun sәsi gәldi. Birazdan Fәrәcovun maşını gözdәn itdi. Cәfәrzadә dә yavaş - yavaş yeriyәrәk polis maşınına yaxınlaşdı. Әlindәki qovluğu da bәrk tutmuşdu. Maşına әylәşdi. Birazdan polis maşını yola düşdü. Maşın kәndin içәrisi ilә yavaş – yavaş hәrәkәt edirdi. Yollar çox palçıqlı idi. Ona görә dә maşın yavaş - yavaş gedirdi. Leytenant Qarayev susurdu. Sәlim Cәfәrzadәnin dә sәsi gәlmirdi. Cәfәrzadә danışmaqdan çәkinirdi. Çünki bilirdi ki, söhbәt açılsa Leytenant Qarayev onu işi bağlamamağa mәcbur edәcәk. Leytenant Qarayev dә çox sәbirsiz adam olduğundan Fәrәcovun Cәfәrzadә ilә uzun - uzadı söhbәt etmәlәrinin sәbәbini soruşmaqdan özünü saxlaya bilmәdi.

- Nә yaman uzun söhbәt edirdiniz?

- Mən yoldaş Fərəcovu çoxdan tanıyıram.

- Lap yaxşı.

- Bu sizi narahat edir?

- Xeyr.Əsla.

- Bəs niyə soruşdunuz? - Səlim Cəfərzadə özüdə bilmədən söhbəti uzadırdı. Bu onun çoxdankı danışıq tərzi idi. Məhkəmə Tibb ekspertizasında işlədiyi gündən bəri çox insanlarla ünsiyyətdə olmuşdur.

- Elə belə soruşdum. Mən meyitin üzərində aparılan Tibbi ekspertiza ilə yaxından tanış olmaq istəyirəm. Sabah serjant Tağıyevi sizin yanınıza göndərəcəm. Bütün araşdırılan və əldə olan məlumatları nəzərdən keçirmək istəyirəm. Xahiş edirəm bütün məlumatları toplayıb Tağıyevə verəsiniz.

-Bu sizin nəyinizə gərəkdir?Məhkəmə Tibb ekspertizasının rəyini Usta Səfərin yanında sizə də söylədim. Əgər başqa nəsə məlum olarsa sözsüz ki, bunu prokurorluqda biləcək. İkinci bir tərəfdən bu işi təkcə mən araşdırmamışam. Özüdə ki, mən sadəcə Tibb ekspertizasının bir nümayəndəsiyəm.Meyitin üzərindəki müayinənin nəticələrini özbaşıma kiməsə təhvil verə bilmərəm. Bu iş ciddi məsələdir. Bilirəm ki, Rayon prokurorluğu bu işi bağlamayıb. Araşdırma davam edir. Mən ekspertizanın nəticələrini sizə verə bilmərəm.

- Heç cür verə bilmərsiniz? - Leytenant Qarayev səbirsizliklə dilləndi. Leytenant Qarayevin getdikcə Səlim Cəfərzadədən heç xoşu gəlmirdi. Əslində Qarayevi Cəfərzadənin ekspertizanın

nəticələrini verməməkdə haqlı olduğunu bilirdi. Eyni zamanda həmin nəticələri Cəfərzadədən necə alacağını da çox gözəl bilirdi.

- Bilirsiniz yoldaş Qarayev M.T.E-nın nəticələrini sizə verməkdə mənim əlimdə deyil, verməməkdə. Bunun üçün xüsusi icazə lazımdı. Baş müstəntiqin icazəsini nəzərdə tuturam.

- Siz heç narahat olmayın. Mən özüm hər şeyi həll edərəm.

Maşın yavaş - yavaş asfalta çıxdı. Asfalta çıxmağı ilə maşının sürətinin artması bir oldu. Maşın rayona sarı sürətlə istiqamət aldı.

***

Həyat doğurdan da böyük bir müəmmadır. Onun sirri indiyədək açılmayıb. Ən güclü alimlər belə bu sirri aça bilməyib. Hasarın o üzü bəlkə də var. Dünya yaranandan bəri Hasarın o üzünü milyonlarla, milyardlarla insan görüb. Ancaq yenə də o biri dünyanın olub - olmadığını heç kim bilməyib. Müxtəlif fikirlər söylənib. Müxtəlif nəzəriyyələr yaranıb. Müxtəlif fərziyyələr irəli sürülüb. Amma fakt olaraq heçnə bilmirik. İnsan doğulur, yaşayır və ölür. Bu faktdır. Buna heçkimin şübhəsi ola bilməz. Bəs ölümdən sonrası? Buna aid heç bir faktımız yoxdur? Bu sualların özü böyük bir müəmmadır. Elə bir müəmmadır ki, ən güclü detektivlər belə bu müəmmanın sirrini aça bilməyib. Şerlok Holms, Erkül Puaro, Dronqo, Qambay Qasımlı təxəyyülün ən güclü güzgüsüdür. Amma bunlar da bu sirri aça bilməzlər. Ruh candan çıxdısa olursan adi bir qələmə tay. İndi bu saat mən

yazı yazıram. Həyat fanidir. Çünki ölüm insanı hər zaman haqlıya bilər. Elə bu saat yazı yazdığım yerdə mən ölsəm, onda əlimdəki qələmlə mənim heç bir fərqim olmayacaq. Nəimi demişkən, "Gedən cismim olacaq, ruhumsa sizinlə qalacaq". O ruh isə yaşayacaq. Mən belə düşünürəm ki, ruhun yaddaşı yoxdur. Ruh həmişə yaşayır. O, ölməzdir. Bir ruh milyonlarla insanı bir - birinin ardınca yaşada bilir. İndi bizi yaşadan ruh kim bilir kimləri yaşadıb. Mənim ölüm zamanı bədənimdən çıxan ruh fani dünyada yenidən məni axtarır. Gec ya tez o, mütləq məni tapır və mən yenidən doğuluram. Amma məkan və zaman eyniliyi olmur. O zaman mən heçnə xatırlamıram. Heç xatırlaya da bilmirəm. Maksimum insan 2 - 3 yaşda olduğunu xatırlaya bilər. Ondan əvvəli xatırlaya bilməz. Çünki ondan əvvəl onun cismi olmayıb. Ancaq ruhu dolaşıb bu dünyada. Ruhun isə yaddaşı olmadığından o, keçmişini xatırlaya bilmir. Allah bilir biz neçə belə mərhələdən keçmişik və neçə belə həyat yaşamışıq.

***

Leytenant Qarayev öz evlərinə qayıdanda hava yavaş - yavaş qaralırdı. Hər tərəf səssizliyə qərq olmuşdu. O, çox yorğun görsənirdi. Leytenant rütbəsini 5 il idi ki, almışdı. 10 ilə yaxın olardı ki, formadaydı. Amma bugünkü kimi heç vaxt yorulmamışdı. Son günlər əsəb sitemi yerində deyildi. Hər dəfə Usta Səfəri, onun arvadını (doğma bacısını) görəndə ürəyi parçalanırdı. İlhamın müəmmalı ölümü onu çox narahat edirdi. İndi o, hər gün bu barədə fikirləşirdi. Hər şeyi götür - qoy etməyə çalışırdı,amma bəzi məsələlərdə Qarayev acizliyini boynuna alırdı. O, yaxşı polis olsada bəzi məsələlərdə zəif idi. Dəlillər axtarıb tapmaqda, onları ayırd edib son nəticəyə gəlmək işində naşı idi. O, bilirdi ki, İlham özünə qəsd

etmiyib. Bunun qətl olmasını da dəqiqləşdirib sübut edə bilmirdi. Onun güclü detektiv xüsusiyyəti yox idi. Hiss olunurdu ki, onun güclü detektivə ehtiyacı var. Bir tərəfdən bu düşündürücü suallarla, bir tərəfdən də yorğunluqla yavaş - yavaş addımlayan Qarayev öz evinə daxil oldu.Qapını bağladı. Kurtkasını çıxarmaq istəyirdi ki, Selcan xanım ona yaxınlaşdı. Qarayev 4 il idi ki, Selcan xanımla ailə həyatı qurmuşdu.

- Axşamın xeyir. - Leytenat yorğun şəkildə dilləndi.

- Axşamın xeyir. Çox yorğun görsənirsən.

- Hə bu gün çox yorğunam.

- İndi necədirlər? Dünən onları görəndən hələ özümə gəlməmişəm. Bu gün istədim gedəm,amma bacarmadım. Güllünün dünənki halı heç vaxt yadımdan çıxmaz. Yazıq. Onlar çox yaxşı insandırlar. Bu faciəyə onlar hazır deyildilər.

- Faciə gələndə qapını döymür axı. Ona hazır olub - olmamağın heç bir fərqi yoxdu. Bu gün getmişdik ora. Məhkəmə Tibb ekspertizasının rəyi də hazır idi.

- Yaxşı keç otağa. Çox yorğunsan biraz dincəl sonra danışarsan. Yemək hazırdır gətirim?

- Yox. Yaxşı çayın olsa pis olmaz.

- Hə əlbətdə. Keç otağa mən bu saat!

Leytenant Qarayev otağa keçib divanda əyləşdi. Selcan çay gətirdi. Özü də Qarayevin qarşısında əyləşdi. Leytenant çaydan bir qurtum içib nəlbəkiyə qoydu.

- Son nəticə kimi nəyi söylədilə?r.

- Məhkəmə Tibb ekspertizasının rəyinə əsasən belə qənaətə gəliblər ki, İlham özünü öldürmək məqsədilə suya atıb. Bütün araşdırmalar da bunu sübut edir.

- Başqa heç bir şey söylənilmir?.

- Yox.

- İndi nə olacaq? İntihar adıyla bu iş bağlanacaq?

- Sabah ekspertizanın nəticəsi ilə yaxından tanış olacam. Açığı mən onlara inanmıram. Gərək ilk gündən bu işlə yaxından maraqlanardım.Müayinədə şəxsən iştirak edərdim.Səlim Cəfərzadəyə çoxda etibar etmirəm. Eləbil o, nədənsə qorxur. Mənə elə gəlir ki, burda nəsə bir iş var. Bircə sabah gəlsəydi.

- Bu işlə yaxından maraqlanmadığına görə özünü günahlandırma. Hamı bilir ki, mərhum sənin doğma bacın oğludur. Bu hadisə olan gündən sənin başın İlhamın ailəsinə qarışdı. İstintaqın hardan başlayıb hardan qurtardığını da heç bilmədin.

- Düz deyirsən mən gərək bu işlə yaxından tanış olam. İstintaqın gedişi ilə də maraqlanacam.

- Bilirsən sən gəlməmişdən biraz əvvəl ağlıma bir fikir gəlmişdi. Amma sonradan bu fikri ağılsızlıq hesab etdim. Çünki əlimizdə heç bir sübut, dəlil yoxdur.

- Sən hansı fikirdən danışırsan? Dəlil, sübutun bura nə dəxli var?.

- Özün bilirsən ki, sənin yaxşı polis işçisi olmağına mənim heç vaxt şübhəm olmayıb.

- Bilirəm Selcan. Çox sağol. Amma görürsən ki, bu işlərdə hələ naşıyam. Mən bu işi araşdırmaq istəyirəm. Hardan başlayacağımı fikirləşirəm.

- Bəlkə, sənə kömək edəcək biri lazımdır?

- Köməyə ehtiyacım çoxdur. Amma məhkəmə Tibb ekpertizasının rəyindən sonra prokurorluqda da bu işlə maraqlanmaq fikri azalıb. Bu gün sabah bu işi intihar adıyla bağlasalar mən heçnə edə bilməyəcəm.

- Dünən qardaşımla əlaqə saxladım. Moskvadan qayıdıb. İndi Bakıdadır. Sənə salam dedi. Deyirəm, bəlkə ona deyək sənə kömək etsin. Sən ki onu yaxşı tanıyırsan. O, peşəkar ekspertdir.

- Sən nə danışırsan? Mən ona nə deyib bura çağıra bilərəm. Polkovnik Cəbiyev ömür boyu ağır cinayətlərin üstünü açmaqla məşğul olub. Bəlkə, İlhamın ölümü doğurdan da intihardır. Əlimdə bu hadisənin qətl olmasını şərtləndirən heç bir dəlilim yoxdur. Sən ona bu hadisə haqqındabir şey dedin?

- Yox ona heçnə demədim.

- Yaxşı eliyib deməmisən. Nə yaxşı Bakıya qayıdıb?

- Nəyaxşı qayıdıb deyəndə ki, o, Moskvaya ömrlük getməmişdiki. Onu ora hansısa cinayətin üstünü açmağa çağırmışdılar.

- Gərək sabah ona zəng vuram. Polkovnik Cəbiyev doğurdan da yaxşı detektiv olması ilə yanaşı, eyni zamanda yaxşı da insandır. Onun mənə elədiyi yaxşılıqları heç vaxt unutmaram.

- Hə. Amma yaxşı adamların bəxti çox zaman daşlara dəyir. Mənim qardaşım doğurdan da yaxşı adamdır. Atamız rəhmətə gedəndən sonra onu özümə Ata bilmişəm və heç vaxt da peşman olmamışam. Yaxşı söhbət uzandıqca uzanır. Görürəm, elə ayaq üstdə yuxulayırsan. Özü də sabaha işin çoxdur.

- Yaxşı yadıma saldın. Gərək Tağıyevə zəng edəm. Sabah gedib dediklərimi gətirsin. Müstəntiqdən icazə almışam.

- Niyə özün getmirsən? Onsuzda icazəni almısan. Tağıyevi tanımıram. Amma indiki zamanda heç kimə etibar etmək olmaz.

Selcanın bu sözündən sonra Leytenant yuxudan ayılmış kimi oldu. O, səhvə yol verdiyini fikirləşdi. Özüdə bir səhv deyil, iki səhvə yol vermişdi. Gərək Məhkəmə Tibb ekspertizasının nəticələri ilə yaxından tanış olmaq fikrini heç Səlim Cəfərzadənin yanında deməzdi. Düzdü, Səlim Cəfərzadənin bu işi qəsdən intihar adıyla bağlaması haqqında fikirlər yürütmək Leytenantın fikrincə hələ tez idi. Amma o da məlumdur ki,

bu hadisə haqqında məlumatları gətirəndən Qarayevin Cəfərzadədən gözü su içmirdi. Qabil Fərəcovla onun Usta Səfəri evindən çıxarkən darvazanın qabağında etdiyi gizli danışığı görmüşdü,amma eşitməmişdi. Bu gizli söhbət Qarayevin fikrini birazda qarışdırmışdı. O, öz - özünə çox əsəbiləşdi. Axı necə ola bilər ki, bu qədər səhvə yol verib. İndi Səlim Cəfərzadə bilir ki, Qarayevin fikrindəki nədir. O, sabah asanlıqla bu işin içindəkiləri (sübutları) itirə bilər. Bu azmış kimi, ora şəxsən özü yox, Tağıyevi göndərmək istəyir. Yox. Mən ora heç kimi yollamıyacam. Şəxsən sabah özüm gedib bu məsələni araşdıracam.

- Nə fikrə gedibsən? Selcan ərinin fikrə getdiyini görüb soruşdu.

- Heç. Çox sağol.

***

Polkovnik Rəsul Cəbiyev hələ uşaq vaxtlarından polis olmaq arzusu ilə böyümüşdür. Hələ uşaq vaxtından özünə qapanan, bir hadisəni günlərlə analiz edən, hər zarafata gülməyən bir insan xarakteri onda formalaşmışdır. Atası rəhmətə gedəndən sonra hamı belə düşünürdü ki, Rəsul bundan sonra istədiyinə çata bilməyəcək. Amma hər şey əks istiqamətdə inkişaf etməyə başladı. Əvvəlcə Bakıdakı polis məktəbinə daxil oldu. Sonra Bakıdan Moskvaya getmək üçün ən vacib olan lisenziyanı aldı. Bakıdakı uğuru Moskvada da davam etdi. Moskvada olduğu müddətdə bir çox cinayətlərin üstünü açdı. Onun qatili tapmaq üsulu cinayət axtarış şöbəsində hamının marağına səbəb olmuşdu. Moskvada ikən onun ən çətin işi varlı iş adamı olan "Marina Flippovna" nın qətlinin üstünü açmaq olmuşdur.

Bundan əlavə Polkovnik Cəbiyev Moskvada fəaliyyət göstərən "Qadın alverinə qarşı mübarizə" adlı təşkilatın işlərinə yaxından köməklik göstərmişdir. Dəfələrlə ölümlə üz - üzə gəlsədə, cəldliyi və ağlı sayəsində həyatda qalmağı bacarmışdır. Təkliyi o qədər də sevmirdi. Lakin həyat şəraiti onu həmişə tək qalmağa məcbur etmişdi. Evlənib ailə qurmaq haqqında fikirləşməmişdi. Çünki Polkovnik çox gözəl bilirdi ki, onun indiki həyatı elədir ki, əgər o, birazca ehtiyatı əldən versə onu öldürərlər. Neçə illik təcrübəsində özünə dost tapsada bunun əvəzinə əlavə olaraq düşmənlərinin sayı da birə - on çoxalırdı. Onun Moskvada Armand Sokoloviç adlı bir dostu vardı. Xəfiyyə Armand Sokoloviçi Moskvada hamı tanıyırdı. Bir dəfə tale elə gətirdi ki, Armand dəhşətli cinayətlər, basqınlar və qətllər törətmiş cinayətkar dəstəsinin başçısının qardaşını polislərlə atışma zamanı öldürür. Hadisədən bir müddət sonra "cinayətkar" dəstəsinin başçısı Armanda məktub yazıb göndərir. Məktubda yazırdı "sən mənim qardaşımın qanına susamaqla həyatının bağışlanılmaz bir səhvini etdin. Özün öz əlinlə ailənin və özünün ölüm kağızını imzaladın". Armand bu məktubu oxuyanda cinayətkarın sözlərinə gülmüşdü. Hətta bu xəbəri Rəsul Cəbiyevə deyəndə də gülə - gülə demişdi. Polkovnik isə Armanda ehtiyatlı olmağı tapşırmışdı. Armand Sokoloviç o vaxtı evli idi. Bir oğlu da vardı. Həmin faciə törədiləndə Armandın oğlunun cəmi 11 yaşı vardı. Polkovniklə söhbətdən sonra bir həftə keçməmişdi ki, Armandı öz mənzilində ailəsi ilə birlikdə vəhşicəsinə qətlə yetirmişdilər. Bu hadisə Cəbiyevə pis təsir etmişdi. Ən yaxın dostunu itirmişdi. 11 yaşlı uşağını amansızcasına qətlə yetirmişdilər. Sonradan Cəbiyev bu işi, bu qətli törədənləri tapıb cəzalandıra bilsə də hələ də o hadisənin təsirindən çıxa bilməmişdi. Cəbiyev sonralar Armand kimi dəfələrlə helə məktublar aldı. Amma

Polkovniki məhv etmək onlara nəsib olmadı. Cəbiyev həmişə deyərdi: Detektivin təxəyyülü qatilin təxəyyülündən qat - qat üstün olmalıdır.

****

Günortaya yaxın olardı ki, rayonun mərkəzindən sürətlə hərəkət edən maşın Məhkımə Tibb ekspertizasının əsas korpusunun qarşısında dayandı. Maşın dayanandan 10 saniyə sonra qara plaşlı, əlində qovluq tutan Cəfərzadə maşından çıxdı. Ətrafa boylanmadan binanın qarşısındakı pilləkanla yuxarı addımladı. Hava soyuq idi. Çiskinləyirdi. Cəfərzadənin hərəkətlərindən açıq-aydın görünürdü ki, onun tələsik işi var. Sifəti biraz pörtmüşdü.Bir dəqiqə olmazdı ki, maşından çıxıb hərəkət edirdi. Amma alnında tər damcıları görünürdü. . Tələsik addımlarla binaya daxil oldu. Gözlərini ancaq qabağa zilləmişdi. İndi onunçün binada özündən başqa adam yox idi. Ətrafa heç bir nəzər salmırdı. Tələsdiyindən bir - iki adama çiyin də vurdu. Bir - iki adam Cəfərzadəyə salam da verdi. Amma bunların heç birinin fərqinə varmadı. O, tələsik addımlarla liftə sarı gedirdi. Bəlkə indi onun qanadı olsaydı uça - uça dördüncü mərtəbəyə çıxmaq istiyərdi. Liftə daxil oldu.”4” düyməsini basdı və gözlədi. Lift yuxarı getməyə başladı.Liftin yuxarı gedişi ilə Cəfərzadənin həyəcanı birazda artırdı. Gözləri qızarmışdı. Gecəni yaxşı yatmadığı açıq-aydın görsənirdi. Nəhayət, lift dördüncü mərtəbəyə çatanda dayandı. Qapının açılması ilə Cəfərzadənin liftdən çıxması bir oldu. Əvvəlki iti addımlarla yenidən hərəkətə gəldi. "Ümumi şöbə" adlanan otağa daxil oldu. Otaqda Məhkəmə Tibb ekspertizasının bir neçə nümayəndəsi və katiblər vardı.

- Salam. Nə yaman həyəcanlı görsənirsən, nolub? - İçəridəki adamlardan biri soruşdu.

- Əleyke salam. Yox heçnə olmayıb. Sadəcə bu gün işlərim çoxdu. Tezdən gəlməliydim. Amma işin tərsliyindən yatıb qalmışam. Bu azmış kimi yolda maşın da xarab olmuşdu.

- Heçnə olmaz. Gərək zəng edərdin nəsə işin varsa biz həll edərdik. Məhkəmənin digər nümayəndəsi Xalid Cəfərli dilləndi. O, burada Səlim Cəfərzadə ilə eyni səlahiyyətə malik idi.

- Elə bir işim yoxdu. İlham Quluyevin işi ilə bağlı bir - iki sənədə baxmalıydım.

- Usta Səfərin oğlun deyirsəndə?

- Hə onu deyirəm.

- Sənədlərin hamısını apardılar yoxlamağa.

- Kim? - Səlim Cəfərzadə gözləmədiyi cavabdan çox təəccübləndi.

- Leytenant Qarayev - Xalid Cəfərli dilləndi.

- O, kimdən icazə alıb?

- Baş Müstəntiqdən.

- İcazə aldığını hardan bildin?

- Özü dedi.

- Səndə inandın?

- Əlində xüsusi icazə kağızı vardı.

Xüsusi icazə kağızının adını eşidəndə Səlim Cəfərzadə bir anlıq susdu.

- O, nə vaxt gəlmişdi?

- Səhər saat 10 -a işdəmiş. Məndən biraz sonra nə olub ki?

- Heçnə olmayıb-Cəfərzadə bu sözləri deyib qapını yavaşca bağladı. İndi onun fikri tamam qarışmışdı. Dünən Qabil Fərəcovla və Qarayevlə etdiyi söhbətləri xatırlayırdı. Deməli, Leytenantın fikri belədir ki, bu işi özü araşdırsın. Cəfərzadə indi Qarayevdən daha çox ehtiyat etməlidir. O, gəldiyi yolla geri qayıdırdı. Liftə yaxınlaşıb bir düyməsini basdı. Cəfərzadəni fikir götürmüşdü. Mən axı necə ola bilər ki, bu qədər səhvə yol verdim. Onunla dünənki söhbətdən sonra gərək gəlib işimi möhkəm tutardım. Heç sabahı gözləməzdim. Leytenant özü birinci olaraq səhvə yol vermişdi. O, Məhkəmə Tibb ekspertizasının rəyi ilə yaxından tanış olmaq istədiyini dünən özü mənə demişdi. Deməli, Qarayev elədiyi səhvi başa düşüb. Tezdən o başdan gəlib ki, mən heçnə edə bilmiyim. Özü də Qarayev şəxsən özü gəlib. "Ay səni it oğlu". Cəfərzadə liftdə yumruğunu sıxıb divara vurdu. Bəs indi necə olacaq? Fərəcova necə izah edəcəm ki, bu işdə araşdırmalar hələ davam edəcək?

***

Axşam saat 11 : 00 də yola çıxan qatar taqqıldaya - taqqıldaya relsin üstü ilə gedirdi. Hava tutqun olsada yağış yağmırdı. Qatara bir nəfər daxil oldu. Əynində qara plaş vardı. Ciddi görkəmi olan bu adamın adı Polkovnik Rəsul Cəbiyev idi. O, dünən aldığı zəngdən sonra rayona getməyə qərar vermişdi. Leytenant Qarayev bacısıoğlunun müəmmalı ölüm işini yenidən araşdıran zaman şübhəli faktlara rast gəlmişdi. Səlim Cəfərzadə bəzi məlumatları gizli saxlamışdı. İlhamın suda boğulub ölməsi haqqında fikirlər özünü doğrultmurdu. Məhkəmə Tibb ekspertizası müəyyən edib ki, İlhamın başının arxa hissəsində zədə izi var. Amma Səlim Cəfərzadə bu faktı hansısa səbəbdən Prokurorluqdan və Usta Səfərin ailəsindən gizlədib. Meyitin 6 saat suda qalması da özünü doğrultmur.

Qarayev bunları dəqiqləşdirəndən sonra arvadı Selcanın təkidi ilə Polkovnik Cəbiyevə zəng vurub onu rayona dəvət etdi. Cəbiyev Leytenatın xətrini çox istədiyindən onun sözünü yerə salmadı. İndi Polkovnikin qatarda olmasının səbəbi bu idi.

***

Səhər saat 7 : 30 da qatar stansiyaya çatdı. Polkovnik Cəbiyev yavaş - yavaş addımlayaraq qatardan düşdü. Ətrafına boylandı. İrəli gedib bir maşının yanında dayandı. Maşının yanında bir nəfər dayanmışdı. Gözləri yol çəkən bu 25 yaşlı oğlanın əlində siqaret vardı. . Burnunun sağ tərəfində iri xal olan bu adam Polkovnikin ona sarı gəldiyini görmədi. Cəbiyev yeyin addımlarla maşının qapısının ağzında dayanan bu oğlana yaxınlaşdı.

- Sabahınız xeyir.

Qəfl sualdan diksinən bu adam Cəbiyevə sarı döndü.

- Sabahınız xeyir.

- Sizi çox gözlətmişəm deyəsən?

- Polkovnik Cəbiyev?

- Bəli.

Polkovnik Cəbiyev bu adamın onu gözlədiyini çox gözəl bilirdi. Amma bu adam Polkovniki görünür tanımayıb. Cəbiyevin onu belə asanlıqla tanıması bu adamı heyrətləndirmişdi. O, bunu gözləmirdi. Bu səbəbdən idi ki, bir neçə dəqiqə bu adam Polkovnikin üzünə heyrətlə nəzər yetirdi. Polkovnikin qəribə iti baxışları vardı. Saçlarında tək - tük yerdə çıxan ağ saçlar onun xarici görünüşündə müsbət təssürat yaradırdı. Qalstukuna, səliqəli ütülənmiş kostyumuna, onun üstündən geyindiyi plaşına diqqət yetirəndə aydın olur ki, Cəbiyev geyiminə-keciminə xüsusi diqqət edən biridir. Bayaqdan yerində donub qalan bu adamın danışmağa çətinlik çəkdiyini görən Polkovnik:

- Hava soyuqdur getsək yaxşı olar.

- Hə hə əlbəttəPolkovnik xoş gəlmisiniz. Bağışlayın sizin məni tanımağınızı ağlıma belə gətirməzdim. Məni Qarayev göndərib.

- Bilirəm Polkovnik-təmkinlə dilləndi.

- Çox gözəl məndə sizi necə tapacağımı özümə problem eləmişdim. Amma bir gör necə oldu. Buyurun əyləşin.

- Çox sağol - Polkovnik maşının arxa qapısını açıb içəri keçdi. Bayaqdan əlində siqaret dayanan bu oğlan siqaretinin çoxdan söndüyünü gördü. Siqaretin kötüyünü yerə tullayıb sükanın arxasına keçdi. Maşını işə saldı. Dönərək yola düzəldi. Hava hələ açılmamışdı. Çiskin və duman hər tərəfi bürümüşdü. Maşının şüşələri buz kimi idi. Şüşətəmizləyici olmasa sürücü yolu heç cür görə bilməzdi. Cəbiyev arxada sakitcə əyləşmişdi. Hərdən pəncərədən çölə baxırdı. Sürücü də hərdən qabaq şüşədən arxada əyləşmiş Polkovnikə nəzər salırdı. Onun ciddi görkəmi, iti baxışları bu oğlanın diqqətini çox çəkmişdi. 20 dəqiqə olardı ki, yol gedirdilər. Amma Cəbiyev hələ bir kəlmə də olsun danışmamışdı.

- Deyəsən, bu yerlərə çoxdandı gəlmirsiz? - Sürücü onun susmağına dözmüyüb soruşdu. Əslində bu adamın bu yerlərə az və ay çox gəlməsi sürücünü o qədər də maraqlandırmırdı. Sualı verməkdə məqsədi bu adamla azda olsa ünsiyyət qurmaqdır. Bir tərəfdən də sürücü çənədən biraz saz idi. Danışdıqca danışırdı. Bir sözlə danışmağı çox sevirdi. İndi onu iki fikir maraqlandırırdı. Birincisi o idi ki, onun qonağı görünüşcə çox ciddi adama bənzəyirdi. Belə adamların əksəriyyətindən söz almaq çətin məsələdir. Belələrindən sözü kəlbətinlə də almaq olmur. Bəlkə bu səbəbdəndir ki, Cəbiyev 20 dəqiqə idi ki, susurdu. İkinci fikir sürücünü daha çox narahat edirdi. Özünün çox danışan biri olduğunu çox gözəl bilirdi və şübhələnirdi ki, onu səhərin qarnlığında asanlıqla tapan bu adam onun sifətinə baxan kimi anlayıb ki, bu adam çox danışanın biridir. Ona görədə mənə üz vermək istəmir. Bu iki fikir bəyaqdan sürücünü narahat edirdi. Ona görə də Polkovnikə sualı qorxa - qorxa verdi. O səbəbə qorxurdu ki, Polkovnik bu suala susaraq cavab verər. Sürücünün də bir

xassiyyəti vardı. Əgər verdiyi suala cavab almırsa bunu qarşı tərəfdən bir hörmətsizlik kimi qəbul edir. Ondan sonra qarşısındakının kim olmasından asılı olmayaraq həmin insan sürücünün gözündən düşürdü. Amma hər şey yaxşı qurtardı. Polkovnik:

- Hə uzun müddət olar ki, bu yerlərə ayaq basmıram.

Polkovnikin bu cavabından sonra sürücünün kürəyindən eləbil ağır bir yük götürüldü. Dərindən nəfəs aldı. Birazda gülümsədi. Sürücünün bu halı Polkovnikin fikrindən yayınmadı. Polkovnik:

- Deyəsən yolları düzəldiblər?

- Aha bəli.

- Yaxşı maşın sürürsüz - Polkovnik doğurdan da çox danışan adam deyildi. Sadəcə olaraq sürücünün dərindən nəfəs alıb yüngülləşməsindən sonra onu anlamışdı. Ona görə ünsiyyəti birazda uzadırdı ki, sürücü daha da sevinsin. Nə qədər olmaya yazıq stansiyada o soyuqda onun yolunu gözləmişdi. Cəbiyevin ünsiyyətdən çəkinməməsi sürücünü doğurdan da rahatlaşdırmışdı. Çünki Polkovnikin ciddi görkəmindən, iti baxışlarından, danışıq tərzindən, səliqəli geyimindən onun xoşu gəlmişdi. Belə bir adamın onun gözündən düşməsini heç istəməzdi.Sevincək halda Polkovnikə:

- Çox sağolun Polkovnik - dedi.

****

Polkovnik Rəsul Cəbiyevin Leytenant Qarayevin xahişi ilə rayona gəlib mərhum İlham Quluyevin işini araşdırması haqqında söz-söhbətlər çox çəkmədi ki, hər tərəfə yayıldı. Artıq camaatda da İlhamın ölümü haqqında şübhələr yarandı. Fevralın 23-də baş vermiş bu hadisəni yenidən Cəbiyev tərəfindən araşdırılmağa başlanmasını Rayon Prokurorluğu çox da müsbət qarşılamadı. Baş Müstəntiq Əlizadə bu xəbəri hiddətlə qarşıladı və Prokurorluqda səsini qaldıraraq işçilərə dedi:

"Mən Qarayevi yaxşı başa düşə bilmirəm. Mən Baş Müstəntiqəm. Öz işimi ləyaqətlə yerinə yetirməyimə heç kəs şübhə edə bilməz. Hamıdan əvvəl mən istəyirəm ki, bu işin üstü açılsın və əgər bu intihar deyil qətldirsə, qatil öz cəzasına çatsın. Qarayev məlum məsələdir ki, elə ilk gündən İlhamın intihar etməsini təkidlə rədd edirdi. Açığı məndə belə tezliklə bu məsələni intihar adıyla bağlamayacaqdım. Hamınızda bilirsiniz ki, bu iş hələ bağlanmamışdı. Araşdırmalar hələ davam edəcəkdi. Qarayev nəyə görə tələsib Bakıdan xəfiyyə çağırıb?. Təbii ki, sizin hamınız kimi məndə Rəsul Cəbiyevi çox gözəl tanıyıram. Nəinki mən, Cinayət Axtarış Şöbəsində işləyən bütün polislər Cəbiyevin peşəkar detektiv olmasını çox gözəl bilirdi. Amma gərək Qarayev tələsməzdi. Birazdan dedi - qodu yayılacaq ki, "bir şeyin üstünü də aça bilmirlər. Yaxşı ki, Bakıdan kömək gəldi. Yoxsa rayon Prokurorluğu onsuzda hər işdə acizdir".

Müstəntiq Əlizadə bu sözləri deyib otaqdan çıxdı. Qapını da möhkəm çırpdı.

***

Rayonun mərkəzindən mersedes markalı maşın çoxda sürətlə hərəkət etməyərək irəliləyirdi. Sükanın arxasında Leytenant Qarayev əyləşmişdi. Arxada isə Polkovnik Cəbiyev.Bir anlıq fikirdən ayılan Cəbiyev Qarayevdən soruşdu:

- Çoban Əhmədalının evi hardadır? - Cəbiyev İlham Quluyev haqqında bütün məlumatları bu iki gün ərzində nəzərdən keçirmişdi. Qarayev isə hər şeyi yerli - yataqlı Cəbiyevə danışmışdı.

- O, çoxdandı evində qalmır.

- Bəs harada qalır?

- Əlişanovların fermasında çobandır. Elə fermanın özündə qalır. Kəndin içinə də deyilənə görə çox az hallarda gəlir. Mən onunla bu barədə söhbət etmişəm.

- Mən də söhbət etmək istiyərdim. - Cəbiyev hövsələsiz şəkildə dilləndi.

- Necə istəyirsiz. İndi yəqin ki, fermadadı. Gedək ora.

- Sürün! - Polkovnik təmkinlə dilləndi.

****

Mersedes markalı maşın Qarabağ kanalını keçərək Əlişanovların fermasına tərəf irəliləyirdi. Yağış kəsmişdi. Amma hava soyuq idi. Külək əsmirdi. Maşın yavaş - yavaş fermanın sahəsinə yaxınlaşdı. Polkovnik Rəsul Cəbiyev mersedesin arxa şüşəsini endirib fermanın həyətinə göz gəzdirdi. O, uşaqlıqdan fermaya

getməyi, at çapmağı, kanaldan balıq tutmağı, tüfənglə yaxınlıqdakı meşəyə gedib ov etməyi, inək doğarkən ona tamaşa etməyi çox sevirdi. Fermanın həyətinə nəzər yetirərkən Polkovnikin bütün uşaqlıq xatirələri gözünün önündən lent kimi gəlib keçdi. Uşaqlıqda bir iti vardı. Onu həddən artıq çox sevərdi. Adını hansısa səbəbdən "Bandit" qoymuşdu. Banditin boyu balaca olsada özündən yekə bütün itlərə meydan oxuyardı. Onun ölümü indiyənə qədər Cəbiyevin yadında idi. Bandit yoxa çıxdığı andan saatlarla ayağıyalın onu axtarmışdı. Tapdığı isə Banditin cansız bədəni olmuşdu. Üstünə çoxlu milçəklər daraşan Banditin cəsədini görəndən sonran o, günlərlə özünə gəlməmişdi. O, ən yaxın dostunu itirmiş bir insan kimi kövrəlmişdi. Banditin ölüm səbəbini araşdırdı. Görünür, ölümlə bağlı tədqiqat işi aparmaq bacarığı Cəbiyevdə hələ uşaqlıqdan varmış. Sonra o, bildi ki, Banditi qonşu fermanın itləriboğub. Bu bir itin işi ola bilməzdi. Çünki Banditdə bir Bandit idi. 5-6 it tökülüşüb Banditin üstünə onu boğub öldürmüşdülər. Cəbiyev Banditin qanını yerdə qoymadı. Ov tüfəngi ilə o itlərin hamısını qırdı. O vaxtı bu hadisəyə görə o, çox döyüldü və söyüldü. Amma buna görə heç kəsdən üzr belə istəmədi. Peşman olmadığını dönə-dönə söylədi. Amma zaman keçdikcə hər şey dəyişdi. Polkovnik cinayət axtarış şöbəsində işlədiyi müddətdə müxtəlif qatilləri müxtəlif yollarla məhv etdiyi vaxtlar çox olmuşdu. Bunların heç birinə görə peşmanlıq hissi keçirməmişdi. İndi isə fermanın həyətinə baxanda vaxtilə tüfənglə öldürdüyü o quduz itlərə görə nədənsə pis olurdu. Bunun səbəbini o özü də bilmirdi.

Maşından birinci olaraq Leytenant Qarayev düşdü. Sonra isə Polkovnik Cəbiyev arxa qapını açıb maşından çıxdı. Qapını örtüb biraz o tərəf bu tərəfə baxmağa başladı. Ferma o qədər

də böyük deyildi. Qarabağ kanalından 200 metr aşağıda yerləşən bu fermanı ağaclar mühasirəyə almışdı. Amma qış olduğundan ağaclar fermaya xüsusi mənzərə verə bilməmşdi. Leytenant və Polkovnik fermanın içərisinə doğru yavaş-yavaş addımlamağa başladı. Təzəcə fermaya daxil olmuşdular ki, zəncirlənmiş itlərin səsi ətrafı bürüdü. Fermanın həyətində bir nəfər vardı. Əlindəki taxtayonan rəndədən aydın görünürdü ki, bu adam hansısa işlə məşğuldur. İtlərin səsindən sonra bu adam gələn qonaqlara sarı addımladı. Əynində köhnə kutka, başında papaq, əlində rezin əlcək olan bu adam Çoban Əhmədalı idi. Əhmədalı Leytenat Qarayevi tanıdı. Bir müddət əvvəl Qarayev bu kişini baş vermiş hadisəyə görə bir neçə dəfə sorğu-sual etmişdi. Əhmədalı Leytenantı tanısada Polkovniki tanımadı.

- Deyəsən mane olduq sizə?-Leytenant əlində rəndə tutmuş bu kişinin hansısa işlə məşğul olduğuna işarə edirdi.

- Salam yoldaş Qarayev. Yox mane olmursuz.Onsuzda elədə vacib bir iş deyil-Əhmədalı bu sözləri deyib,gözlərini Polkovnik Cəbiyevə zillədi. Yetərincə ciddi görkəmi olan bu adam Əhmədalının diqqətini cəlb etmişdi.

- Əleyke salam. Gəlin sizi tanış edim. Bu mənim yeznəm Polkovnik Cəbiyevdi. Bu da bu fermanın işçisi Əhmədalı kişidir. (Qarayev nədənsə "Çoban Əhmədalı" ifadəsini demədi).

- Çox şadam-deyə-Polkovnik təmkinlə dilləndi.

- Xoş gəlmisiz Polkovnik- Əhmədalı "Polkovnik" adını eşidəndə biraz duruxdu.

- Sizə bir neçə sual vermək istəyirəm. Vaxtınız var? - Polkovnik gözlərini Əhmədalının gözlərinə zilləyib dedi.

- Hə əlbəttə ki, keçəyin içəri.

- Yox narahat olmayın içəri keçməyəciyik.

- Onda eşidirəm sizi.

- Çoxdandı bu fermada işləyirsiz?

- 4 il olar.

- Usta Səfəri tanıyırsız?

- Bəli tanıyıram çox gözəl insandır. Yazıq indi çox pis gündədi. Bir tək oğlun ola o da cavan yaşında həyatdan köçə. Vallah doğurdan da ağır dərtdi. Mən yad ola - ola bu qədər pis oluram.İndi gör bədbəxtin ata-anası nə zülüm çəkir.

- Sizcə bu intihardır? - Polkovnik dilləndi.

- Eşitdiyimə görə intihar edib .---
-Kimnən eşidibsən? - Bu səfər Leytenant Qarayev dilləndi.

- Camaatdan.

- İlhamı tanıyırdız? - Polkovnik sorğu - sualı davam etdirdi.

- Elə belə. Ünsiyyətdə çox olmamışam onunla. Amma deyilənə görə rəhmətlik mərifətli oğlan olub.

- Cəsədin tapıldığı yer yadınızda qalıb?

- Bəli qalıb.

- Burdan çox uzaqdadı?

- Yox

- Bizi ora apara bilərsiz? -Polkovnik soruşdu

- Hə əlbəttə.

- Onda əyləşin maşına gedək.- Qarayev dilləndi. Polkovnik keçib arxada əyləşdi. Üstü-başı elədə təmiz olmayan Əhmədalı isə utana - utana maşına əyləşdi.

***

Çox keçmədi ki, maşın Qarabağ kanalının qırağında dayandı. Maşından birinci Leytenant, sonra Əhmədalı, sonuncu isə Polkovnik çıxdı.

- Buradı yoldaş Polkovnik - Əhmədalı dilləndi.

- Lap yaxşı. Mənimlə biraz irəli gedək.

Polkovnik və Əhmədalı kanalın qırağına sarı getdilər.

- İlhamın cəsədi bu kollara ilişib qalmışdı.

- Siz cəsəsdi görən kimi tanıdınız?-Polkovnik özünəməxsus şəkildə suallar verməyə başladı.

- Yox. Cəsədin suda əlləri görsənirdi. Amma sifəti suyun içinə girdiyinə görə tanımadım. Məni dəhşət bürümüşdü. Biraz

sakitləşib özümə gələndən sonra irəli gedib cəsədi özümə sarı dartdım ki, cəsədi sudan çıxarım. Meyitin üzünü görəndə məni yenidən dəhşət bürüdü. Çünki bu adamı tanıyırdım.

- Sonra nə etdiniz? - Polkovnik rahat şəkildə soruşdu.

- Cəsədi burada qoyub kəndə qaçdım.

- Saat neçə olardı siz cəsədi tapanda?

- Təxminən saat 8 -ə15 dəqiqə qalardı.

- Gedərkən sürünü də özünüzlə apardınız? - Polkovnik özüdə çox gözəl bilirdi ki, həmin an Əhmədalı kişinin psixologiyası elə bir vəziyyətdə olub ki, heç sürü yadına da düşməyib. Bu sualı verməkdə məqsədi Polkovnikin Əhmədalını yüngülvari yoxlamaq idi.

- Yox. O an heç sürü yadıma da düşmürdü.

- Bilirəm! - Polkovnik bu sözü deyib maşına sarı getdi. Leytenant maşının yanında dayanmışdı. Cəbiyev Qarayevə sarı addımlayırdı. Əhmədalı isə Polkovnikin arxasınca gedirdi.

- İndi hara Polkovnik? - Qarayev dilləndi.

- Körpünün yanına sür. - Polkovnik təmkinlə dilləndi.

- Bəs Əhmədalı?

- O da bizimlə gedəcək. Mən hələ onunla işimi bitirməmişəm.

Polkovnik, Leytenant və Əhmədalı uzunluğu 12 metr olan körpüyə yaxınlaşdı. Suyun şırıltısını istisna etsək demək olar ki, ətraf sakitlik idi. Kanldan aralıda qəbristanlığın mərmər daşları gözə dəyirdi. Polkovnikin körpüyə gəlməkdə məqsədi vardı. O, bu işlə tanış olanda Prokurorluğun məlumatına görə İlhamın özünü öldürmək məqsədilə kanala atması fikrini yadında saxlamışdı. Polkovnik körpüyə yaxınlaşıb, aşağı - su axan tərəfə baxdı. Suyun axını həddən artıq güclü idi. Əgər burdan kimsə özünü ora atarsa demək 100% -lik intihar üsuluna əl atmış olur. Cəbiyev körpünün hər bir tərəfinə iti baxışlarla nəzər yetirdi. Hər bir xırda detala belə fikir verirdi. Körpünün qıraq dəmirləri o qədər də etibarlı deyildi. Yəni qollarını ona söykəyib kanala baxmaq çox təhlükəli ola bilərdi. Polkovnik körpünün özlərindən sağ tərəfə hasara bənzər çəkilmiş köhnə rajotkaya oxşayan hissəsinə sarı getdi. Dəmir qoruyuculara diqqətlə nəzər yetirdi. Sonra dəmirlərdən yapışıb onların dözümlüyünü yoxladı.Aşağı əyildi. Yenə diqqətlə hər tərəfə nəzər yetirdi. Dəmir Qoruyuculara diqqətlə göz yetirməyə başladı. Polkovnikin bu hərəkətləri Qarayevə təəccüblü gəlməsədə, Əhmədalıya çox qəribə gəlirdi. Araya sükut çökmüşdü. Cəbiyev yenə də öz təhqiqatını aparmaqla məşğul olurdu. Dəmir qoruyucuları yoxlayandan sonra körpünü başlanğıcına sarı addımladı. Bu zaman Əhmədalı və Leytenant elə zənn etdilər ki, Polkovnik getmək istəyir. Amma Cəbiyev getmək üçün körpünün başlanğıcına sarı getməmişdi. Birdən Polkovnik geri çevrildi. Hasar kimi çəkilmiş, uzunluğu 12 metr olan dəmirlərin düz mütənasibliyinə nəzər yetirdi. Sonra ürəyində "Bu da belə" deyib körpünün digər dəmir qoruyucusuna baxdı. Polkovnikin üzünə baxan Leytenant Qarayev anladı ki, Cəbiyev artıq nədənsə şübhələnib. Polkovnik doğurdan da nədənsə şübhələnmişdi, amma bunu

özündən başqa heç kim bilmirdi. Birdən Polkovnik üzünü Əhmədalıya tutub soruşdu:

- Bu körpünü son vaxtlarda sökülüb və yaxudda nəsə bir dağılması hadisəsi olub?

- Yox olmayıb - Əhmədalı dilləndi.

- Dəqiq bilirsiz?

- Bəli. Olsaydı bunu hamıdan 1 -ci mən bilərdim.

- Niyə?

- Çünki mən demək olar ki,hər gün bu körpünü yanından keçib gedirəm. Körpünü özündən də hər gün istifadə edirəm. Əgər burda nəsə bir problem olsaydı mən onu bilərdim. Mütləq bilərdim

- Sizcə indi bu körpüdə problem yoxdu? - Polkovnik sınayıcı baxışla Əhmədalıya baxıb dilləndi.

- Bəlkədə var - Əhmədalı müqəssir kimi cavab verdi.

- Yaxşı gedəyin? - Polkovnik dilləndi.

- İndi hara? - Qarayev o dəqiqə dilləndi.

- Əvvəlcə Əhmədalını fermaya aparaq sonrasına isə baxarıq.

****

“Altı ay əvvəl”

Sentyabrın 23-də kənddə toy var idi. Kəndin cavanları yığışıb gecə toya baxmağa gedirdilər. Saat 23 : 00 olardı. Toyun maraqlı vaxtı idi. Çünki çox şən,oynaq mahnılar ifa edilirdi. Toy Usta Səfərin qonşuluğunda idi. Buna görə də toyda Səfərin özü, arvadı Güllü, oğlu İlham - yəni bütün ailə toya tamaşa etməyə gəlmişdilər. Səfərin ailəsi rəqs edilən yerə yaxın əyləşmişdilər. Digər sakinlər isə kənardakı oturacaqlarda əyləşib toyu seyr edirdilər. Oturanların arasında iki cavan oğlan vardı. Birinin 25, birinin 23 yaşı olardı. Onlar da digərləri kimi toyu seyr edirdilər. Cavanlardan biri qabaqda, biri isə ondan arxada əyləşmişdi. Qabaqda oturan oğlan gülümsəyirdi. Ağzında saqqız vardı. Saqqızı çeynəməyindən hiss olunurdu ki, məclisin abu-havası onun ürəyincədi.Arxada əyləşən oğlan isə nisbətən sakit görsənirdi. Daha doğru desək sakit görsənməyə çalışırdı. Üzündə hansısa səbəbdən məyusluq yağırdı. Birdən bu oğlanın rəngi qaraldı. Ağır - ağır nəfəs almağa başladı. Sifətinin ifadəsi iki saniyənin içində dəyişdi. Nifrət dolu baxışlarını camaat oynayan meydana zillədi. Meydanda oynayan Səfərin ailəsi idi. Güllü xanım oynaya-oynaya yaxında-anasının yanında əyləşmiş bir qıza yaxınlaşdı. Əlindən tutub qaldırdı. Qızda etiraz etmədi və ayağa qalxan kimi başını aşağı dikib Güllü xanımla ağır-ağır rəqs etməyə başladı. 19 yaşlı bu qızın qara saçları, qəhvəyi gözləri, balaca dodaqları və ağ dərisi onu xaricən gözəlliyini təmin edirdi. Artıq bütün məclisdə əyləşənlər bilirdi ki, Güllü xanım bu qızı oğlu İlham üçün alacaqdır. Çünki İlhamla bu qız bir - birlərini sevirdilər. Birazdan İlham və bacısı Səyidə də onlara qoşulub oynamağa başladı Usta Səfər isə ailəsinin ətafında sevinə - sevinə fırlanırdı. Gah əl çalır, gah onlara qoşulub oynayır, gah

da muzikantlara, videoçəkənlərə sevindiyindən pul paylayırdı. Hər şey öz qaydasında gedirdi. Hamı onlara tamaşa edirdi. Elə bu iki cavan oğlan da. Qabaqda oturan oğlan üçün gördüyü səhnə çox maraqlı idi. Baxıb gülümsəyirdi. Arxada oturanın isə nifrət dolu baxışları daha da kəskinləşmişdi. Birdən qabaqda oturan oğlan arxaya çevrilərək əsəsbdən dodağını çeynəyən oğlana yavaşca dedi: - Bir bax "dostlar" ının hamısı oynayır. - -Kəs səsini yoxsa başını qopardaram - oğlanın əsəbi səsindən qabaqda oturan oğlan diksinib üzünü çevirdi.

****

“Qəzəblənmiş Qabil Fərəcov”

Məhkəmə Tibb ekspertizasının əsas korpusunun qarşısında bir maşın dayandı. Maşın dayanan kimi maşından bir nəfər yerə endi.Aldığı rəng kostyumunun rəngindən seçilməyən bu adam əlində qovluq tutan Səlim Cəfərzadə idi. Məhkəmə Tibb ekspertizasının əsas nümayəndəsi olan Cəfərzadənin son günlərdə vəziyyəti heç yaxşı deyildi. Mərhum İlham Quluyevin işi ilə bağlı bəzi məlumatları gizlətməsinin üstü Leytenant Qarayev Tərəfindən açılmışdı. Amma Qarayev Cəfərzadənin fikirləşdiyi kimi eləmədi. Belə ki, Cəfərzadə fikirləşirdi ki, indi Qarayev bütün rayon Prokurorluğunu onun üstünə qaldıracaq. İndi də gəl bu söhbətdən quru çıx görüm necə çıxırsan. Amma hər şey Cəfərzadənin fikirləşdiyi kimi olmadı. Qarayev heç kimə bu barədə bir kəlmədə

deməmişdi.Bu,Cəfərzadəyə bu günə qədər qaranlıq qalmışdı. Çünki bu gün səhər Cəfərzadəyə məlumat verildi ki, Leytenant Qarayev mərhum İlham Quluyevin ölüm səbəbini dəqiq müəyyənləşdirmək üçün Bakıdan xüsusi Xəfiyyə çağırmışdır. Bu xəbəri eşidəndə Cəfərzadə barmağını dişləyib dedi: "Demək Qarayev bu işi sakitliklə həll etmək istəyir. Ona görə Prokurorluğa bir şey deyib, aləmi bir - birinə qatmayıb. Sən doğurdan da ağıllı tərpənirsən Qarayev. Çünki sən çox gözəl bilirdin ki, onsuzda bu müəmmalı hadisə hələ Prokurorluqda bağlanmayıb. Demək, təhqiqatı davam etdirmək istəyirsən". Cəfərzadə üstəlik eşidəndə ki, Qarayev özgə Xəfiyyəni deyil, öz qaynı Polkovnik Rəsul Cəbiyevi çağırıb. Onda Cəfərzadə doğrudanda narahatlıq keçirmişdi. Onun planı o idi ki, o gələn Xəfiyyə kimdirsə onu pulla ələ alıb bu işi intihar adıyla bağlayarlar. Artıq bu mümkün olası bir iş deyildi. Çünki o, Polkovnik Cəbiyevi çox gözəl tanıyırdı. Bilirdi ki, Cəbiyev digərləri kimi, şana - şöhrətə uyan deyil. Öz mənliyini pula satanlardan deyil. Cəfərzadə rüşvətin cövlan etdiyi, insanların canına ruh kimihopduğu bir zamanda Cəbiyev kimi insanları başa düşmürdü və mən əminliklə deyə bilərəm ki, Cəfərzadə kimi insanlar, Rəsul Cəbiyev kimi insanları heç vaxt başa düşməzlər. Çünki bu mümkün olası bir şey deyil. Bir dəfə televizorda təsadüfən Xalq yazıçısı Çingiz Abdullayevin müsahibəsini eşitdim. Abdullayevin bir cümləsi hələ də mənim yadımdadır. "Rüşvət alan məmurlar mənimçün fahişədən də betərdir". Rüşvət alan məmur özü də bilmədən qarşısındakının qabağında yeddinci mərtəbədən birinci mərtəbəyə düşür. Pulu çoxalır, mənəviyyatı isə azalır. "Mənəvi yoxsulluq" rüşvətlə varlanan insanların bədənindən, ruhundan, mənəviyyatından kənara çıxa bilərmi? Əlbəttə ki, yox. Bir ruh ki, "mənəvi yoxsulluq" dan ibarətdir. Bir bədən ki, qazandığı

günahlardan qalınlaşır, bir mənəviyyat ki, mənəviyyatdan qat - qat aşağı səviyyədə olan zərrəciklərlə korlanırsa onda o insan insan deyil. Sadəcə olaraq insan formasında görsənir. Əslində isə özü boyda bir zibildir.Mənim yadımdadır ki, Universitetdə Dünya ədəbiyyatı fənni keçiriləndə həmişə Fransız ədəbiyyatını sevərdim. Xüsusəndə, görkəmli novella ustası Gi de Mopassanı. Mən etiraf edirəm ki, ilk dəfə "Mənəvi yoxsulluğ" un mahiyyətini bu yazıçının əsərlərini oxuyarkən anladım. Məsələn "Vərəsəlik" novellası. Təsəvvür edin ki, varlanmaq üçün insanlar ən çirkin əməllərə belə əl atır və bu alınır. İnsan varlanır. Malı - dövləti, qızılı - brilliyantı çoxalır. Demək olar ki, zənginləşir. Amma burada görünməyən tərəflər var. Bu görünməyən tərəflər ondan ibarəttir ki,insanın zahiri zənginliyi tərəzinin bir gözündə olur. Digər gözündə isə elə insanların görmədiyi "Mənəvi yoxsulluq". O tərəzi həmişə hərəkətə gəlmir. Bir insan öz mənəviyyatını həmişə qoruyursa demək mənəviyyat daha da saflaşır, daha da təmiz olur və yüngülləşir. Buna görə tərəzinin mənəviyyat gözü daha da ucalır. Amma mənim dediyim insanlarda(Cəfərzadə düşüncəli insanlarda) tərəzinin digər gözündə saf mənəviyyat dayanmır. Burada dayanan "Mənəvi yoxsulluq" dur. Digər tərəfdə isə "Zahiri zənginlik". Amma təəssüf ki, "Mənəvi yoxsulluq" indinin özündə belə daha çox ağırlıq təşkil edir. "Zahiri zənginlik" isə hələ də havada özü üçün fırlanır.”Nə qədər pis əməllərlə varlansan da mənəvi yoxsulluğunu yerdən qaldıracaq gücünü o qədər də itirəcəksən.”

Səlim Cəfərzadə bu gün doğrudanda pis vəziyyətdə idi. Yavaş-yavaş addımlayaraq daş pilləkanlara yaxınlaşdı. Yuxarıya doğru fikirli halda addımlayırdı. Onun yadına Qarayevin məsələnin

gizli tərəfini öyrənib onun üstünə gələn zaman ona dediyi sözlər düşdü. Həmin gün Qarayev əlində qovluq tutmuş şəkildəCəfərzadənin kabinetinə daxil olmuşdu. Salam vermədən qovluğu Cəfərzadənin qabağına tullayıb soruşmuşdu.

- Bu nə deməkdir? Sizə kim ixtiyar veribki, məlumatları Prokurorluqdan gizlətmisiniz?

- Mən ciddi bir şeyi gizlətməmişəm.Üstümə də qışqırmayın. Qarşınızdakı da uşaq deyil sizin üçün. Əvvəlcə aydınlaşdır ondan sonra danış. Yəni anlamamış üstümə gəlmə-Cəfərzadə ayağa qalxaraq dillənmişdi.

Bu məsələyə Cəfərzadə aşağıdakı izahıyla aydınlıq gətirmişdi. Daha doğrusu aydınlıq gətirməyə çalışmışdır.

Mən bu məsələdə təkcə bir şeyi gizlətmişəm. O da İlhamın cəsədini müayinə edərkən onun baş nahiyəsinin arxasında zədənin olmasıdır. Bunu deyib məsələni qəlizləşdirmək istəmədim. Onsuzda bütün faktlar sübut edirki, İlham intihar etmək məqsədilə özünü körpüdən kanala atmışdır. O ki, qaldı o zədəyə. Aydındır ki, körpünün qabağındakı suyun axını çox sürətlidir. Yəqin cəsəd suda üzərkən harasa, nəyəsə dəyib. Vəssalam.

Səlim Cəfərzadə bütün bunları fikirləşərkən cib telefonunun zəngini eşitdi. Əlini cibinə salıb telefonunu çıxartdı. Ekrana "Qabil Fərəcov" yazılmışdı. "Qabil Fərəcov" adını oxuyarkən Səlim Cəfərzadənin rəngi qaraldı. Telefonu açaraq:

- Eşidirəm Yoldaş Fərəcov - Cəfərzadə qorxaraq dilləndi.

- Zəhrimar eşidirsən, çor eşidirsən - telefondan Fərəcovun qəzəbli səsi eşidildi.

- Sakit olun Fərəcov. Axı nə olub?

- Canına azzar nə olub. Məgər bilmirsən nə olub?. Məndə axmaq kimi sənin kimi əbləhə inanmışam. Sənsə adicə bir Leytenantın öhdəsindən gələ bilmədin. İndi Polkovnikin qabağında neyləyəcəksən? Deyəsəsn hələ xəbərin yoxdu o gələn qonaq haralara burnunu soxur. Bax budur deyirəm. Əgər bu işdən mən bir ziyan çəksəm, sənin başına bir oyun açaram ki, özünə ölümdən başqa heçnə arzulamazsan. Elə etki,o Polkovnik kimdirsə tezliklə buralardan çıxıb getsin.

****

Leytenant Qarayevin idarə etdiyi maşın Usta Səfərin qapısının qabağında dayandı. Maşından birinci olaraq Qarayev düşdü. Daha sonra arxa qapı açıldı. Polkovnik Cəbiyev maşından enərək ətrafa nəzər yetirməyə başladı. Ətrafda tək - tük adam gözə dəyirdi. Qarayev Polkovniklə birgə həyətə daxil oldular. Qapıda o qədər də çox adam yox idi. Bir topa adam həyətdəki yasxananı sökmək işinə köməklik edirdi. Usta Səfər həyətdə tək oturub siqaret çəkirdi. Üzünü tük basmış bu adamın görünüşü ürək ağrıdıcı təsir bağışlayırdı.Polkovnik və Qarayev yaxınlaşıb Usta Səfərə salam verdilər. Səfər salamı alıb onlara əyləşməyi təklif etdi.

- İçəridəkilərə denən evə adam gəlib - Usta Səfər bu sözləri elə dedi ki. Nəisə.. O, bunu dedi ki, içəridən çay hazırlasınlar. Həyətdəki uşaq bu sözü eşidən kimi içəri qaçdı.

- Bu mənim qaynımdı. Yəqin ki, onun haqqında eşitmisən məndən. Düzdü mən onun haqqında çox vaxt danışmıram.

- Tanıyıram. Xoş gəlibsiniz Cənab Polkovnik. Mənim sizə hörmətim həmişə böyük olub. Neçə dəfə istəmişəm ki, Qarayevdən xahiş edim bizi tanış etsin, amma çəkinmişəm. İndisə biz görüşdük. Amma mən heç vaxt belə görüş arzu etməzdim.

- Sizi çox gözəl anlayıram - Polkovnik təmkinlə dilləndi. Mən sizə baş sağlığı verirəm. Bilirəm indi kimdənsə "baş sağlığı" almaq çox çətindir. Amma mənim bura gəlməkdə məqsədim, təkcə baş sağlığı vermək deyil. Mən bura Leytenant Qarayevin xahişi ilə bu müəmmalı ölüm işini araşdırmağa gəlmişəm. Sizdən bir xahişim olacaq.

- Buyurun - Usta Səfər dilləndi. Sanki azda olsa Polkovnikin sözləri onu dirçəltmişdi.

- Əgər istəyirsinizsə oğlunuzun qatili...

- Necə? Siz hardan bilirsiniz ki, mənim oğlum intihar etməyib, onu qətlə yetiriblər?

- Usta Səfər təəccüblü şəkildə dillənərək Polkovnikin sözünü kəsdi.

- Mən hələ heçnə bilmirəm.Bu, istintaq sona çatanda məlum olacaq. Sizdən tək istəyim odur ki, məndən heçnəyi gizlətməyin və verdiyim suallara səmimi cavab verin. - Polkovnik sakit şəkildə danışırdı.

- Siz işinizdə olun cənab Polkovnik. –deyə- Səfər dilləndi.

- Sizin kiminləsə indi və ya nə vaxtsa düşmənliyiniz olub?

- Yox. Biz dədə - babadan sakit adamlar olmuşuq.

- Aydındır. Oğlunuzun necə? Şəxsi intiriqası olan kimsə vardı?

- Mən bildiyim qədərincə yox.

- Son vaxtlar kiminləsə xoşagəlməz söz - söhbətiniz olub?

- Bu sualdan sonra Səfər bir qədər fikrə gedib cavab verdi:

- Hə olub.

- Kiminlə?.

- Yalçınla.

- Yalçın kimdiki? Buralıdır?

- Əslən qərbi Azərbaycandandır. Amma lap çoxdan buralarda yaşayır.

- Onunla nə əlaqəniz olub?

O, usta işləyirdi. Mən də onun dəstəsində fəhləlik edirdim. Onun iş görməsinə heç kim şübhə edə bilməzdi. Səliqəli iş görənin biridir. Mən ustalığın bütün sirlərini onun əlinə baxıb öyrənmişəm. Özüm usta kimi işləməyə başlayanda Yalçını qızışdırdılar ki, guya mən demişəm ki, Yalçına ustalığı mən öyrətmişəm. Mən ustalığı öyrənəndən sonra artıq çox evlərə

Yalçını deyil məni çağırırdılar. Bu da ona acıq gedirdi. Neçə dəfə söz - söhbətimiz olub. Amma etiraf edirəm ki, Yalçın pis insan deyil. Sadəcə bəzilərinin boş - boş sözlərinə inanır.

- Aydındır - Polkovnik sakit şəkildə dilləndi.

Başqa birisi ilə yenə mübahisəniz olmuyub ki? - Polkovnik sorğu - sualı davam etdirdi.

-Yox olmuyub.

-Fevralın 23 -də siz hardaydınız?

-Evdəydim.

-Bəs arvadınız?

-O da evdə idi.

-İlham həmin gün evə saat neçədə gəldi?

-Təxminən 11-in yarısı olardı.

-Nə vaxt evdən çıxdı bəs?

-Elə 11-in yarısı olardı. Mən həyətdə siqaret çəkirdim. İlham gəlib evə girdi iki üç dəqiqə keçməmişdi ki, evdən çıxdı.

- Siz ondan soruşmadınız ki, haraya gedirsən?

- Əlbətdə soruşdum. Dedi, bir yer var ora gedəcəm. . Əmimgilə də getdim bəlkə.Kinoya baxacaqmış.Mənə belə demişdi.

- Kinoya öz evində baxa bilməzdi?.

- İki gün olardı ki, televizor işləmirdi, xarab olmuşdu.

- Aydındır. O, evə gələndə nəsə həyəcanlı kimi deyildi ki? - Polkovnik soruşdu.

- Mən heçnə hiss etmədim!

- İlham evə girən zaman həyat yoldaşınız harada olub?

- Mətbəxdə.

- Bəs qızınız?

- O, öz otağında dərs oxuyurmuş.

- Sizcə İlham nəyə görə evə girib və 5 dəqiqə sonra geri qayıdıb. Bəlkə evdən nəsə götürüb?

- Yox evdən nəsə götürməyə gəlmiyib.

- Hardan bilirsiniz?

- Onu çağırıblar.

- Kim? - Polkovnik cəld dilləndi.

- Biz bilmirik.

- Necə yəni bilmirsiniz. Bəs haradan bilirsiniz ki, onu geri çağırıblar?

- Həyat yoldaşım deyir ki, İlham otağa daxil olandan sonra onun telefonunun səsini eşidib. Amma nə danışdığını və kiminlə danışdığını bilməyib.

- Bağışlayın olar evinizə baxım? - Polkovnik dilləndi.

- Hə əlbətdə olar. Buyurun.

Polkovnik ayağa qalxıb içəri daxil oldu. Otaqların təmirindən görünürdü ki, bu vedə usta yaşayır. Balkondan sağ tərəfdə mətbəx vardı. Mətbəxdən 6 - 7 metr bəridə bir otaq və ona bitişik bir otaq da vardı. Polkovnik İlham girən otağa daxil oldu. Otaqda İlhama aid olan bütün əşyalar saxlanmışdı. Polkovnik otağa daxil olanda Leytenant Qarayev və Güllü xanım da otağa daxil oldular. Güllü xanımın üzündə illərin əzabı görünürdü. Polkovnik balaca mini şkafa yaxınlaşdı. Ağzını açmaq istəyəndə açılmadı.Güllü xanım:

- Orada "onun" şəxsi əşyaları olurdu deyəsən? Ağzı bağlıdır.

- Açarı var?

- Hə var. Səyidənin otağında, stolun üstündədir.

- Bu dəqiqə gətirərəm Polkovnik - Qarayev bu sözləri deyib otaqan çıxdı. Qarayev otaqdan çıxanda İlhamın bacısı Səyidə otağa daxil oldu. Boyu 1.64 olan bu qızın şabalıdı saçları vardı. Gözləri atasının gözlərinə bənzəyirdi. Əyninə qara şalvar geyinmişdi.

- Qızınızdı? - Polkovnik onsuzda bunu bilirdi.

- Hə qızımdır.

- Həmin gün Səyidə öz otağında dərs oxuyurmuş bildiyimə görə.

- Bəli. Anasının cavabını gözləməyən Səyidə yumşaq səslə cavab verdi.

- Ananız həmin gün İlhamın telefon zəngini eşidib. Səndə eşitdin?

- Hə məndə eşitmişəm.

- Nə danışdığını deyə bilərsən?

- Məndə ancaq anam kimi telefon zəngini eşitmişəm. Onda mən içəridə kitab oxuyurdum.

- Budur açarlar - Qarayev dilləndi.

- Nə yaman gec gəldin. Yoxsa tapa bilmirdin. - Polkovnik soruşdu.

- Yox mənə otaqda Baş Müstəntiq zəng vurmuşdu. Sizinlə görüşmək istədiyini dedi. Mən də dedim ki, Polkovnikin hələlik işi çoxdur, vaxtı isə yoxdur. Biraz söhbəti uzatdı ona görə.

- Aydındır - Polkovnik sakit şəkildə dilləndi. Açarları alıb şkafı açdı. Şkafda ciddi bir şey əldə edə bilmədi. İki şəkil vardı şkafda. Biri İlhamın iki dostu ilə çəkdirdiyi şəkil, bir də bir qızla çəkdirdiyi şəkil.

- Bu qız kimdir? Polkovnik şəklə baxıb soruşdu və başını qaldıraraq Güllü xanımın üzünə baxdı. Polkovnik verdiyi suala görə və tapdığı şəklə görə çox pis oldu. Güllü xanımın hər iki gözü parıldadı və göz yaşı damcıları üzü aşağı diyirlənməyə başladı. Özünü ələ ala bilməyəcəyindən qorxan Güllü xanım heçnə demədən otağı tərk etdi.

- Bu onun istədiyi qızdı. Çoxdandı bir - birlərini sevirdilər. Yazda nişanları olacaqdı. - Səyidə dilləndi.

- Bəs bu oğlanlar kimdi? Polkovnik digər şəkli Səyidəyə göstərdi.

- Onun dostları olmalıdır. Bakıdakı dostları. Buralı deyillər.

- Bəs qardaşınızın kənddə dostları yoxdur?

- Var. Daha çox bildiyimə görə Allahyar və Şamxalla oturub dururdu.

- Aydındır. Polkovnik bu sözləri deyib otaqda gəzişməyə, hər tərəfə iti baxışlarla nəzər yetirməyə başladı. Birdən cib telefonu zəng çaldı. Polkovnik telefonu çıxardı. Ekrana baxdı. Amma nədənsə açmadı. Bir - iki düyməni basıb telefonu əlində saxladı. Sonra yenə otağa nəzər salmağa başladı. Pəncərəyə yaxınlaşıb həyətə baxdı və çevrilərək Səyidədən soruşdu:

- Həmin gün siz öz otağınızda olmusuz?

- Bəli!

- İcazə olar otağınıza baxmağa?

- Hə əlbətdə olar.

Onlar Səyidənin otağına daxil oldular. Otaq İlhamın otağından darısqal idi. Polkovnik otağa daxil olub, gözucu ətrafa nəzər yetirdi. Otaqda bağa baxan bir pəncərə vardı. Polkovnik pəncərəyə yaxınlaşıb onu açdı. Biraz bağı seyr edib o tərəf bu tərəfə baxıb ürəyində "bu da belə" deyib geri çevrildi və qolundakı gümüşü saata baxandan sonra dilləndi:

- Yaxşı Səyidə çox sağol. Biz gedirik. Polkovnik getməzdən əvvəl mətbəxə də nəzər yetirdi. Bu zaman uzaqdan öz telefonunun zəng səsini eşitdi və üzünü Səyidəyə tutub:

- Səyidə telefonum deyəsən, İlhamın otağında qalıb. Pəncərənin ağzında qalıb yəqin Zəhmət olmasa onu gətir.

- Hə yaxşı - Səyidə cəld otağa qaçıb telefonu gətirdi.

Polkovnik Cəbiyev fikirli halda Usta Səfərin qapısından çıxıb maşına əyləşdi.

"Siqaret çəkən hər qadın fahişədirmi"?

Səhəri gün Məhkəmə Tibb ekspertizasının nümayəndəsi Səlim Cəfərzadə, Leytenat Qarayev və Polkovnik Rəsul Cəbiyev söhbət etmək üçün rayonun mərkəzində yerləşən "Simurq" kafesinə daxil oldular. İçəri daxil olub qıraqda - sakit bir yerdə əyləşdilər. Səlim Cəfərzadə əyləşən kimi gözü ilə ətrafa baxıb ofisiantı çağırmaq istəyirdi ki, biraz kənarda əyləşmiş kişinin səsini eşitdi.

- "Yasəmən gəl gör bu qonaqlar nə istəyir".

Bu səsdən sonra içəridən bir qadın çıxdı. Polkovnik əyləşən stola yaxınlaşıb:

- Nə buyuracaqsınız?

- Bizə yaxşı çay gətirin.

- Bu dəqiqə - qadın cavab verib içəri keçdi.

Qadının üz cizgiləri Cəbiyevə çox maraqlı gəldi. Əyninə geyindiyi paltar o qədər də təmiz olmasa da mütənaib bədən quruluşu bunu hiss etdirmirdi. Birazdan əlində padnos masaya yaxınlaşanda Cəbiyev bu səfər Yasəmənin qollarına fikir verdi. Paltarının qollarını çırmadığından Polkovnik rahat şəkildə onun biləklərini gördü. Bu səfər Yasəmənin sol qolundakı kəsik izləri Cəbiyevin gözündən yayınmadı. Çayı süfrəyə qoyub qayıdanda Cəbiyevin gözündən Cəfərzadənin Yasəmənin yeriyərkən oynayan əndamına oğrun - oğrun baxması yayınmadı. Yasəmən keçib içəridə əyləşdi. O, elə yerdə əyləşmişdi ki, Cəfərzadə, Cəbiyev və Qarayev onu rahat şəkildə görürdülər. Cəfərzadə stəkanı dodaqlarına yaxınlaşdırıb çay içmək istəyirdi ki, birdən onun bütün üz siması dəyişdi. Stəkanı bərk nəlbəkiyə qoydu və dedi:

- Bircə fahişənin əlindən çay içməyimiz çatmırdı.

Cəfərzadənin bu hərəkəti Qarayev və Polkovnik üçün təəccüblü gəldi. Qarayev:

- Sənə nə oldu birdən? Fahişə kimdir?

- Ora bax görəssən! -Cəfərzadə əsəbi şəkildə dilləndi.

Onların hər ikisi çönüb Yasəmənə sarı baxdılar. Yasəmən pəncərənin qabağında əyləşib pəncərədən çölə baxa - baxa siqaret çəkirdi. Onun pəncərədən çölə qəmgin və küsgün baxışları Cəbiyevin diqqətindən yayınmadı. O, həyatında siqaret çəkən çox kişi və qadın görmüşdü. Elə özü də arada istifadə də edirdi siqaretdən. Yasəmənin siqaret çəkmək üsulu yəni, hansı tərzdə çəkməsindən Cəbiyev anlamışdı ki, bu qadın bədbəxtin biridir. Kafedə çox cansıxıcı bir vəziyyət yaranmışdı. Qarayev:

- Durun gedəyin. Nəsə ürəyim sıxıldı burda.

- Elə məndə onu deyəcəydim - Cəfərzadə dilləndi.

Qabağındakı çaydan bir qurtum içən Cəbiyev:

- Necə istəyirsiniz durun gedəyin.

Onlar çay pulunu verib kafedən çıxıdlar. Maşına yaxınlaşıb əyləşdilər. Maşın yola düzəldi. 10 dəqiqədən sonra Cəfərzadə yaranmış sükutu pozaraq:

- Kapital bankın yanında düşəcəm. Siz gedin mənim burada işim var.

- Necə məsləhətdi - Qarayev dilləndi.

Maşın kapital bankın qarşısında dayandı. Cəfərzadə qabaq qapını açıb düşmək istəyirdi ki, Cəbiyevin səsini eşitdi:

- Yoldaş Cəfərzadə yadınızda bir şey saxlayın və heç vaxt unutmayın.

- Nəyi - Cəfərzadə təəccüblü şəkildə soruşdu.

- Hər siqaret çəkən qadına "Fahişə" deməkdüzgün deyil.

***

"Yasəmən Arzumanlı"

Yasəmən ailənin ikinci övladı idi. Özündən böyük bir bacısı vardı. Adı da Aygün idi. İlk əvvəlllər Yasəmənin ailədə heç bir problemi olmamışdır. Ailənin başçısı Qədir kişi ciddi bir insan olduğundan ailədə çox da səs - küy olmurdu. Normal ailə həyatı Aygünün ərə getmək məsələsində korlandı. Aygünə qohumlarından elçi gəlmişdi. Atası və anası bu işə razılıq versələr də Aygün dedi ki, dünya dağılsa da bu işə razı ola bilmərəm. İlk öncə Yasəmən də böyük bacısının bu hərəkətinin səbəbini anlaya bilmədi. Sonradan məlum oldu ki, Aygünün istədiyi bir oğlan var. Adı da İbrahimdir. O İbrahim ki, sonradan Yasəmənin həyatını öz həyatı kimi zəhərlədi. İbrahim haqqında o qədər də yaxşı söz - söhbətlər gəzmirdi. Hamı deyirdi ki, Aygün o, narkomanda nə görüb axı? "İçib, çəkib anasını döyməkdən başqa əlindən bir iş də gəlmir." Amma bu söhbətlər Aygünə batmırdı ki, batmırdı. Elə hey deyirdi: "Ya İbrahimə gedəcəm, ya da heç kimə". Aygün bunun üstündə nə qədər döyülsə də inadından dönmədi ki, dönmədi. Yasəmən də ilk əvvəllər bacısının tərəfini saxlayırdı. Çünki onda Yasəmən çoxda böyük deyildi. Axırda Yasəmənin atası əsəbləşib "gedirsən cəhənnəmə get" deyib otaqdan çıxdığı Yasəmənin yadında qalmışdı. İki ayağını bir başmağa dirəyən Aygün axır

ki, atasını razı saldı. İbrahimin valideyinləri elçi gəldilər. Elçilik vaxtı Qədir və arvadı elçilərə düşmən gözü ilə baxırdı. Aygünün anası elçilər gedincə ürəyində dedi. "Ürəyinin başı yansın bala gör bizi aparıb kimlərin sümüyünə caladın?". Çox keçmədi ki, Aygün və İbrahim ailə qurdular. İlk əvvəllər sakit yola getdilər. Bir ildən sonra xəbər gəldi ki, İbrahim doğurdan da narkoman imiş. Yasəmən elə bilirdi ki, bacısı xoşbəxtdir. Ta bilmirdi ki, İbrahimin içib evə gəlib onu döyməsinə bir ildiki Aygün atasının qorxusundan dözür. Bir dəfə evin qapısı bərk döyüldü. Qapını açıb gördülər ki, gələn Aygündü.Göz yaşları yağış suyuna qarışmış Aygün bir müddət öz evində qaldı. Daha sonra İbrahimin atası Yasəmənin atasına xəbər göndərdi ki, "ailədə söz - söhbət olması faciə deyil". Atam Aygünün yenidən evinə getməsinə razı oldu. Amma bununla da hər şey bitmədi. Aygün yenə qaçıb gəlmişdi. Bir müddətdən sonra İbrahim əlində balta həyətə daxil olub hamımızı hədələmişdi. Ondan sonra Yasəmənin atası dedi ki, Aygün mənim süfrəmin qırağında yeyib dolanacaq. Amma bir də o xarabaya qayıtmayacaq. Bundan sonra Qədir kişi Aygünün təkidilə onu kitabxanaya işə düzəltdi. Hər şey qismən də olsa yaxşı idi. Ta ki, həmin günə qədər...

Həmin gün Qədir və arvadı yaxınlarının toy məclisinə getmişdilər. Aygün də işə getmişdi. Yasəmən evdə tək oturmuşdu. Birdən qapı döyüldü. Elə bildi gələn bacısıdır. Amma qapını açanda qızın canına qorxu düşdü. Gələn İbrahim idi. Nə edəcəyini bilməyən Yasəmən yerində donub qalmışdı. Bundan istifadə edən İbrahim içəri keçdi.

- Deyəsən evdə heçkəs yoxdu?-İbrahim ətrafa boylana - boylana soruşdu.

- Sənə nə lazımdır? - Yasəmən qorxa - qorxa soruşdu.

- Sən ağıllı qızsan bacına oxşamamısan.

- İbrahim bu sözləri deyib çirkin baxışları ilə Yasəməni süzdü. Yasəmənin o vaxtı 18 yaşı təzəcə tamam olmuşdu. Amma bədən fiqurası onun yaşını biraz çoxaldırdı. Mütanasib bədən quruluşu, bir qədər ətli dodağı, qəhvəyi saçları, koftasının altında təzəcə boy atmağa başlayan balaca döşlərini görən İbrahimin ağzı sulanmağa başladı. Yaxınlaşıb Yasəməni qucaqladı. Köməksiz qalmış qız qışqırmaq istədi, amma qışqıra bilmədi. İbrahim onu qucaqlayıb divana yıxdı. Qızın boynunu, dodaqlarını qızmış aslan kimi öpməyə başladı. Ağzından içki qoxusu gələn İbrahim 5 dəqiqəyə qızın əynindəki bütün paltarını çıxartdı. Koftanı elə güclə dartdı ki, kofta cırıldı. Koftasını çıxarandan sonra İbrahimin ehtirası daha da qızışdı. Yasəmənin açıq qalmış sinəsi İbrahimi dəli etdi. Onları elə möhkəm dişləyirdi ki, yazıq qızın az qala ürəyi partlayacaqdı. Yasəmənin artıq gücü qalmamışdı. "Burax! burax məni alçaq!. Atam sənin başını kəsəcək!"bu sözlərin heç bir mənası olmamışdı.Artıq İbrahim Yasəmənin şalvarını əynindən çıxarmışdı. Ağ alt paltarı çox dar olduğundan quduzlaşmış İbrahim onları cırıb çıxartmaq məcburiyyətində qaldı. Artıq Yasəmənin ayağındakı corabdan başqa əynində heçnə yox idi. Bundan sonra İbrahim özüdə dəli kimi öz şalvarınıda əynindən çıxartdı və özünü Yasəmənin üstünə atdı. Yasəməni bir tərəfdən İbrahimin ağzından gələn iyrənc iyi, bir tərəfdən də göbəyindən aşağıda başlayan ağrılar əldən saldı. İbrahimin isə ehtirası soyumaq bilmirdi ki, bilmirdi. Birazdan Yasəmən kəskin bir ağrı hiss etdi. Özünü saxlaya bilməyib qışqırdı. İbrahim ayağa durdu. Paltarını geyinib otaqdan çıxdı. Yasəmən isə huşsuz vəziyyətdə divanın üstündə uzanmışdı. Birazdan

özünə gəlib ayağa durmaq istəyəndə belindəki ağrı onu yenidən oturmağa məcbur etdi.Yasəmənin ağ-pambıq kimi incə budları qana boyanmışdı. Qanı görəndən sonra Yasəmən anladı ki, o, artıq bakirəliyini itirib. Hönkürə - hönkürə ağlayıb özünü divanın üstünə atdı. Baş verən bu iyrənc hadisəni Yasəmən indinin özündə belə unutmayıb. O vaxtı Yasəmən qorxusundan bunu heç kimə bildirmədi. Məktəbdə sevdiyi oğlan da vardı. Ona da heçnə demədi. Çünki həmin oğlan biləndə ki, sevdiyi qız bakirəliyini itirib, sözsüz onunla ailə qurmaq fikrindən daşınacaqdı. Nə edəcəyini bilmirdi. Bütün günü o iblisə lənətlər yağdırırdı. İbrahim onun həyatını məhv etmişdi. Hərdən İbrahim onu zorlayan zaman dediyi sözlər yadına düşürdü. "Narahat olma, ərə getməyinə az qalmış gedib Bakıda bunu həll edərik". Necə də iyrənc bir şey. Yasəmən bunları xatırlayanda ürəyi bulanırdı. Sevdiyi oğlanla isə aranı yavaş - yavaş soyutmağa başlamışdı. Ona heçnə deyə bilməzdi. Çünki ona bunu deyib ayrılsaydı, camaat başlayacaqdı bu qəfl ayrılığın səbəbini axtarmağa. Əgər bunu Qədir kişi bilsəydi....

Bir müddət sonra Yasəmən həmin oğlana onu "sevmədiyini" deyib əlaqəni birdəfəlik kəsdi. Yazıq oğlan illər keçsə də bunu başa düşə bilməmişdi. O, Yasəməni həqiqətən sevmişdi...

Xeyli zaman keçdikdən sonra Yasəmən Universitetə hazırlaşmağa başladı. Uzun sürən əziyyətdən sonra o, istədiyinə nail oldu. Universitetin 3 -cü kursunda oxuyanda "bakirəliyin mənim üçün əhəmiyyəti yoxdur" deyən bir oğlanla görüşməyə başladı. Oğlan o qədər də imkanlı olmasa da yetərincə yaraşıqlı idi. Yasəmənin elə ilk baxışdan bu oğlandan xoşu gəlmişdi. Oğlanda Yasəməni bəyənmişdi. Yasəmənə onunla ailə həyatı quracağına söz vermişdi. Oğlan kirayə tutduğu evdə tək qalırdı. Yasəməni neçə dəfə öz evinə gətirsə də ona heçnə

etməmişdi. Bir müddətdən sonra onların arasındakı bütün pərdələr götürüldü. Həmin oğlan İbrahimdən sonra ikinci bir adam idi ki, Yasəmənlə yatağa girmişdi. Təbii ki, Yasəmən İbrahimlə həmin oğlanı bir tutmurdu. İbrahim onun gözündə insan deyildi, iyrənc məxluq idi. Yasəmən həmin oğlanla yataqda olduğu müddətdə keçirdiyi anları, hissləri heçnəyə dəyişməzdi. Bir dəfə yataqda olarkən oğlan ondan bakirəliyini itirməsinin səbəbini soruşdu. Yasəmən isə baş verənləri təslifatı ilə oğlana nağıl etmişdi. Həmin oğlanla Yasəmən oğlanın tutduğu evdə aylarla ər - arvad kimi yaşamağa başladı. O vaxtı universitetdə Yasəmənin yerlisi də oxuyurdu. Ağzı yırtığın biri idi. Yasəmənin həmin oğlanla ər - arvad kimi yaşadığını hansısa yolla öyrənib, Yasəmənin ailəsinə çatdırmışdı. Qədir kişi o vaxtı əlinə balta götürüb Bakıya gəlmək istəyəndə, arvadı onun qabağını kəsib "Məni öldür amma bu qapıdan çölə çıxma"sözlərini dedi. Qədir kişi Yasəmənə söz yolladı ki, "Daha mənim Yasəmən adında qızım yoxdu. Gətirib qapıma hürən qancığı zincirləyərəm, amma onu bu qapıya qoymaram". Yasəmən eşidəndə aylarla göz yaşı axıtdı. Çıxış yolunu həmin oğlana ərə getməkdə görürdü. Belə də etmək qərarına gəlmişdi. Düşünürdü bu oğlana ərə gedər və hər şey yavaş - yavaş öz qaydasına düşər. Amma hər şey Yasəmənin düşündüyü kimi olmadı. Sən demə hələ ən ağır sınaqlar qarşıda imiş. Bir gün Yasəmən eşitdi ki, həmin oğlan dəhşətli yol qəzasında dünyasını dəyişib. Hər şey Yasəmənə qarşı dayanmışdı. O an o, bu xəbərə hazır deyildi. Axı niyə belə olmalıdır? Mənim axı həyatda nə günahım vardı? Artıq bu sualların da Yasəmənə heç bir köməyi olmadı. Həqiqət çox acı idi. Amma həqiqət idi. Oğlan ölmüşdü. Daha heç nəyi dəyişmək mümkün deyildi. Çarə ancaq güclü olmaq idi. Çox keçmədi ki, Yasəmən ikinci zərbəni aldı. Yenə də itirmişdi o. Özüdə ən yaxınını. Anasını.

Onu qorumaq üçün ölümə belə hazır olan anasını.Onu doqquz ay bətnində gəzdirən anasını. İndi onun bir istəyi vardı. Heç olmasa Anasını son mənzilə yola salanda yanında olmaq istəyirdi. Bu mümkün olan bir şey idimi? Qədir buna icazə verərdimi? Bəlkə də verərdi. Yasəmən öz atasını tanıyırdı. Bilirdi onun xasiyyətin. Nə qədər sərt və əsəbi olsa da, ürəyi daşdan deyildi. Yasəmən artıq qərarını vermişdi. O, evlərinə dönəcəkdi. Anasının dəfnində nəyin bahasına olursa olsun iştirak edəcəkdi. "Qoy Atam məni baltayla tikə - tik etsin, mən ora gedəcəm". Yasəmən bütün bunları fikirləşib qərarını vermişdi. Əgər Anam mənimçün ölümdən qorxmadan özünü baltanın qabağına verirsə, mən niyə onunçün bunu etməyim. Yasəmən artıq yolda idi. Avtobusun şüşəsindən ağlaya - ağlaya bütün yol boyu çölə baxmışdı. Yaşadıqları evin darvazasına yaxınlaşanda onu kədərli hisslər bürüdü. Uşaq vaxtı Yasəmənin bu evdə çox xoşbəxt günləri olmuşdu. İndisə nə vaxtsa xoşbəxt olduğu bu həyətin qapısını açmağa cürəti çatmırdı. O, qorxurdumu? Yox. Yaxşı deyiblər "Nə vaxtsa xoşbəxt olduğun yerə çalış bir də qayıtmayasan". Çünki bu sənə əzabdan başqa heçnə verməyəcək. Yasəmən üçün bu ev əziz olsa da həyatını korlayan o iyrənc hadisə də məhz bu evin divarları arasında olmuşdu. O alçaq İbrahim onu bu divarların arasında məhv etmişdi. Məhz bu evdə ona ləkə vurmuşdu. Məhz bu evdə onu məcbur soyundurub divana yıxmışdı. Məhz bu evdə onun sevincli və rahat günlərinə son qoyulmuşdu. Məhz bu evdə onun 18 il qoruduğu bakirəliyi pozulmuşdu. Məhz bu evdə.... Məhz bu evdə....

Yasəmən yavaş - yavaş həyətə daxil oldu. O, düşünürdü ki, böyük bacısı Aygün onu görən kimi onun qabağına qaçacaq. Amma belə olmadı. Çünki Aygün 6 ay əvvəl birinə qoşulub

qaçmışdı. Yavaş - yavaş həyətə daxil olan Yasəmən evə daxil olmaq istəyəndə Atası ilə qabaq - qabağa gəldi. Ani bir sükut hər tərəfə yayıldı. Yasəmən heç vaxt inanmazdı ki, atasını nə vaxtsa belə vəziyyətdə görəcək. Qədir doğrudan da əvvəlki insan deyildi. Əvvəlki sərt və ciddiliyindən əsər-əlamət belə qalmamışdı. İndi Yasəmənin qarşısında əvvəlki kimi ciddi görkəmi, sərt baxışı olan Qədir dayanmamışdı. İndi onun qarşısında sifətindən yazıqlıq, zavallılıq yağan kövrək, küskün, qəmgin baxışları olan bir insan dayanmışdı. Zaman insanı nə günə salarmış İlahi?.Onlar susurdular. Danışa bilmirdilər. Qədirin birdən gözləri doldu. Yasəmən atasının bu vəziyyətini görüb özünü saxlaya bilməyib, atasının qarşısında dizi üstə çökdü. Bu səhnəni təsvir etmək mənimçün çox ağırdır. Bəlkə də yazıçılıq işindəki təcrübəsizliyimdənirəli gəlir bu. Amma bu səhnəni təsvir etməyə qələm doğurdan da acizdir. Mən bir oxucu olaraq həmişə Hüqonun yaradıcılığını sevmişəm. "Paris - Notr-Dam kilsəsi" əsəri həmişə yadıma düşəndə ilk öncə Esmeraldanın anasıyla görüşməsi hissəsi yadıma düşür. Həmin səhnəni təsvir edən Dahi Fransız yazıçısı Hüqo etiraf etmişdi ki, "Artıq bu səhnəni təsvir etməyə qələm acizdir......

Yasəmən atasının təkidi ilə onun yanında yaşamağa başladı. Onun atası çox dəyişmişdi. Əvvəlki kimi deyildi. Daha qışqırmır, əsəbləşmir, sərtləşmirdi. Amma bütün bunlar Yasəməni sevindirmirdi. Əksinə məyus edirdi. Çünki o,atasına başqa cürəöyrəşib,alışmışdı.Atasının yanında qaldığı 2 il olsada, bir həftə də olsun keçmişdən söz salmamışdılar. Zaman keçdi. Yasəmən indi biraz özünə gəlmişdi. Amma təəssüf ki, bu da uzun sürmədi. O, yenə itirdi. Özüdə yaxınını. İllərdən sonra onu öz yanında saxlayan atasını...

Yenə də göz yaşı, yenə də iztirab, yenə də əzablar. "Görəsən həyatın mənə əzab verməkdən başqa bir işi yoxdurmu". İndi Yasəmənin fikirləşdiyi bunlar idi. Ancaq əzabverici düşüncələr... Başqa heçnə...

Atasından sonra Yasəmən nənəsi ilə yaşamağa başladı. Ana nənəsi ilə. Yaxşı ki, dövlət Yasəmənə "yetim pulu" ayırmışdı.Yavaş-yavaş Yasəmən həyatın amansız qanunlarına öyrəşirdi. Zaman isə dayanmaq bilmirdi. Bir dəfə Yasəməni xalası öz evinə dəvət etdi. Bu ona çox təəccüblü göründü. Axı neçə illərdir onu heç bir qohumu yadına salmamışdı. Həmin gün xalasının ona dediyi sözlər Yasəməni "Şillə" kimi tutdu. Xalasının anadangəlmə şikəst doğulan bir oğlu vardı. 30 yaşı olardı. Xalası həmin görüşdə Yasəmənə dedi:

- Sən anandan mənə əmanətsən. Səni mənim qədər istəyən olmaz. Özün də bilirsən ki, səni indidən belə heç kəs alası deyil. Gəl razı ol səni alım oğluma.

Xalasının bu sözü sözün həqiqi mənasında Yasəməni "Şillə" kimi tutdu. "Səni onsuzda heç kəs alası deyil". Bəlkə doğrudan da onu indidən belə heç kəs almazdı.Amma Yasəməni təhqir etməyə, əzməyə, olub keçənləri "haqsızlıqları" onun üzünə vurmağa heç kəsin ixtiyarı yoxdur. Yasəmən xalasıgilin bu hərəkətinə dözə bilməzdi. Nənəsi də elə hey qızının sözünü təkrarlayırdı. "Sən qudurmusan ki, özümüzünküləri bəyənmirsən? Bəyənmirsən onda rədd ol get, bəyəndiyin çnovniklərinin yanına". Yasəmən oralardan əbədi olaraq uzaqlaşdı. Üz tutdu Küləklər şəhərinə...

“Qabil Fərəcov Yasəməni necə tapdı?”

Bəzən biz hər hansı romanı oxuyanda ondakı hadisələri, insanların başına gələnləri görüb inanmırıq. Düşünürük ki, bunlar heç vaxt həyatda ola bilməz.Bu mümkün deyil. Gənc olsambelə istəyirəm bu haqda bir-neçəkəlmə deyəm.Bir dəfə bir nəfər Rus yazıçısı Dostoyevskinin yanına gələrək söyləmişdi. "Mən bir roman yazmaq istəyirəm , amma mövzu və ideyanı haradan götürəcəyimi bilmirəm". Dostoyevski isə söyləmişdi:

"Əgər istəyirsənsə yazdığın roman mənalı və oxunaqlı olsun, onda öz təxəyyülündən heçnə uydurma.Çünki bu həyat elə qurulub ki, istədiyin materialı bu həyat sənə verəcək. Onda əsərin həqiqətən oxunaqlı olacaq". Mən ilk dəfə Hüqonun "Səfillər" ini oxuyanda Fantenanın başına gələnləri həyatda kiminsə başına gəlməsinə inanmazdım. Bir insanın taleyi bu qədər acınacaqlı ola bilərmi? Bir qadın öz balasını qorumaq üçün ağzındakı dişini çıxarıb sata, sonra isə ağzından qan axa - axa öz dağılmış , köhnə evinə qayıda bilərmi? Bir insan öz saçlarını kəsib sata bilərmi? Bəli! Bu mümkündür. Bu həyatda hər şey ola bilər. Drayzer.Mənim sevimli yazıçım."Cenni Herhardt" ömrümdə birinci dəfə oxuduğum əsər.Cenni öz əzizlərini ard-arda itirəndə fikirləşmişdim ki, bu həyatda heç vaxt ola bilməz.Amma ola bilərmiş demə. Cenni ilk öncə anasını, yox əvvəlcə güvəndiyi Brenderi, daha sonra anasını, sonra atasını, qızını və sonda əri Lesteri itirdi. Bir insan bu qədər həyatda itirə bilərmi?.Bəli. İtirə bilər.Elə bizim tanıdığımız Yasəmən kimi. Yasəmən Arzumanlı kimi...

Yasəmən Bakıya ilk əvvəl gələndə nə edəcəyini bilməmişdi. Metronun 20 yanvar stansiyasında dayanandan sonra qərar verdi ki, ağzındakı qızıl dişləri satsın. Belə də etdi. 4 qızıl dişini 18 manata satdı. Daha sonra Parixmatıra gedib, saçlarını kəsdirib satdı. Qazandığı pulun üstünü düzəldib özünə ev

kirayə elədi və səhərisi iş axtarmaq üçün şəhərə çıxdı. Çox axtardı.Çox yerə baş çəksədə bir şey çıxmamışdı. Axırda 28 mayda bir elana rast gəldi. "Gənc, cavan qızlar tələb olunan" bir iş idi. Həmin nömrəyə zəng vurdu. Telefonu bir kişi götürdü:

- Eşidirəm - 40 yaşlı bir kişinin səsi gəldi.

- Mən işlə bağlı zəng vurmuşam.

- Neçə yaşınız var?

Yasəmən bu suala bilmədi nə cavab versin. Olub keçənlərdən sonra heç yaşıda düz ağıllı yadında qalmamışdı. Ona görə də ağlına gələn ilk rəqəmi dedi:

- 25.

- Çox gözəl evlisiniz?

- Boşanmışam.

- Yasəmən artıq özünə sərf eliyən cavabları deyirdi.

- Atanız, ananız var?

- Mənim heç kimim yoxdu! - Verdiyi cavabdan Yasəmənin özüdə diksindi. Necə oldu ki, o, bu sözü tanımadığı bir adama dedi. Yasəmənin bu cavabı telefondakı kişini dirçəltdi.

- İşə ehtiyacınız çox olar yəqin?

- Çoxdu.

- Onda sabah mütləq yanıma gəlin.

- Hara?

Telefondakı adam ünvanı verib telefonu asdı. Yasəmən evə gəlib əynini dəyişdi. Səhəri deyilən ünvana getdi. Orada bir nəfərlə söhbət edəndən sonra ona bir ünvan verib ora yolladı. Şirkətə bənzər bir yerə gələn Yasəmən burada bir nəfərin kabinetinə daxil oldu. Kabinetdə bir kişi oturmuşdu. Kostyum geyinmişdi. Dolu bədənli birisi idi. Yasəmən içəri girən kimi ona oturmaq üçün yer göstərdi. Yasəmən isə təşəkkür edib əyləşdi. Qara kostyumlu bu kişi Yasəməni başdan ayağa süzdü. Həmin gün bu adam Yasəmənləçox mehriban rəftar etdi. Onu öz otelinə işə düzəltməyə söz verdi. Hələlik də öz yanında işləməyi təklif edib Yasəmənə 150 manat pul verdi. Yasəmən ilk öncə etiraz etsə də ehtiyac ona güc gəldi. 40 yaşı olan bu kişinin adı Qabil Fərəcov idi. Qabil Yasəmənə kömək etdi. Amma bu xeyirxahlığın sonunda nəyin dayanacağını heç kəs bilmirdi. Elə Yasəmənin özü də. Yavaş - yavaş Yasəmən Fərəcovyn təsiri altına düşdü. Onunla gəzməyə, kafeyə yemək yeməyə də getdi. Bir dəfə Fərəcov Yasəmənə dedi ki, daha o daxmada qalmağına ehtiyac yoxdu. Oteldə səninçün bir nömrə tutmuşam. Orada qalarsan. Axşam hazırlaş gedək öz otağına bax. Yasəmən yenə etiraz etmək istəsə də bunu etmədi. Axşam Fərəcovun maşınında otelə getdilər. Otağa daxil oldular. Otaqda böyük bir çarpayı da vardı. Yasəmən otaqdakı hamam - tualetə göz gəzdirib, otağa qayıtdı və həmin çarpayıda oturdu. Fərəcov Yasəmənə yaxınlaşıb yanında oturdu:

- Sənə deyiblər ki, çox gözəlsən? - Fərəcov dilləndi.

- Çox sağolun - Yasəmən gülümsənərək dilləndi.

- Sağola ehtiyac yoxdu. Mən sadəcə olaraq olanı dedim. Bu sözləri deyəndən sonra Fərəcov Yasəmənin saçlarını sığallamağa başladı. Yaxınlaşıb üzündən öpdü. Baş verənlər Yasəmənə qəribə hisslər bəxş edirdi. Fərəcov Yasəməni özünə sıxdı, dodaqlarından öpdü. Yasəmən heç bilmirdi nəyə görə dartınıb onun əlindən çıxmağa çalışmır. Nəyə görə o, təslim olmağa belə hazırdır. Bəlkə o, Fərəcovun etdiyi yaxşılıqlardan sonra ona etiraz etməyə utanır? Fərəcov yavaş - yavaş Yasəmənin boynunu öpməyə başladı. Fərəcovun bahalı ətrinin iyi onu daha da zəiflədirdi.

- Xahiş edirəm bəsdirin! - Yasəmən zəifcəsinə dilləndi. Amma Fərəcova bu sözlər kar etmədi. O, Yasəmənin köynəyini yavaş - yavaş çıxartdı, daha sonra qucağına alıb çarpayıya uzatdı. Etdiyi hərəkətlərdən aydın olurdu ki, Fərəcov belə şeylərdə peşəkardır. Çarpayıya uzadandan sonra Fərəcov Yasəməni soyundurdu. Özüdə soyunub onu qucaqladı. Baş verənlər Yasəmən üçün çətin olsa da onun xoşuna gəlirdi. Fərəcov başladığı işi sona yetirəndən sonra əynini geyinib otaqdan çıxdı. Yasəmən isə baş verənlərin xoş ahu - zarında qalmışdı. Səhərisi gün Yasəmən həyatında növbəti zərbəni aldı.

"Qadın Alveri".

Bəli, Cəmiyyətimizin ən böyük bəlası qadın alveri. Təəssüf ki, bizim qəhrəman Yasəmən də bu amansız alverin qurbanı oldu. Onu satmışdılar. Adi bir əşya kimi. Özüdə kim? Güvənib etibar etdiyi Qabil Fərəcov. Qabil fərəcov 4 il olardı ki, belə iyrənc işlər üçün xaricilərlə müttəfiq idi. Yasəməni xaricilərə satmaq istəyən də məhz Qabil Fərəcov olmuşdu. Məsələni gizlicə öyrənən Yasəmən həmin oteldən qaçıb kirayə tutduğu evə gəldi. Paltarını yığışdırıb qaçmaq istəyirdi ki,

həyətə yad kişilərin girdiyini gördü. O an nə edəcəyini bilmədən stolun üstündəki bıçağı götürüb gələnlərə hücum etdi. Yasəmənin gözünə heçnə görünmürdü. Bıçaq dava zamanı onun öz damarını kəsdi, amma Yasəmən heç bir ağrı hiss etmədi. Var gücünü topluyub həmin adamların birinin sinəsinə həmin bıçağı sancdı. Yad adamlar iki nəfər idi. Dostunun yaralandığını görüb onu maşına qoyub apardı. Yasəmən isə qan itirdiyindən huşunu itirdi. Onun sol qolunun damarları bir neçə yerdən kəsilmişdi. Gözünü açanda xəstəxanada idi. Artıq özünə gəlmişdi. İndi ancaq o, bir şeyi bilirdi. İndən belə heç nəyə və heç kimə güvənməməyi. Yanına bir neçə dəfə polis gəlsə də Yasəmən doğru - dürüst heçnə demədi onlara. 3 -cü günü o, gözləmədiyi qonağı görəndə çox əsəbləşdi. İstədi çarpayıdan sıçrayıb gələn qonağın yaxasından yapışıb boğsun. Amma buna gücü çatmadı. Gələn, insan cildinə girmiş İblis idi. Fərəcov yavaş - yavaş addımlayaraq Yasəmənə yaxınlaşdı:

- Sən mənim fikirləşdiyim kimi zəif deyilsənmiş - Fərəcov dilləndi.

- Alçaq...

- Ey biraz yavaş... Fərəcov dilləndi.

- Sən alçaq adamsan. Mənsə sənə inanmışdım. Sənin xoş sözlərinə, şirin dilinə, mehriban rəftarına aldandım sənin.

- Qulaq as. Burada çox qala bilmərəm. Onu bil ki, sən indi bir qatilsən.

- Mən qatil deyiləm. Qatil sənsən. Hələ kim bilir mənim kimi neçə qadını öz iyrənc əməlinin qurbanına çevirmisən.

- Onların dərdi sənə qalmayıb - Fərəcov əsəbləşdi.

- Sən nə qədər şərəfsiz adamsanmış!. Yox. Sən insan ola bilməzsən. Sən içi çirkabla dolu olan bir İblissən.

- Kəs səsini! - Fərəcov bağırdı.

- Çıx burdan!.

- Gəlmişəm sənə deyim ki, bıçaqla vurduğun adam ölüb. Amma bu barədə polisə xəbər verməmişik. Əgər ömrünün qalanını dörd divar arasında keçirmək istəmirsənsə, ağzını möhkəm saxla. Heç kimə heç nə demə. Polislərə də denən ki, ehtiyatsızlıqdan əlini kəsmisən.

- Mən susum sizdə mənim kimilərini tora salmaqda davam edin hə?

- Lənətə gələsən! M.əni özümdən çıxartma. Onları heç kim məcbur etmir. Məcbur etmirik ki, gedib kişilərlə yatağa girib q...... etsin!. Onlar bu yolu özləri seçir. Onların dərdi sənə qalmayıb. Yaxşı olar ki, mən deyənlərə qulaq asasan. Yoxsa...

- Yoxsa nə?Öldürəcəksən məni? Bir mənə bax ay axmaq! Gör məni nə ilə qorxudursan. Mən icazə verməyəm ki, köməksizləri öz iyrənc işinizlə məhvə doğru aparasınız.

- Yaxşı sən məni buna özün məcbur etdin - Fərcov bu sözləri deyib əlindəki zərfi Yasəmənin üstünə tulladı. Yasəmən ilk öncə elə bildi ki, zərfdəki puldu. Ona görə də...

- Sənin iyrənc pulların mənə lazım deyil.

- Oradakı pul deyil. Səninçün puldan da qiymətlidir. Açıb baxmağın məsləhətdir.

Yasəmən zərfi açdı. Zərfdə şəkil vardı. Bu bir qadının həyətdə balaca qızı və əriylə zarafat edən zaman kiminsə onları gizlincə çəkdiyi şəkil idi. Şəkilə baxmağıyla Yasəmənin rənginin qaçması bir oldu. O, bu qadını tanıyırdı. Çox gözəl tanıyırdı. Şəkil onun bacısının öz qızı və əriylə çəkilən şəkil idi. Aygünün. Yasəmən bilmədi sevinsin ya yox. İlahi! Aygünün qızı var. Ailəsi var. Həyat yoldaşı var. Bu sözləri o, ürəyində dedi. Sonra bu şəkilin ona Fərəcovun verdiyini xatırlayanda onun canını yenidən "itirmək qorxusu" bürüdü.

- Bu şəkil sizdə haradandır? - Yasəmən dilləndi.

- İndi onların həyatı sənin əlindədir - Fərəcov Yasəmənin sualına cavab vermədən dedi.

- Mənim?

- Hə sənin. Əgər onların ailəsinin faciəsini istəmirsənsə susmalısan. Daha doğrusu ağıllı olmalısan.

- Sən necə də şərəfsizsənmiş Fərəcov. Gör bir nələrə əl atmısan.

- Əgər mən deyənləri etməsən onları elə bu gün öldürtdürəcəm.

- Yox. Bircə ölüm yox. Mən razıyam. İndi nə etməliyəm mən.

- Ay sağol. Əvvəldən belə ağıllı olsaydın hər şey yaxşı olardı. Qulaq as gör nə deyirəm. İzahat verərsənki əlini ehtiyatsızlıqla kəsmisən.

- Sonra?

- Sonrası odur ki, mən səni rayona yolluyacam, burada sənin qalmağına imkan verə bilmərəm. Rayon mərkəzində "Simurq" kafesi var. Mənim dostumundur. Orada işləyəcəksən. Qalmaq yerini də həll etmişəm. Buralarda qalsan çox ağılsızlıq edərsən. Qıraq yerdə qalmağın yaxşıdır. Burada qalsan onsuzda yaşaya bilməyəcəksən. Burda sənin kimilər üçün yalnız bir iş var. O da "klassik" kafelərdə kişiləri razı salmaqdır. Narahat olma mənim səni yolladığım kafe heləsindən deyil. Get və ağıllı ol.

“Polkovnik özündən narazıdı.”

Neçə gün idi ki, Polkovnik Rəsul Cəbiyev özünü yaxşı hiss etmirdi. Araşdırdığı bu müəmmalı işdə hələ ki, bir qənaətə gələ bilmirdi. Usta Səfərin evində olduğu müddətdə bir - birinə uyğun gəlməyən məsələləri aşkar etsə də hələ ki, İlhamın ölüm səbəbini dəqiq deyə bilmirdi. İlhamın özünü Kanala tulladığı ehtimal edilən həmin körpüdə bir neçə detalı araşdırıb yadında saxlamışdı. Amma bu da kifayət deyildi. Polkovnikin növbəti fikri Allahyar və Şamxal idi. Ümid edirdi ki, bəlkə İlhama yaxın olan bu cavanlar nəsə bir şey bilirlər. Ona görə Polkovnik bu gün birinci olaraq Allahyarla söhbət etmək fikrində idi. və elə bu dəqiqə Qarayevlə birlikdə Allahyarla söhbət etmək üçün maşınla Usta Səfərgilə gedirdilər. Nəyə görə Usta Səfərin evinə? Çünki Qarayevə məlumat verilmişdi ki, Allahyar Usta Səfərin qapısında nəsə bir işə köməklik edir.

“Allahyar Fərəcov və Polkovnik Cəbiyev”

O qədər də sürətlə hərəkət etməyən qara rəngli mersedes Usta Səfərin qapısının ağzında dayandı.

- Siz Allahyarla tək söhbət etmək istəyirsiniz?

- Adını çək qulağını bur - Polkovnik bu sözləri deyib Səfərin darvazasına sarı baxdı. Darvazadan hündür boy, enli kürək, qara saçlı bir cavan oğlan çıxıb addımlamağa başladı.

- Bu Allahyardır. Siz onu necə tanıdınız? - Qarayev dilləndi.

- Sonra deyərəm.Onu maşına dəvət edin. Biraz söhbət edək onunla.

- Bu dəqiqə.

Qarayev maşından düşüb, yol ilə gedən Allahyarı səslədi. Allahyar çevrilib Qarayevə baxdı. Bunları Cəbiyev maşının şüşəsini endirmədən müşahidə edirdi. Allahyar yaxınlaşıb Qarayevə salam verdi. Qarayev ona nəsə dedi. Allahyar üzünü mersedesə sarı çevirdi. Lakin maşının şüşələrinə çöldən baxanda heçnə görsənmədiyindən Allahyar gözünü tez maşının şüşəsindən çəkdi. Birazdan Allahyar yaxınlaşıb mersedəsə mindi. Maşına minən kimi Cəbiyevin iti baxışlarının hədəfindən yayına bilmədi. Allahyar biraz həyəcanlı olsa da bunu bildirməməyə çalışırdı. Allahyar:

- Salam. Qarayev dedi mənlə nəsə işiniz var.

- Salam. Hə. Sizə bir - iki sualım olacaq.

- Buyurun!Eşidirəm sizi.

- İlhamı çoxdan tanıyırdız?

- Bəli. Lap çoxdan.

- Münasibətiniz necə olub? - Polkovnik soruşdu.

- Normal. Biz dost idik..

- Bəs Şamxalı necə? - Polkovnik sualına davam etdi.

- O, da İlhamla dostluq edirdi.

- Onların evini tanıyırsız? - Şamxalı deyirəm.

- Hə əlbətdə.

- Vaxtınız varsa bizimlə ora gedək. Həmdə yolda sizə bir - iki sualım olacaq.

- Gedəyin - Allahyar dilləndi.

Qarayev maşını işə saldı. Mersedes yavaş - yavaş irəliləməyə başladı.

- Fevralın 23 -də harada olmusuz? Saat 23 : 00 -da.

- Evdə.

- Buna şahidiniz varmı?

- Əlbətdə. Anam evdə idi. Şamxal da mənə şahidlik edə bilər.

- Şamxal? - Polkovnik yenidən sual intonasiyası ilə dilləndi.

- Hə. Şamxal da bizdə olub. Saat 12 -də getdi bizdən. Daha doğrusu 1 -ə işləmiş.

- Nəyə görə belə gec?

- Həmin günü anamın doğum günü idi. Sabahısı anamın işi olduğuna görə bir gün əvvəl yüngülvari qeyd edirdik. Şamxalı mən dəvət etmişdim. Oturub gözlədik ki, saat 12 -ni keçsin.

- Aydındır - Polkovnik dilləndi.

Maşın gəlib Şamxalgilin evinə çatmışdı.

- Şamxal valideyinləri ilə yaşayır? - Polkovnik dilləndi.

- Yox o, yetimdi - Allahyar dilləndi.

- Bəs kiminlə qalır?

- Bir nənəsidi, birdə özü –Allahyar cavab verdi. Qarayev darvazanı açıb içəri keçdi. 5 dəqiqədən sonra qayıtdı. Qarayev:

- Onlar evdədir.

- Lap yaxşı. Siz maşında gözləyin mən indi qayıdıram - Polkovnik bu sözləri deyib, maşından düşdü. Darvazanı açıb içəri keçdi.

- Atanız hələ burdadır? Qarayev fürsətdən istifadə edib soruşdu.

- Hə buradadır.

- Nə yaxşı?

- Necə yəni?

Deyirəm yəni Fərəcovu qışda buralarda görmək bizə çox az nəsib olurdu. İndi nə yaxşı bizi bu il həsrətdə saxlamır?. - Qarayevin danışığındakı acı istehzanı görməmək mümkün deyildi.

- Biraz nasazdı. Şəhərin havası bu il nəsə ona düşmür. Deyir biraz buralarda qalıb gedəcəm. Həm də axı bilirsən. O, Bələdiyyənin sədridir.

- Bilirəm - Qarayev ah çəkərək dilləndi. Ürəyində dedi "Mənim Bələdiyyəmə belələri sədrlik edirsə, onda görəcək günlərimiz hələ qabaqdaymış.

- Həm də Usta Səfərin ailəsinə kömək etmək üçün burada qalıb. O, da çox pis olub bu hadisəyə görə - Allahyar dilləndi.

- Sağ olsun. Məndən atana salam de - Qarayev kinayəylə dilləndi.

"Şamxalın gündəliyindən" (Mətn)

Bu gün mən yenə onları gördüm. Yamanca şən idilər. Xoşbəxt idilər.Gülürdülər. Sevgi dolu gözləri par-par parıldayırdı. Bəs mən? Mən isə əvvəlki vəziyyətimdə idim. Gizlin - gizlin onlara baxmaqdan savayı əlimdən heçnə gəlmirdi. Bəlkə də mən bunu da etməməliydim. Bəs nə edəydim? Yəqin ki,

bilmirəm. Bircə onlar evlənsəydi. Görəsən onlar evlənsə mən yenəmi onu sevəcəm? Yenəmi onun həsrətiylə gizlin - gizlin alışıb yanacam? Yenəmi bütün gecə onu xəyallarıma qonaq çağıracam? Bilmirəm. Artıq mən belə həyata tab gətirə bilmirəm. Nə vaxta kimi gizlənib, onların xoşbəxtliyini görüb əzab çəkəcəm? Yəqin ki, ömrümün sonuna kimi olmaz. Axı o, niyə bu qədər gözəldi? Bəlkə o, mənimçün bu qədər gözəldir? Bəlkə də.... Görəsən indi onun əlindən tutan oğlan öz xoşbəxtliyini görürmü? Bir saniyə belə oğlanın yerinə ola bilsəydim... Görəsən o, da onu mən sevən qədər sevir? Buna heç vaxt inanmaram. Kaş elə bir gücüm olaydı ki, dəfələrlə gizləndiyim yerdən çıxıb o qıza - mənim həyatımın mövzusuna yaxınlaşıb deyərdim:

"Bəsdir məni incitmə bu qədər. Mən artıq bunu sənə deyəcəm. Səni dünyalar qədər çox sevirəm. Hətta indi sənin əlindən tutub mənim həsrət qaldığım o qara gözlərinə baxan oğlandan da çox sevirəm. Gəl çıxaq gedək buralardan. Mənim ol. Ancaq mənim. Mənim ol ki, mən yaşıyım. Mənim ol ki, mən özümdə güc tapım ki, bədbəxtlik qapısın bağlıyım. Açarını isə dənizin düz ortasına atım ki, onu heç kəs tapmasın"....

"Tənhalıq mənim dostumdur"

Həyatda heç vaxt xəsis olmadım.Mən heç nəyi qarşımda mane kimi görməyərək səni sevdim. Çox sevdim səni. İş orasındadır ki, mən hələ də səni dəli kimi sevməyə davam edirəm. Mən sənə ürəyimi verəndə bütöv verdim. Mənə heç nə qalmadı. İndisəsən toya hazırlaşassan yaxınlarda. Bəlkə elə bu yay toyundu. Bəlkə də daha tez. Fərqi nədi?... Mənim üçün bir acı həqiqət var. O da sənin toyunda bəyin mən olmamasıdır.

Ən dəhşətlisi də odur ki, mən o toyda "sağdış" olacam. İlahi....

Bu gün yenə sizn arxanızca gizlin - gizlin gəlirdim. Əl - ələ tutmasanızda bir - birinizə çox yaxın idiniz. Çox xoşbəxt görsənirdiniz. İki xoşbəxt cütlük.... O xoşbəxt cütlük ki, onlar həmin an bilmirdilər ki, onların arxasınca gizlin - gizlin gələn oğlan çox bədbəxtdir. Çox tənhadır. Çox küskün, çox qəmgin, çox...çox...Nəysə....

Səni sevdiyim gündən tənhalıq həmişə mənim "çağrılmamış" qonağım olub. Mən həmişə tənhalıqdan qaçardım. Atam və anam bu həyatdan vaxtsız köçəndən sonra nənəmlə yaşadım. Mənim birinci dostum nənəmdir. İkinci dostum isə...Təəccüblü olsa da deyəcəm. Tənhalıqdır. Doğurdan da çox qəribə səslənir. "Mənim Dostum Tənhalıqdır". Axı biz öyrəşmişik ki, insan tənha qalmamaq üçün, özünü tənha hiss etməmək üçün özünə bir dost və ya həmdəm tapsın. Mən isə tənhalığı özümə dost hesab edirəm. Bəlkə mən tənhalığı sevirəm? Yox. Əminəm ki,bu belə deyil. "Həyatda həmişə tənhalıqdan qaçmışam". Vaxt keçdi səni itirdim. Hələ əvvəlcə mənim üçün ən əziz insanları itirdim. Atamı və anamı. Çoxları məni tərk etdi. İnandıqlarım. Ən əziz qohumlarım. Sən də artıq yoxsan ey mənim sevgilim. Sən indi onun yanındasan, mənsə bu tənha otaqda. Amma narahat olma məndən. Məndə tək deyiləm. O, mənim yanımdadır. Tənhalıq mənim yanımdadır. Ən qəribəsi bilirsən nədi? Qoy deyim bil. Bəlkə də heç vaxt bilməyəcəksən. Yazdığım bu gündəliyin varlığını ancaq özüm bilirəm. Heç bilmirəm bunları niyə yazıram?, onsuzda bunları heç kəs oxumayacaq. Amma deyəcəm. Mən sənin yanımda olmağın üçün hər şeyə hazıram. Hətta gözüyumulu ölümə belə

getməyə hazır idim. İndi də hazıram. Amma sən yanımda deyilsən...

Tənhalığı isə həmişə bu otaqdan qovardım. O isə getməzdi. Qapıdan qovsaydım mütləq pəncərədən girərdi evə. İndinin özündə belə məni tənha buraxmır. Artıq mən də ona öyrəşmişəm. Çünki o, mənim dostumdur. Bəli. Tənhalıq mənim dostumdur. Mən bir şeyə görə sevinirəm ki, mənim sənə qovuşmamağımın səbəbi sənin mənə xəyanətin deyil. Sən heç vaxt bilmədin ki, yaşadığın bu həyatda sənin yanında olduğun o oğlandan başqa dünyalarca sevən başqa bir oğlan var. Adı da sənin tanıdığın Şamxaldır. Sənin Şamxalın. Sənin Şamxalın? Yox. Qoy sadəcə "Şamxal" olsun. Şamxal Əsədov. Ya da bədbəxt Şamxal Əsədov. Həyatın acısını görmüş və duymuş Şamxal. Səni əbədi olaraq sevən Şamxal.

***

Sentyabrın 23. O gün evə çox əsəbi qayıtdım. Bunu heç özüm də anlamırdım. Axı mən dəfələrlə sizi bir yerdə görmüşəm. Amma heç vaxt bu qədər əsəbiləşməmişdim. Toy idi. Gecə toya baxmağa gəlmişdim. Çünki bilirdim səndə ordasan. Fürsət düşən kimi sənə baxırdım. Birdən içimdə böyük bir ağrının baş qaldırdığını hiss etdim. Gələcək qaynanan səni rəqs etmək üçün meydana dəvət etdi. Səndə durdun. Etiraz etmədin. O, da orada idi. Sənin yanında. Baldızın və qaynatan da orda idilər. Sənə yaxın idilər. Mən də orda idim. Amma səndən çox kənarda əyləşmişdim. Öz qəmgin baxışlarımla sənə baxırdım. Sən oynayırdın. Arabir gülümsəyirdin. Hələ də o an niyə o qədər əsəbiləşdiyimi bilmirəm. Qabaqda isə o, oturmuşdu. Mənim "Dostum". Son vaxtlar ondan heç xoşum gəlmir. Məni əzmək üçün iynəli

sözlər deyir. Hələ də bilmirəm ki, o, səni sevdiyimi haradan öyrənib?. O, bunu bilən gündən bezmişəm onun iyrənc sözlərindən. Həmin gün gecə toyda da o, məni əsəbiləşdirmək üçün çox şit zarafat etdi.

"Bir bax Şamxal "dostların" rəqs edirlər". Mənsə o an çox əsəbləşmişdim və ona dedim.

- "Kəs səsini yoxsa başını qopardaram".

"Polkovnik Şamxaldan şübhələnir".

Polkovnik darvazadan içəri keçəndən sonra həyətdə Şamxalın nənəsi ilə rastlaşdı.

- Bağışlayın ki, sizi narahat edirəm - Polkovnik qarşısında dayanmış yetmiş yaşlı qadına üzürxahlıq etdi.

- Narahat niyə edirsən oğlum, xoş gəlmisən! Yaxın gəl. Utanma bala. Şamxal da evdədi - Yetmiş yaşlı bu qadın dilləndi.

Polkovnik qarşısındakı bu qadını görəndə çox kövrəldi. Onun qırışmış, sümükləri görünən əllərinə baxdı. Əlindəki şaxtadan donmuş bir insanın əl izlərinə bənzəyən izləri görən Polkovnik anladı ki, qarşısındakı bu nənə illərin əzab - əziyyətini görmüş bir nənədir. Bu şaxta izləri, soyuqdan donmuş qadının əl izləri ona tanış gəldi. Polkovniki bir anlıq keçmişə apardı, bu izlər. Onun yadına fermada olarkən nənəsi ilə bağlı bir xatirə düşdü.

Həmin gün Rəsul yuxudan tez ayılmışdı. Hava təzəcə işıqlanmışdı. Şaxtanın qılınc kimi kəsən vaxtları idi. Rəsul

həyət düşdü. Səhər - səhər inəklərin nə etdiyini öyrənmək üçün fermanın içindəki böyük mal tövləsinə getdi. İçəri təzəcə girmişdi ki, nənəsini gördü. Nənəsi inək sağırdı. Gördüyü səhnə Rəsula çox maraqlı gəldi. Maraqlı gələn təbii ki, nənəsinin inəyi sağması deyildi. Maraqlı o idi ki, nənəsi inəyi bir əli ilə sağırdı. Digər əlini isə yanına qoyduğu südlə dolu vedrənin içinə salmışdı. Rəsul nənəsinin nəyə görə belə etdiyini anlamadı. İçəri keçdi:

- Sabahın xeyir nənə! - Rəsul dilləndi.

Nəvəsinin səsini eşidən arvad əlini tez vedrənin içindən çıxardıb:

- Niyə belə tez qalxmısan yerindən? Tez ol get gir yerinə. Şaxtanı görmürsən ay itin balası.?

- Yata bilmirəm axı.

- Tez ol dedim - arvad əsəbiləşdi.

- Bir şey soruşum sonra gedim? Olar?

Rəsulun cavabı nənəsinin ürəyini yumşaltdı.

- Yaxşı ver və tez ol get.

- Sən niyə inəyi bir əlinlə sağırsan? Digər əlini də südün içinə salırsan?.

Rəsulun bu sualına nənəsi düzgün cavab vermədi. Çünki o, qorxdu ki, verdiyi cavab balaca nəvəsinə heç də yaxşı təsir etməz. Ona görə də özündən bir şey uydurub dedi.

- Bunu bütün inək sağanlar edir. Çünki belə edəndə süd bərəkətli olur. İndi isə get gir yerinə yat.

- Yaxşı- Rəsul nənəsinin cavabına inanıb, tövlədən çıxdı. Lakin illər sonra o, anladı ki, nənəsi ona düzgün cavabı deməyib. Həmin vaxtlar şaxta çox güclü olurdu. Yazıq arvad əli donmasın deyin, əlini təzə sağılmış isti südə salırmış ki, qızışsın. Sonra isə sağ və sol əlin yerini dəyişirmiş.

- Nə fikrə getmisən bala?

- Heç ay nənə. Mənim Şamxalla bir işim var. Polkovnik xəyallarından ayrılan bir insan kimi danışırdı.

- Bilirəm oğlum. Bayaqkı "Milisoner" hər şeyi anlatdı.

- Milisoner sözünü eşidən Polkovnikin dodaqlarına təbəssüm qonmaq istəyirdi ki, Polkovnik buna imkan vermədi.

Polkovnik evə daxil oldu. Şamxal evdə idi. Polkovnikin qabağına yeriyib onunla əl görüşdü. Şamxal:

- Xoş gəlmisiz!

- Çox sağolun - Polkovnik dilləndi.

Şamxalın gözlərinin dərinliyindəki kədəri Polkovnik ilk baxışdan anlamışdı. Qarşısındakı adamın bu qədər qəmginliyi Polkovnikə çox maraqlı gəldi. Şamxalın gözləri yarımçıq qızarmışdı. Üzünü tük basmışdı. Saçları səliqəsiz şəkildə olan Şamxalın dodağı azacıq yaralanmışdı. Daha çox qorxan adamın qorxudan əmələ gələn dodaqdakı yaralara bənzəyirdi.

- Sizə bir neçə sualım var - Polkovnik dilləndi.

İti baxışlarını Şamxalın gözlərinə zilləmişdi.

- Verin!-Şamxalın səsindəki həyəcanı, qorxunu görməmək mümkün deyildi. O, çox həyəcanlı bir vəziyyət almışdı. İçindəki narahatlığı hər cür yolla bildirməməyə çalışsa da bu Polkovnik Cəbiyev kimi insanların gözündən heç vaxt yayınmazdı.

- Sənə nolub Şamxal? - Polkovnik sınayıcı baxışlarla Şamxalın sifətinə baxdı və öz beynində fikirləşdi. "Görəsən bu yaşda olan bu gəncin nəyə görə gözlərində bu qədər kədər, iztirab olsun?. Axı niyə o, elə hesab edir ki, artıq onunçün həyatın heç bir mənası yoxdur?. Bu axı hələ həyatın əsl üzünü görə biləcək qədər formalaşmayıb. Bu zaman Polkovnik fikrini dəyişdi. Bu onun özünə də qəribə gəldi. Çünki qırx illik həyatında fikirlərinin dəyişməsi nadir hallarda olardı. İndi o, fikirləşirdi: "Bəlkə də bu sınaq onun qabağına vaxtsız çıxıb"? Ona görə? Hələ formalaşmamış bu sınaq tezdirmi? Yəqin ki, tezdi...

- Mənə heçnə olmayıb! - Şamxalın sözü Polkovniki reallığa qaytardı.

- Sən niyə qorxursan Şamxal? - Polkovnik dilləndi. Artıq o, fikirləşirdi ki, qarşısındakını biraz da sıxışdırsa Şamxal hər şeyi danışacaq.

- Mən heçnədən qorxmuram - Şamxal təslim olmaq istəmirdi. Xahiş edirəm mətləbə keçin.

- Yaxşı. Fevralın 23 -də...

- Mən Allahyargildə olmuşam-Şamxal Polkovnikin sualını tamamlamasını gözləmədi.

- Şamxal, niyə bu qədər məyussan?

- Bu hardan çıxdı?

- Bəlkə dərdini mənimlə bölüşəsən?.

- Mənim dərdim yoxdur!.

- Yaxşı. İlhamla münasibətin necə olub?

- Normal.

- Səncə onu kimsə qəsdən suya itələyə bilərmi?-Polkovnikin bu sulaından sonra Şamxalın həyəcanı daha da artdı.

- Yox. O, intihar edib.

- Şamxal, sən və mən çox gözəl bilirik ki, İlham özünü öldürməyib.

Artıq Şamxal Polkovnikin qarşısında tab gətirə bilmirdi. Geri çevrilib pəncərəyə sarı getmək istəyirdi ki, stola dəydi və yerə onun çoxdan yazdığı gündəliyi düşdü. Gündəliyin arasından iki fotoşəkilin yerə düşməsini Şamxalla bərabər Polkovnik Rəsul Cəbiyev də gördü. Şəkilin biri arxası üstə düşdüyündən heçnə görünmürdü. Biri isə üzü üstə düşmüşdü. Şamxal cəld tərpənib şəkili götürsə də artıq gec idi. Çünki Polkovnik şəkildəki qızı görmüşdü. Şamxal cəld şəkili dəftərin arasına qoyub, sonra isə

onu şkafın siyirməsinə atdı. Polkovnik heçnə görməmiş kimi dedi:

- Dodağınıza nolub?

- Bərk qorxmuşam o gün, ona görə.

- O gün yəni, nə vaxt?

- Sırağa gün.

- Harada?

- Dəyirmandan çıxıb evə gəlirdim. Gecə idi. Qəfil böyrümdən it çıxıb qaçdı. Ona görə qorxdum.

- Dəyirmanda işləyirsən?

- Hə. O, mənə atamdan qalıb. Köhnə dəyirmandır, amma hamının işinə yarayır. Buralarda bir dəyirman varsa o, da mənimdir. Demək olar ki, elə bir ev tapılmaz ki, oranın buğdası bizim dəyirmanda üyüdülməsin.

- Bəs gecə orda nə iş görürdün? - Polkovnik dilləndi.

- Son vaxtlar işlərin çoxdu. Üyüdüləsi buğdalar yığılıb qalıb. Həm də gecələr işıq güclü olduğundan, dəyirman yaxşı işləyir.

- Aydındır. Qulaq as Şamxal. Danışığından yaxşı oğlana oxşayırsan. Amma onu bil ki, məni aldatmaq elə də asan deyil. - Polkovnik bu sözləri deyib evdən çıxdı. Darvazadan çıxıb maşına əyləşdi. Allahyarla Qarayev bayaqdan maşında əyləşib Cəbiyevi gözləyirdilər.

- Noldu Polkovnik bir şey hiss etdiniz söhbətdən?- Qarayev dilləndi .

- Danışıdğından hiss olunur ki, çox özünəqapanan insandır. Məni görəndə çox qorxdu nədənsə, həm də həyəcanı yerə - göyə sığmırdı.

- O, onsuzda həmişə belədir. Ona fikir verməyin Polkovnik. Polkovnikin yanında əyləşən Allahyar cəld dilləndi.

- Yox nədənsə mənə elə gəlir ki, o, nəyisə gizlədir.

- Yaxşırın cənab Polkovnik mən onu neçə illərdir ki, tanıyıram. Sizi əmin edirəm ki, Şamxalın heç nədən xəbəri yoxdur. Allahyar rahatlıqla dilləndi.

- Bu hələ məlum olacaq cənab Allahyar. Görəcəyik. - Polkovnik dilləndi.

***

"Eyvaz Dadaşov"

- Eyvaz Dadaşov məsələsini araşdırdın? - Polkovnik Qarayevdən soruşdu.

- Mən də elə o məsələ barəsində danışmaq istəyirdim. Bir - iki şübhəli məqam var.

- Necə yəni?

- Mən sizin dediyiniz kimi də elədim. Getdim Eyvazla söhbət etdim. Özünün dediyinə görə fevralın 23 -də 11 -ə işləmiş

evdən çıxıb. Siqaret almaq üçün yaxındakı mağazaya girib. Siqaret alandan sonra saat 12 -yə işləmiş gəlib evlərinə.

- 12 -ə işləmiş?

- Bəli.

- Çox maraqlıdı - Polkovnik dilləndi. Əslində Eyvaz Dadaşov məsələsində Polkovnikin fikri başqa idi. Bəs necə oldu ki, Polkovnik Dadaşovun fevralın 23 -də gecə saat 23 : 00 -da evdə olmadığını öyrəndi? Deməli, Polkovnik belə etmişdi. Araşdırıb gördü ki, kənddə ən gec bağlanan market hansıdır. Qış olduğundan bəzi marketlər çox tez saat 21 : 30 olmamış bağlanardı. Amma Dadaşovun evinə yaxın bir market var idi ki, bu market çox vaxt 23 : 00-a kimi açıq olurdu. Polkovnik həmin marketin sahibindən öyrəndi ki, Dadaşov fevralın 23 -də gecə saat 22 : 15 radələrində mağazadan siqaret alıb çıxıb. Amma evə lazım olduğundan daha gec, yəni saat 23 : 10 radələrində çatıb. Bunu sübut edəcək faktlar da Polkovnikdə vardı. Polkovnik bu araşdırma zamanı daha maraqlı bir faktla rastlaşmışdı.Fevral ayında elə həmin mağazanın qabağında İlhamla Eyvazın davası düşüb. Amma bir - birinə xətər yetirə bilmiyiblər. Camaat onları aralaşdıra bilib. Şahidlərin dediyinə görə dava zamanı, daha doğrusu aralaşandan sonra Eyvaz İlhama deyib ki, "Mən bu məsələni belə qoymayacam". Polkovnik bu işi araşdırmağı, daha doğrusu hansısa səbəbdən Qarayevə tapşırmışdı.

- Mən onu nə qədər sıxışdırdımsa həmin günü evə nə üçün gec qayıtdığının səbəbini demədi.

- Onu başa düşmək olar - Polkovnik sakit şəkildə dilləndi. Danışığından hiss olunurdu ki, artıq Cəbiyevə bəzi şeylər aydındır.

- Necə yəni? - Qarayev dilləndi. Qarayevi bir məsələ daha çox narahat edirdi. Bəzi faktlar göstərirdi ki, bu işdə Eyvazdan şübhələnməyə tam ixtiyarımız var. Belə olduğu halda Polkovnik Eyvaza dəymək istəmirdi.

"Polkovnik və Habil müəllim".

Polkovnik Rəsul Cəbiyev bu kəndə gələndən elə hey istəyirdi ki, kənddəki orta məktəbə gedib Habil müəllimlə söhbət etsin. O, Habil müəllimi uzun müddət tanımasa da, axırıncı dəfə bu kəndə gəldiyi zaman Habil müəllimlə çox maraqlı söhbət etmişdi. Polkovnik sonradan Bakıda olduğu müddətdə çox ağır bir xəbər eşitmişdi. Habil müəllimin yeganə oğlu Seyidəlinin xərçəng xəstəliyindən dünyasını dəyişdiyi xəbəri, Polkovnikə çox pis təsir etmişdi. Çox istəmişdi ki, gəlib yas mərasimində iştirak etsin. Amma həmin vaxt Polkovnik Bakıdakı "Naməlum" adıyla tanınan cinayətkar dəstəsinə qarşı mübarizə aparırdı. Zəng vurmuşdu o vaxt Habil müəllimə. Bu gün Polkovnik işini təxirə salıb, Habil müəllimlə görüşə gəlmişdi. Habil müəllim sinifdə tək oturmuşdu. Əyninə geyindiyi paltardan görsənirdi ki, pərakəndə həyat keçirir. "Habil" adını eşidəndə yadımıza "Habil və Qabil" qardaşlarının Qurandakı əhvalatı düşür. Nəyə görə bunu yazdım? İcazə verin izah edim. Məsələ ondadır ki, bizim təzə tanıdığımız Habil müəllimin də qardaşı var. Adı da elə Qabildir. Qabil deyən kimi yəqin ki, yadınıza Fərəcov düşdü. Bakıda gizli şirkətin "Məsul" işçisi və bu kəndin 8 illik bələdiyyə sədri. Əgər indi fikirləşirsiniz ki, Habil müəllimin qardaşı Qabil başqa Qabil

deyil, məhz elə Qabil Fərəcovun özüdü onda elə də fikirləşin. Çünki Qabil Fərəcov Habil müəllimin qardaşıdır. Habil Fərəcovun yox ha.... Habil müəllimin. Çünki heç kim Habili Habil Fərəcov və Qabil Fərəcovun qardaşı kimi tanımırdı. Bütün camaaat onu "Habil müəllim" kimi tanıyırdı. Habil müəllim oğlu Seyidəlinin nakam ölümündən sonra heç cür əvvəlki kimi ola bilməmişdi. Polkovnik sinifə daxil oldu. Habil müəllimlə bir yaxını kimi görüşdü.

- Elə neçə gündü sənin yolunu gözləyirdim Rəsul - Habil müəllim dilləndi. Bəlkə də o, Cəbiyevin tanıdığı yeganə insan idi ki, Polkovnikə sadəcə olaraq öz adıyla, yəni "Rəsul" deyərək müraciət edirdi.

- Mən də elə gələndən fürsət gəzirdim ki, gəlim sizinlə görüşüm - Polkovnik bu sözləri deyib Habil müəllimlə otaqda yanan köhnə peçin qırağındakı stolda əyləşdi.

-Eşitdim İlham Quliyevin işini araşdırmaq üçün gəlmisən.

- Hə. Onunçün gəlmişəm.

- Allah o, oğlana rəhmət eləsin. Adamın üstündə Allah var pis oğlan deyildi. Heç atası da pis adam deyil.

- Hamı elə deyir. Sən de görüm niyə özünə yaxşı baxmırsan?

- Neyniyim tək - tənha adamam.

- Bəs qardaşınız?. Qabil Fərəcovu deyirəm.

- O, mənim qardaşım deyil. Buna yüz faiz əminəm. Mənim qardaşım elə adam ola bilməz - Habil müəllim özündən asılı olmayaraq əsəbiləşdi.

- Eşidəndə çox pis olmuşdum. Allah ona rəhmət eləsin. Seyidəlini deyirəm...

Polkovnikin bu sözlərindən sonra Habil müəllimayağa qalxaraq pəncərəyə yaxınlaşdı. O, çox kövrəlmişdi. Amma Habil çox dözümlü birisi idi. Özünü saxlamağı bacarırdı. Habil:

- Ölüm hamı üçündür. O vaxtı M.V.Vidadinin oğlu da həyatdan nakam getdi. Onun sözləri hələ də mənim yadımdadır. Orta məktəbdə o cümləni oxuyanda çox təsirlənmişdim. "Ölüm həqdir, amma növcahan ölmək çox müşküldür". İndi düşünürəm ki, yazıq Vidadi o vaxtı bu sözləri deyəndə belə nələr çəkib. Məni ən çox yandıran bilirsən nədir Polkovnik? Habil müəllim Polkovnikin cavabını gözləmədən dedi. Ən çətin gələn mənə odur ki, oğlum rəhmətə getmişdi. Canı bir, qanı bir oğlum. Amma bir dəfə də olsun nə qardaşım, nə qardaşım arvadı, nə də qardaşım oğlu bir dəfə də olsun mənim qapımı açmadılar. Mən oğul itirmişdim, doğma "qardaşım" Qabil Fərəcov isə Bakıda öz kefində idi. Özü cəhənnəm heç olmasa oğlu gəlib Allahın bir baş sağlığını verərdi. Eləmədilər Rəsul, eləmədilər. Gör nə vaxtdır tək qalıram. Bir dəfə də olsun qapımı açıb demədi ki, ay Habil, ay bədbəxt insan necəsən? Ölmüsən, qalmısan?.... Axı məndən ona bir pislik keçməyib. Oğlum xəstə olanda nə olardı ki, kömək etsəydi. Bədbəxtlikdən oğlu da özü kimi çıxdı... Hələ bəlkə ondan da betər...

- Allahyar? - Habil müəllimin bütün danışıqlarına diqqətlə qulaq asan Polkovnik soruşdu.

- Hə. Onun onsuzda elə bir oğlu var.

- Allahyar Usta Səfərin qapısından çıxmır. Deyəsən rəhmətlik İlhamla bərk dost imişlər? - Polkovnikin sözlərndəki istehzanı görməmək mümkün deyidi.

- Başına dəysin onun dostluğu!. Mən bu kənddə saçımı ağartmışam. Amma bir dəfə də görmədim ki, nə Fərəcovun özü, nə də onun eqoist oğlu Usta Səfərin darvazasını açıb içəri keçsin. Arada eşidirdim hər şeyi. Guya Fərəcovlar bütün kəndə yardım edir. Nə var, nə var Fərəcov bir - iki yetim qalmış qızları Bakıda işlə təmin edib. Bir deyən yoxdu ki, ay qadan alım Fərəcovun yeganə qardaşı bir damın altında tək - tənha qalıb. Kasıbçılıqdan rəngi də qaçıb. Kömək edəndi qoy birinci ona kömək etsin.

- Fərəcov kimlərə kömək edib bu kənddə? - Polkovnik maraqla soruşdu.

- Biri rəhmətlik İsmətin arvadı Samirəyə. Samirəni atası vermirdi. O, da qoşulub İsmətə bu kəndə gəlin gəlmişdi. Ər - arvad tək yaşayırdılar. Təbii ki, əgər ona yaşamaq demək olardısa. Çox pis yaşayışları vardı. İsmət yol qəzasında öləndən sonra Fərəcov ona kömək etdi. Bilmirəm deyirlər, Fərəcovun Bakıda şirkəti var, nəyi var. Samirə deyilənə görə həmin şirkətdə katibədir. Sonra rəhmətlik Suğranın nəvəsi. Minəxanıma. Nənəsi öləndən sonra o, da ortalıqda qalmışdı. Nəbilim deyilənə görə rayonun mərkəzində də bir neçə ailəyə beləncik kömək edib.

- Bəs Allahyar necə? - Polkovnik dilləndi.

- Allahyar da guya çətin dolanışığı olanlara kömək edir. Bir aralar xeyli müddət Usta Səfərin qonşuluğundakı Səyyadın qızı ilə gəzirdi. Eşitdiyimə görə bir - birlərini sevirmişlər. Sonra bilmədim noldu o işin axırı. Səyyadgilin dolanışığı da həddən artıq kasıb idi. Bir müddətdən sonra qəfldən Səyyadgil bu kənddən köçüb getdilər. O vaxtdan onlardan heç bir xəbər çıxmadı. Nəbilim yoldaş Polkovnik o qədər şeylər olur ki, heç baş açmaq olur ki?.

- Çox sağol Habil müəllim - Polkovnik Habilə yaxınlaşaraq dedi.

- Nəyə görə? - Habil təəccüblə dilləndi.

- Elə hər şeyə görə - Polkovnik bu sözləri deyib, Habil müəllimin əlini sıxdı.

## "O ölməli deyildi"

Günorta saat 13:45 olardı ki,Qarabağ kanalının qırağında iki nəfər ayaqüstə durub söhbət edirdi.Cavanlardan biri əlindəki siqaretin kötüyünü kanala tullayıb dedi:

-Qulaq as.Bu iş sənə zarafat gəlməsin!.

-Bilirəm.

-Olan olub artıq.

-Amma olmamalıydı.O ölməli deyildi.

-Özünü artistliyə qoyma sənki həmişə bunu etmək arzusunda olmusan.

-Yox.Mən heçvaxt onu öldürmək istəməmişəm.

-Amma bunu elədin.

-Mən heçnə etməmişəm.Ona toxunmamışam.Onu vurmamışam.

Qarşısındakının bu sözündən hiddətlənən gənc onun yaxasından tutaraq: -Nə demək istəyirsən hə?Əclafın biri Əclaf!.Məni öz çirkin əməllərinə qatmağın azmış kimi,hələ bir məni günahkar bilirsən? --Mən peşmanam.Günahın hamısını öz üzərimə götürərəm.Deyərəm ki,hər şey mənim ucbatımdan olub.Bir də ki,hər şey təsadüfən olub.Bunu polisə desək bizə kömək edərlər.

-Sən deyəsən məni ələ salırsan?-oğlan daha da əsəbləşdi.

-Mən gedib təslim olacam.Daha buna dözə bilmirəm.Hər gecə İlhamı yuxuda görürəm.

-Sən bunu etməyəcəksən!

-Mən artıq hər şeyi məktubda yazmışam.Onu polkovnikə verəcəm.O,məncə bizə kömək edər.

-Nə məktub?Sən hansı hər şeyi yazmısan ora?

-Fevralın 23-də olan hər şeyi.O gecənin sirrini yazmışam orda.Bütün olanları.Bizim dava etməyimizi,İlhamın kanala yıxılmağını.Hər şeyi.Mən artıq edə biləcəyimi etmişəm.Təslim olacam.Vəssalam.

-Onda növbə mənimdi.

## "Polkovnik Bakıya zəng vurur"

Polkovnik Rəsul Cəbiyev Habil müəllimlə etdiyi söhbətdən sonra Fərəcovun kömək etdiyi İsmətin arvadı Samirə və Suğra arvadın nəvəsi Minəxanım haqqında bəzi araşdırmalar apardı.Onların soyadlarını öyrəndi.Leytenant Qarayevin köməyi ilə onların şəkillərini də əldə etdi. Sonra əldə olan məlumatları və şəkilləri Bakıya göndərib onlardan cavab gözlədi.Polkovnik eyni zamanda polis komissarı,yaxın dostu Kazım Qafarlıya da iş tapşırdı.Tapşırıq ondan ibarət idi ki,Qafarlı bir-iki günün ərzində Qabil Fərəcov adlı birisinin nə işlə məşğul olduğunu araşdırmalıydı.Cəbiyev fürsətdən istifadə edib Fərəcovun da şəklini Bakıya göndərdi.Hər ehtimala görə.Polkovnik isə Səyyadın ailəsinin nəyə görə birdən-birə kənddən köçməsi ilə maraqlanırdı.Ona görə bu məsələni də dəqiqləşdirməyi də qarşısına məqsəd qoymuşdu.

## "PİS XƏBƏR"

Rayon polis şöbəsində sakitlik idi.Səhər saat 8:30 olardı.Baş müstəntiq Əlizadə qapını açıb öz kabinetinə keçdi.Qapını bağlayıb kreslosunda əyləşmək istəyirdi ki,cib telefonu zəng çaldı.Vaxtsız zəngləri onsuzda sevməyən Əlizadə telefonunun zəngini eşidəndə çox əsəbləşdi.Son vaxtlar bəzi problemlərə görə şikayətçilər onu bezdirmişdi.Ardıcıl müxtəlif tipli adamlar zəng vurub eyni məsələnin açotunu Əlizadədən tələb edirdilər.Əlizadə bütün bunların əlindən bezmişdi.Ona görə indi gələn zəngin də elə səbəblərə görə gəldiyini zənn edib heç əlini cibinə salıb telefonu çıxarmadıda.Telefonun zəngi isə dayanmaq bilmirdi.Axırda Müstəntiq Əlizadə zəngin səsindən bezib telefonu çıxardıb söndürmək istəyirdi ki,ekrana yazılmış adı görüb fikrini

dəyişdi.Zəng eliyən Qarayev idi.Müstəntiq Əlizadə telefonu açıb qulağına tutdu.

-Eşidirəm Qarayev.

-Hardasınız Yoldaş Əlizadə?-Qarayevin səsindən hiss olunurdu ki,nəsə vacib xəbəri vermək üçün zəng edib.

-Bölmədə.

-Kənddə yenə ölüm hadisəsi olub.-Qarayev cəld dilləndi.

-Sən indi hardasan?

-Polkovniklə hadisə yerinə gedirik.Dəyirmana.

-Ölənin şəxsiyyəti məlumdur?-Müstəntiq soruşdu.

Bəli.

-Kim?

-Şamxal Əsədov.

-Siz gedin biz də birazdan orada olacayıq.

Qarayev telefonu qapadı.O,indi maşınla hadisə yerinə tələsirdi.Arxada Polkovnik Cəbiyev əyləşmişdi.Polkovnik çox qəribə görkəm almışdı.Artıq görünürdü ki,hər şey onu fikirləşdiyi kimidir.Polkovnik Şamxalın evində olandan sonra qəti qərara gəlmişdi ki,İlhamın ölümü intihar deyil.Ona o da aydın olmuşdu ki,nə olursa olsun Şamxal nəsə bilir.Yoxsa,o, niyə bu qədər həyəcanlanıb qorxsun ki?.Bəs polkovnikin Şamxalgildə gördüyü

şəkil və yerə düşmüş dəftər? Rəsul Cəbiyev öz beynində bütün olanları analiz etmişdir.İndi,o, Şamxalın ölümünün səbəbini də hardasa təxmin etmişdi.Polkovnikin içində bu dəqiqə qəribə bir tələskənlik hissi vardı.Maşını idarə edən Qarayev də çox həyəcanlı görsənirdi.Onu ardıcıl ölən bu iki gəncin nəyə görə ölməsi çox narahat edirdi.Axı bu kənddə nə baş verirdi? Maşın gəlib köhnə dəyirmanın qarşısında dayandı.Qarayev və Cəbiyev maşından düşüb dəyirmana yaxınlaşdılar.Qapının ağzında adamlar vardı.Onlar adamları yarıb içəriyə daxil oldular.Şamxalın cəsədi yerə uzadılmışdı.Üstünə köhnə parça atılmışdı.Cəsədin yuxarısındakı kəsilmiş ipdən aydın olurdu ki,cəsəd göydən asılmış şəkildə tapılıb.Bunu ilk dəfə Teymur adlı bir oğlan görüb.Səhər-səhər dəyirmanın yanından keçən Teymur dəyirmanın işığının yandığını taxta qapının arasından görüb.Həmişə burdan keçəndə Şamxalla görüşüb keçən Teymur elə zənn edib ki,dəyirman açıqdır.Çünki son vaxtlar Şamxalın bütün gecəni dəyirmanda keçirdiyi günlər çox olmuşdu.Şamxalla salamlaşmaq məqsədi ilə dəyirmana girmək istəyən Teymur qapını açmaq istəyəndə görür ki,qapı içəridən bağlıdır.Taxta qapının arasından içəri baxan Teymur orada Şamxalın cansız bədəninin havadan sallandığını görür və xəbəri kəndə çatdırır.Polkovnik cəsədin üstündən örtüyü götürür.Bir həftə əvvəl Polkovniklə söhbət edən Şamxal Əsədov indi buz kimi cansız bədənə çevrilmişdi.Cəbiyev polislərin gəlməyini gözləmədən ilkin araşdırmaya başladı. Paltosunun cibindən həmişə istifadə etdiyi kiçik köməkçisi zərrəbini çıxardır.Onu Şamxalın boğazına yaxınlaşdırdı.Şamxalın boğulma yeri,yəni kəndirin sıxıb onu boğduğu yerin qızartısı kənardan bilinirdi.Polkovnik zərrəbini birazda yaxınlaşdırıb həmin qızartı olan hissəyə yaxından göz gəzdirdi.Sonra başını qaldırıb dəyirmanın tavanından sallanmış kəsik kəndirə baxdı.Sonra isə,zərrəbini qızartı olan hissədən yuxarıya yaxınlaşdırdı.Qəfildən

Polkovnikin gözünə nəsə sataşdı.O,həmin hissəni daha diqqətlə gözdən keçirməyə başladı.Cəbiyevin ani olaraq çevik hərəkətini görən Qarayev Polkovnikə sarı addımladı:

-Nəsə tapdınız Polkovnik?

-Hər şey elə mən fikirləşdiyim kimidir-Polkovnik sakit şəkildə dilləndi.

-Nə?-Qarayev cəld dilləndi.

-Tələsməyin leytenant.

Bu sözləri deyəndən sonra Polkovnik ayağa qalxıb şalvarının dizlərinə yapışan buğda dənələrini təmizlədi.Ətraf demək olar ki,buğda dənələri idi.Bu dənələr sonradan Polkovnikə çox kömək etdi.Şamxalın özünü asmaq istəyərkən ayağının altına qoyduğu balaca tabletka stol aşmış şəkildə kənarda qalmışdı.Polkovnik stola yaxınlaşdı Onun düşdüyü yeri diqqətlə gözdən keçirtdi və ürəyində dedi:"Demək bizim qatilimiz o qədər də peşəkar deyilmiş".Sonra üzünü Qarayevə tutdu:

-Cəsədi birinci olaraq kim görüb?

-Teymur.Qapının ağzındadır.

-Çağır gəlsin bura.

-Yaxşı-Qarayev dəyirmandan çıxdı.

Cəbiyev ətrafına göz gəzdirdi.Dəyirmanın içində çox şey səliqəsiz şəkildə düzülmüşdü.Polkovnikin gözü kənarda kitab şkafına bənzər düzülmüş rəf kimi bir yerə sataşdı.Şfonerə bənzər bu yer buğdanın

üyüdüldüyü yerə yaxın olduğundan üstündəki buğda tozları daha aydın nəzərə çarpırdı.Polkovnik elə bil həmin tozun içində nəsə gəzirdi.Yenə zərrəbini çıxardıb biraz ora göz gəzdirmək istədi.Biraz diqqətlə göz gəzdirəndən sonra polkovnik axtardığı izə rast gəldi.Bu normal telefonun ölçüsündən biraz böyük düzbucaqlı şəkildə düşmüş izi idi.Polkovnik anladı ki,bura nəsə qoyulubmuş.Özü də ən azı həmin əşya altı saat burada qalıb.Yoxsa onun izi burada bu şəkildə qala bilməzdi.Polkovnik çönüb arxasına baxanda gördü ki, Qarayev və Teymur bayaqdan onu gözləyirmişlər.

-Demək cəsədi birinci sən görmüsən?-Polkovnik soruşdu.

-Bəli.

-Nə vaxt?

-Tezdən.

-Dəyirmana niyə girmək istəyirdin?

-Şamxalla salamlaşacaqdım.

-Hardan bildinki dəyirmandadır?

-İşıq yanırdı içəridə.

-Sən işığı necə gördün?

-Yolu keçəndə işıq görsənir də.

-Dəqiq?

-Allah haqqı görsənirdi-Teyrmurun danışığından onun saflığı açıq aydın görsənirdi.Bəlkə də bu belə deyil.Sadəcə Polkovnikə özünü göstərmək üçün belə edir.Kim bilir? İnsanları tanımaq olur ki.

-Qapını açanda gördün ki,qapı bağlıdır?

-Bəli.

-Qapını sındırıb eləməyə cəhd eləmədin?

-Yox mən qorxmuşdum.

-Yaxşı,gedə bilərsən.

Teymur dəyirmandan çıxdı.Qarayev üzünü polkovnikə tutdu:

-Yoxsa bu da intihardır?

-Sən belə fikirləşirsən?-Polkovnik soruşdu.

-Teymurun ifadəsindən görünür ki,qapı içəridən bağlı imiş.Yəni içəridə Şamxalın özündən başqa keçkim olmayıb.

Polkovnik Cəbiyəv Qarayeva cavab vermədən dəyirmanın qapısına sarı getdi.Çölə çıxmaq istəyəndə gözünə qapıdan asılan qıfıl dəydi.Qıfıl açıq idi.Açarları da qıfılın üstündə qalmışdı.Polkovnik bir müddət qıfılı nəzərdən keçirdikdən sonra üzünü çöldə dayanmış Teymura tutdu:

-Zəhmət olmasa yaxına gəlin!-Polkovnik təmkinlə dilləndi.Onu eşidən Teymur yaxına gəldi.

-Eşidirəm sizi!

-Tezdən bura gələndə bu qıfılı görmüşdün?-Polkovnik əliylə açıq qalmış qıfılı göstərdi.

-Bəli görmüşdüm.

-Açıq və açarlar da üstündə idi siz görəndə?

-Bəli.Siz indi onu necə görürsünüzsə mən də tezdən onu elə gördüm.

Polkovnik Teymurun sözünə qarşılıq kimi istədi desin ki,"Sən qıfılı mən gördüyüm kimi görə bilməzsən.Bu səninçün sadəcə köhnə dəyirmanın köhnə qapısından asılı vəziyyətdə qalmış adi açıq qıfıldı.Mənimçün isə bu gün baş vermiş cinayətin üstünü açmaq üçün əldə etdiyim sübutdur."-Polkovnik bu sözləri deməyi ürəyindən keçirsə də nədənsə bu sözləri demədi.

-Yaxşı çox sağol-Polkovnik bu sözləri deyib yenidən dəyirmana daxil oldu.O,indi fikirləşirdi ki,əgər qatil Şamxalı öldürübsə demək o,qapıdan çıxmayıb.Bunu qəsdən-izi itirmək üçün edib."Əgər qapı bağlıdırsa,demək içəridəki özünə intihar edib"Axı əgər Şamxal özünü öldürmək istiyirdisə qapının bağlı,ya da açıq olmasının nə əhəmiyyəti vardır?Axı bu qatil neynəmək istəyib?Polkovnik bütün bunları düşünə-düşünə dəyirmanın hər tərəfini gözdən keçirirdi.Onunçün maraqlı idi,əgər qatil Şamxalı öldürübsə onda ortaya yeni sual çıxır."Qatil bəs özü bu dəyirmanda necə çıxıb?"Axı qapı içəridən bağlı olub.

-Onda demək qapını Şamxal özü bağlayıb?-Qarayev soruşdu.

-Niyə?Ona görə ki,özünü rahat asıb öldürsin.Yox leytenant bu heçbir məntiqə sığmır.Mən səni əmin edirəm ki,Şamxal intihar etməyib.Elə sizin bacınız oğlu İlham kimi.

-Necə?-Qarayev biraz da polkovnikə yaxınlaşdı.

-Xahiş edirəm mənə biraz vaxt verin-Polkovnik səbirsizcəsinə cavab verdi.

-Hə əlbəttə.

Polkovnik artıq 10 dəqiqə olardı ki,qatilin çıxa biləcəyi bütün yerləri nəzərdən keçirdi.Amma heçnə tapa bilmirdi.Birdən polkovnikin divardan 2 metr hündürlükdə olan pəncərəyə bənzər bir çıxışa gözü sataşdı.Açıq-aydın görünürdü ki,bura əvvəllər pəncərə kimi açıq olub.Amma indi oranı eni 1metr olan taxta örtüklə bağlamışdılar.Örtüyün həm sağ,həm də sol yanları taxta reykayla bərkidilmişdi.Ortası isə nazik fanerkadan ibarət idi.Polkovnik bu keçiddən şübhələnmək istəyirdi ki,gözünə örtüyü divara bərkidən mismarlar sataşdı.Örtük azı 10 mismarla pəncərəyə bərkidilmişdi.Polkovnik gözünü pəncərədən çəkmək istəmirdi.Çünki bu pəncərədən başqa heç yerdən qatil çıxa bilməzdi.Yaxşı əgər qatil buradan çıxmışdısa bəs bu mismarları ora kim vurmuşdu?Onda belə çıxır ki,burada iki nəfər olub?Yəni,qatil öz dostunu həmin keçiddən çıxardıb sonra isə fanerkanı mismarla ora bərkidib.Onda ortaya yenə sual çıxır.”Bəs içəridə qalan qatil necə çıxıb çölə?”Polkovnikin artıq səbri daralırdı.Çıxıb getmək istəyirdi ki,divarın dibində aşmış dəmir çəlləyi gördü.Belə çəlləklərədəyirmanda tez-tez rast gəlmək olardı.Polkovnik çəlləyi nəzərdən keçirdi.Çəllək yetərincə hündür idi.Əgər qatil pəncərəyə çıxmaq üçün bu dəmir çəlləkdən istifadə etsəydi o,rahatlıqla bunu edə bilərdi.Çəlləyi nəzərdən keçirdikdən sonra polkovnik qəti əmin

oldu ki,qatil məhz bundan istifadə edərək pəncərəyə çıxıb.Polkovnik yenə fikirləşməyə davam etdi.Axı pəncərə mismarlarla bərk bağlı olub.Fanerkaya vurulan mismarlardan açıq-aydın görsənir ki,qatil oradan çıxmaq üçün mütləq həmin fanerkanı çıxarmalıydı.Amma fanerkaya əl belə vurulmamışdı.Polkovnik beynindəki suallara aydınlıq gətirmək üçün yenə də öz ürəyində hadisələri aydınlıqla təhlil etməyə başladı.”Deməli həmin naməlum qatilin məqsədi o olub ki,Şamxalı elə öldürsün ki,hamı bunun intihar olduğunu fikirləşsin.Qapını isə qəsdən içəridən bağlı saxlayıb.Əlbəttə,qatil məntiqlə fikirləşib.Hər tərəfi bağlı olan dəyirmandan cəsəd tapılıbsa,onda ilk ağıla gələn odur ki,içəridəki intihar etmək məqsədilə özünü asıb.Amma bu o qədər də inandırıcı deyil.Axı özünü öldürmək istəyən biri üçün qapının açıq və ya bağlı olması bu qədər niyə vacib olsunki?”Polkovnik meyitin xarici görünüşünə fikir verdikdə gördü ki,bu ən azı 7-8 saat bundan əvvəl ölüb.Lap tutaq ki,gecə saat 1:00-da.Ya da 2:00-da.Əgər Şamxal bu vaxtı dəyirmana özünü öldürmək məqsədilə gəlmişdisə,onda qapını bağlayıb niyə özünü öldürsün?Gecə saat 1:00-da və ya 2:00-də dəyirmana kim gələ bilərdi.Gəlsə də şərt idimi elə Şamxal özünü öldürmək istəyəndə gəlsin.Bir də ki,Şamxalın özünü asıb öldürməyinə 15 dəqiqə də bəs edərdi.O,1 saat özünü öldürmək üçün əlləşmiyəcəydi ki.Yox.Demək qapı Şamxal öldükdən sonra içəridən bağlanıb.Yenə də hər şey göstərir ki,Şamxal Əsədovun ölümü intihar deyil.Polkovnik həmin dəmir çəlləyə yaxınlaşıb onun boş tərəfini yerəsöykəyib dikəltdi.Leytenant Qarayev polkovnikin bu hərəkətini görüb soruşdu:

-Siz nə etmək istəyirsiz polkovnik?

-Bu fanerkanı yoxlamaq istəyirəm-polkovnik bu sözləri deyib çəlləyin üstünə çıxdı.Fanerkanın bərk olub-olmadığını yoxlamaq üçün əliylə onu silkələdi.Fanerka asanlıqla onun əlində

laxladı.Bəli!Polkovnik istədiyini tapmışdı.Onun fikri düzgün çıxmışdı.Fanerkanın qırağını aralayıb baxandan sonra polkovnik gülümsündü:

-Demək bizim qatil buradan çıxıb .

-Necə?Bəs mismarlar?-Qarayev təəccüblə soruşdu.

-Havaya vurulmuş mismar heçnəyi saxlamır.

-Necə yəni?

-Bu mismarlar fanerkanı bərkitmək üçün vurulmuyub.Onların hamısı boşluğa vurulub.Yəni mismarlar fanerkanı deşəndən sonra boşluğa gedib.Mismarlar havada qalıb.Kənardan isə elə görsənir ki,guya bu mismarlar fanerkanı harasa bərkidib.

-Bəs fanerka orada necə dayanıb?

-O tərəfdən adi simlə bağlanıb.Onun burda dayanmasının səbəbi bu 3-4 simlər olub.Özü də simlərin bəzisi ucu əyilmiş mismarlara bağlanıb.Qatil bu simi mismarlara çox möhkəm bağlayıb.O biri ucunu isə yumru halqa edib,balaca armaturlara ilişdirib.Vəssalam.

-Axı ora elə də geniş deyil.O bu qədər işi orada necə edib?

-O bunun üçün elə də əziyyət çəkməyib-Polkovnik qətiyyətlə cavab verdi

-Necə ki?

-O bu fanerkanın mismarlarına simi yerdə rahat şəkildə bağlayıb.Hər şey hazır olandan sonra unu özüylə yuxarı qaldırıb və bağlayıb.Sonra isə özü oradan çölə tullanıb və çıxıb gedib.Gördüyün kimi qatil o qədər də ağılsız deyil.Getməmişdən

qabaq dəmir çəlləyi də ayağıyla möhkəm vuraraq aşırıb ki,şübhə yeri saxlamasın.-polkovnik bu sözləri deyib çəlləyin üstündən yerə düşdü.

-Siz buna əminsiniz?Yəni qatil buradan çıxıb qaçıb?

-Gəlin çölə çıxaq.Sizə bir şey göstərəcəm.-polkovnik bu sözləri deyib,dəyirmanın girişinə sarı addımladı.Bir az getmişdilər ki,dəyirmanın ağzında bir xarici maşın və bir polis maşını olmaqla iki maşının dayandığını gördülər.Gələnlər Baş müstəntiq Əlizadə və Məhkəmə tibb ekspertizasının əsas nümayəndəsi Səlim Cəfərzadə idi.Bunlardan başqa bir neçə polis də gəlmişdi.

-Siz çoxdan burdasınız?-Müstıntiq soruşdu.

-Bir az olar gəlmişik!-Qarayev cavab verdi.

-Nəsə bir şey öyrənə bimisiniz?-Cəfərzadə gözlərini polkovnikə zilliyərək soruşdu.

-Hələ ki,vacib bir şey yoxdu.-Qarayev cavab verdi.

-Cəsəd haradadı?-Müstəntiq soruşdu

-İçəridə-Qarayev cavab verdi.

-Onu kim tapıb?

-Teymur.

-Teymur kimdi?

-Buralıdı.Qoy çağırım gəlib sizə hər şeyi olduğu kimi danışsın.

-Hə çağır gəlsin.Onacan siz də gedin meyitə baxın.-Müstəntiq üzünü Cəfərzadəyə tutaraq dedi.Cəfərzadə və həkim geyimində olan bir neçə nəfər içəri keçdi.Polkovnik və Qarayev isə yavaş-yavaş addımlayaraq dəyirmandan tamam çölə çıxdılar.Qarayev Teymuru tapıb müstəntiqin yanına yolladı.Sonra yenidən Polkovnikə yaxınlaşdı.

-Mənə nə göstərəcəksiz?

-Mənimlə gəlin!-Cəbiyev bu sözləri deyib dəyirmanın sol tərəfinə doğru addımladı.Hava demək olar ki,tam işıqlaşmışdı.Hər tərəf düzənlik idi.Ancaq qış olduğundan bu yerlərin mənzərəsindən söz salmağa dəyməzdi.Polkovnik qabaqda gedirdi.Qarayev isə onu izləyirdi.Axırda Polkovnik ayaq saxladı.Gəldikləri yer içəridəki pəncərənin çöl hissəsi idi.Polkovnik fanerkanı götürdüyündən içəridən Cəfərzadənin və digərlərinin səsini eşitmək olurdu.Polkovnik ehmalca hərəkət edərək biraz pəncərəyə sarı getdi.O,elə hərəkət edirdi ki,sanki nəyinsə ayağının altında qalıb sınacağından qorxurdu.

-Yoxsa siz Cəfərzadənin danışığını dinləmək istəyirsiz?-Qarayev gülümsünərək soruşdu.Amma polkovnikin bu sözə heçbir reaksiya vermədiyini görüb,yersiz danışdığına görə özünü qınadı.Cəbiyevin fikri isə tamam başqa yerdə idi.Polkovnik ayaqlarını əyərək yerə diqqətlə göz gəzdirdi.Daha sonra əlini döş cibinə salaraq "kiçik köməkçisini"çıxarıb yerə daha diqqətlə göz gəzdirdi.Yaxına gəl Qarayev-polkovnikin səsi gəldi.Qarayev bunu eşidib cəld irəli yeridi və o da polkovnik kimi ayaqlarını qatlayıb aşağı əyildi.Polkovnik:

-Ayaq izlərini görürsənmi?

-Aha bəli görürəm-Qarayev yerdəki izlərə baxaraq cavab verdi.

-İndi arxada yerə düşən bizim ayaq izlərimizə bax.-polkovnik geri baxaraq dedi.Torpaq yaş olduğundan yeriyəndə ayaqqabının izi yerə düşürdü.

-Baxdım-Qarayev cavab verdi.

-Səncə bizim indi saldığımız ayaq izləri ilə bu naməlum adamın ayaq izləri arasında hansı fərq var?

-Yəqin ki,böyüklüyünə və kiçikliyinə görə fərqlənir-Qarayev cavab verdi.

-Başqa?-polkovnik yenə sual verdi.

-Onu siz daha yaxşı bilərsiz.Mən ki adicə polis leytenantıyam.Siz isə peşekar ekspertsiniz....Polkovnik Qarayeva cavab vermədən biraz ətrafına boylandı.Dəyirmana sarı gələnlərin sayı çoxalmışdı.

-Bu ayaq izinə diqqətlə bax.Görürsən?Buradakı çökəklik dərindir.Ayaq izləri torpağa daha dərindən hopub.Əgərə pəncərə olmasaydı yəqin ki,elə fikirləşmək olardı ki,qatil kimdirsə çox kök və dolubədənli birisidi. Amma kök və dolubədənli ehtimalı tamamilə yanlışdır.Bu ayaq izləri qatilin pəncərədən tullanarkən saldığı ayaq izləridir.Ona görə izlər bizim ayağımızın izindən daha dərindir çökəkliyi.Bir də fikir ver sağ ayaq izinin içində iki-üç dənə buğda dənəsi qalıb.Bu buğda dənələri qatil içəridə olarkən onun sağ ayağının altına yapışıb.Buğda dənələrini yapışmasına yerin nəm olması daha çox kömək edib.Mən neçə illik təcrübəmdə birinci haldır ki,bir işi araşdıranda zahiri oxşarlığına görə iki eyni tip izlərə rast gəlirəm.

-Siz bu izlərə daha harda rast gəldiniz?-Qarayev soruşdu.Polkovnikin izahatı Leytenanta ləzzət edirdi.Cəbiyev doğurdan da peşekar Xəfiyyə kimi danışırdı.

-Mən buna bənzər izlərə Usta Səfərin evində də rast gədim.

-Necə?Siz bununla nə demək istəyirsiz?Qatil Usta Səfərin evində olub?

-Narahat olmayın vaxtı çatanda hər şeyi biləcəksiniz.İndi isə gedəyin görək"dostunuz"Cəfərzadə nə deyir.-polkovnik bu sözləri deyib gəldikləri yolla geriyə doğru addımladı.

## "İÇİMİZDƏKİ ŞEYTANLAR"

Polkovnik Rəsul Cəbiyev artıq 30 il idi ki,öz peşəsini davam etdirirdi.Otuz illik bir həyatda onun demək olar ki,görmədiyi hadisələr,görmədiyi cinayətlər və qətllər qalmamışdı.Müxtəlif tipli insanlarla və zahirdə insan sifəti,daxilində isə şeytan xisləti gizlənmiş insanlarla rastlaşmışdı.Anasını öldürənini,Atasını öldürənini,bacısını,dostunu,tanımadığı adamı öldürəni və s.kimilərini də görmüşdü.Həmişə də fikirləşirdi"Bir insan axı niyə bu qədər vəhşiləşsin?Qan tökmək bu qədərmi vacibdir?Ananı və atanı öldürüb uşaqlarını yetim qoymaq,Atanı,ananı övladsız,Ananı balasız,qardaşı bacısız,bacını qardaşsız qoymaq axı hansı insaniyyətə sığır .Məgər indiyənə qədər azmı analar oğulsuz qaldı,azmı atalar oğulsuz qaldı.Məgər biz az itirmişik?Xocalıda azmı oldu qətllər?Azmı ananın gözlərinin yaşı hələ də qurumayıb.Azmı atanın oğul dərdi çəkməkdən beli bükülüb?Məgər bizim qisas almağa düşmənimiz yoxdumu ki,özümüz öz bıçağımızla

öz soydaşlarımızın boğazını kəsirik?Cavanlarımız cəbhə bölgəsində ölüm və həyat arasında mübarizə apararkən bəziləri pula,sərvətə,qızıla,vəzifəyə görə bir-birlərinin qanına susamaqdan belə çəkinmirlər.Məgər azğınlaşmış mənfur ermənilərin düşmənliyi bizə azlıq edirmi ki,biz hər həmlədə bir-birimizin ayağının altını qazırıq?Lənətə gəlsin içimizdəki və aramızdakı şeytanları!!!! Bəzən deyirlər ki,daha doğrusu sual verirlər ki,ermənilər peşman olub torpaqlarımızı qaytarsalar və bizə sülh təklif etsələr razı olarsan?Mən bu sualın cavabında qətiyyətlə "Yox"kəlməsini deyərdim.Axı biz onlarla necə sülh bağlaya bilərik?Hər 26 fevralda televizordakı Xocalı soyqırımı vaxtı törədilmiş vəhşiliyi görəndə günlərlə özümə gələ bimirəm.İnsan gör nə qədər vəhşiləşə bilərmiş?Hamilə qadının bətninə qızmış şişi soxmaq,qaynar qazanı qadının kürəyinə bağlayıb onu oynamağa məcbur etmək,uşaqları,körpələri dəmir çəlləklərə yığıb ağzını bağlayıb sonra isə benzin töküb yandırmaq,insanı diri-diri yandırmaq,gözlərini çıxarmaq,beyinlərini avtomatın arxasıyla vurub yerə dağıtmaq......Axı bütün bu vəhşilikləri ermənilər mənim millətimə edib.Mənim onlara nifrətdən başqa heçbir hissim yoxdur və ola da bilməz.Heç bir müharibədə ermənilərin bizlərə etdiyi amansız qətllər kimi qırğınlar olmamışdı.Onlar buna görə bütünlüklə Türk xalqına cavab verməlidirlər. Allah Mübariz İbrahimova rəhmət eləsin!Mən həmişə fəxr edəcəm ki,havasını udduğum,çörəyini yediyim Azərbaycanın Mübariz İbrahimov və Ramil Səfərov kimi oğulları var.Mübariz İbrahimov düşmən üzərinə gedəndə çox gözəl bilirdi ki,onun sağ qayıtmaq şansı çox azdır.O,bütün bunları nəzərə alıb təkbaşına düşmən üstünə getdi.Məktubunda da bunu yazmışdı."İnşallah şəhidlik zirvəsinə çatana qədər bu şərəfsizlərin üstünə gedəcəm"Mübariz İbrahimov dedi və elədi.O,düşmən üzərinə hücuma keçəndə heçbir qorxu hissi keçirmədi.Çünki onun qarşısındakı torpaq da öz torpağı idi,geridə

qoyduğu da öz torpağı idi.Azərbaycan torpağı idi,Türk torpağı idi.Fərid Əhmədov.Mübariz İbrahimov kimi igidimizin cəsədinin düşmən əlində olmasını öz şəninə sığışdıra bilməyən Milli Qəhramanımız Fərid Əhmədov.Sizin etdiyiniz fədakarlıqlar təkcə Biləsuvar və Cəlilabad üçün qürur yaratmır,bizim hamımız üçün,bütün Azərbaycan xalqı üçün qürur hissi yaradır.Təkcə Mübariz İbrahimovun qarşısını ala bilməyən ermənilər Mübariz kimi bir dəstənin qabağında neyləyəcək?Albert Aqarunoviç Aqarunov.Azərbaycanın milli qəhrəmanı. Tank kamandiri.25 aprel 1969-cu ildə Bakıda anadan olmuşdur.1987-ci hərbi xidmətə çağrılan Albert xidməti vəzifəsini Gürcüstanda yerinə yetirir və tank kamandiri olur.Daha sonra Bakıya dönərək Suraxanıda Maşınqayırma zavodunda işləyir.1992-ci ildə Qarabağ müharibəsi başlayarkən Albert könüllü olaraq cəbhəyə yollanır.Albert tank kmandiri təyin olunur və Şuşa cəbhəsinə yollanır.O,Xankəndi,daşaltı,cəmilli və b.yerlərdə gedən döyüşlərdə düşmən tərəfin bir neçə zirehli texnikasını məhv edir.1992-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə Albert snayper gülləsinə tuş gəlir və döyüş meydanında qəhrəmancasına həlak olur.O, Qarabağ müharibəsində əfsanəyə çevrilmişdi.Ermənilər onun başına pul mükafatı qoymuşdular.

*****

Polkovnik və Qarayev dəyirmanın qapısının ağzına çatanda içəridən çıxan Müstəntiq Əlizadə ilə qarşılaşdılar.Əynində polis forması,əlində telefon tutmuş Müstəntiq Qarayeva yaxınlaşdı:

-Siz Şamxalın ciblərini axtarmışdınız?-müstəntiq sualedici baxışlarını Qarayeva zillədi.

-Xeyr.Biz ancaq dəyirmanın içərisini gözdən keçirmişik.

-Onun cibindən mobil telefon tapılıb.Deyesen telefon mərhumun öz telefonudur.Telefon sönlüdü.Güman edilir ki,telefonun baterayası qurtardığına görə sönüb.Biz telefonu özümüzlə aparacıyıq. Gərək Şamxal sonuncu dəfə kiminlə əlaqə saxlayıb.Müstəntiq danışıb qurtarmamışdı ki,Cəfərzadənin səsini eşitdi.

-Biz işimizi qurtardıq.Meyiti ekspertizaya götürə bilərik.

-Bəs Teymuru neylədiniz?-Əlizadə soruşdu.

-Teymur?..hə o oğlanı deyirsən.O,içəridədi.

-Onu çölə çıxarın,onluq bir iş yoxdu orada-müstəntiq polis işçilərinə tapşırıq verdi.

-Yaxşı gedəyin-Cəfərzadə dilləndi. Polkovnik və Qarayev Şamxalın cəsədini müayinəyə yola saldıqdan sonra keçib öz maşınlarına əyləşdilər.Birazdan Polkovnik və Qarayev dəyirmandan uzaqlaşdılar. Polkovnik yenə fikirli görsənirdi.Maşının pəncərəsindən çölə baxırdı.Düşünürdü və öz ürəyində əsəbləşərək deyirdi"Şamxal da öldü.İndi onun nənəsinə kim baxacaq?Yazıq arvad axı indi necə yaşayacaq.Kimin yolunu gözləyəcəkindən belə?Bu yaşında bir damın altında səbr edib,nə vaxta qədər dözəcək.Onun göz yaşları quruyacaqmı son ümidini itirəndən sonra.Sənin kimilərinin kökünü kəsəsən gərək!!!!!! Əclaf!!Qatil!!Necə əlin gəldi 70 yaşlı qoca arvadı bir evin altında tək qoymağa?.Axı niyə bu insanlara zülm edirsiz?Şamxalı öldürdün.İlhamı öldürdün.Bəs indi kimi öldürəcəksən?Yoxsa elə bilirsən ki,sənin kimliyini heç kim bilmiyəcək?Xeyr!Mən 30 il Cinayət Axtarış Şöbəsində saçlarımı ona görə

ağartmamışamki,sənin kimi şərəfsizlər məni aldatsın.Sənin cinayətin göz qabağındadır.Sən əclafsan!Sən qatilsən.Sən....Sən istədiyinə çatdın.İıhamı öldürmək üçün Şamxaldan istifadə etdin.Bu səndə alındı.Onların hər ikisi öldülər.Onlar artıq bu həyatda yoxdular.Vicdanları təmiz idi onların.Həyata niyə gəlib,niyə getdiklərini az daolsa bildilər.Çünki onlar həyatın ən gözəl hissini-sevgi hissini yaşamışdılar.Onu duymuşdular.İnsan həyatının dəyərini bilirdilər.Amma sənin kimi insanlıq hissini itirənlər əsrlərlə yaşasalar da,heç vaxt həyata niyə gəlib,niyə getdiklərini bilmiyəcəklər.Sən bədbəxtsən!Bədbəxt.Cünki sənin xislətin pozğundu.Sənin şərəfin yoxdu.Olsaydı yeganə oğlu olan Ata və Ananın gözlərini yaşlı qoymazdın.Hər il 23 fevralda Usta səfərin kürəyinə sancılan xain bıçağı biraz da dərinə gedəcək.Sənin ləyaqətin yoxdu.Olsaydı nişanlanmağa hazırlaşan o qızın qəlbini parçalamazdın. Sən sadecə heçkimsən.Daha doğrusu heçnəsən.Sən etdiyin bütün cinayətlərə və həyatını korladığın insanlara görə cavab verəcəksən.

## “İsmət və Samirə”

Siz İsmət və Samirənin kimliyini bilirsiz.Amma onların həyatın hansı sınaqları ilə qarşılaşdıqlarını bilmirsiniz.Samirə ailənin böyük qızı idi.Özündən balaca cəmi bir bacısı vardı.Ailəsi Ata və anasından bir də balaca bacısından ibarət idi.Samirə kənddə qəssablıq edən Siyavuşun qızı idi.Siyəvuş çox zəhmətkeş bir kişi idi.Sözünün ağası idi.Birinə söz versəydi,mütləq onu yerinə yetirərdi. Siyavuş Rəhimli iki il müharibədə olmuşdu.Daha doğrusu iki ilə yaxın.Hərdən müharibədən söz düşəndə həmişə deyərdi ki,bir də müharibənin başlamasını istəmir.Bir dəfə kişilərlə oturub söhbət edəndə yenə belə dedi.Kişilərdən biri qayıdıb Siyavuşa dedi:

-Nədi Siyavuş yoxsa bir də müharibəyə getməkdən qorxursan.

-Qulaq as yaxşı olar ki,bildiyini danışasan.Ən azından buna görə başın salamat qalar.Mən müharibəyə o vaxtdı könüllü getmişdim.Bəziləri kimi ot tayasında gizlənməmişdim.Orada bizim hər saniyəmiz belə dəhşət içində keçirdi.Bilmirdik,sabaha çıxacayıq , ya yox.Amma heç vaxt düşmənin qabağından qaçmadıq.Onlara layiqli cavab verdik.İndi isə gəlib sənin kimilərinin içinə düşmüşəm.Ağzınıza nə gəldi danışırsız.Axı sən bədbəxt haradan biləsən ki,müharibə nədir,onun dəhşətləri nədir.Siz ancaq müharibə haqqında ya qəzetlərdən oxuya,ya da televizordan ona baxa bilərsiz.Mən isə hər şeyi öz gözümlə görmüşəm.Müharibəyə təzə gedəndə çox həyəcanlıydım.İlk günlərdə hətta avtomat əlimdə əsirdi.Amma mən ermənilərin 1918-ci ildə etdiklərini unutmamışdım.Məni onların üstünə aparan içimdəki alışıb yanan intiqam hissi idi.Bir dəfə gecə meşə ilə gedirdik.Qarşıda ermənilər vardı.Biraz yaxınlaşanda onların səsini eşitmək də olurdu.Döyüş yoldaşım bizə məsləhət gördü ki, topa şəkildə bunların üstünə getsək bizi qıracaqlar.Yaxşısı budur ki, səpələnək meşəyə.Hərə bir tərəfdən getsə,yaxşı olar.Biz onun tapşırığına əməl etdik.On bir nəfər idik.Səksən nəfərdən qalan on bir nəfər.Mən yavaş-yavaş təkbaşına irəliləyirdim.Çalışırdım bacardıqca səssiz olum.Ayağım altında nəyinsə qırılmasından da ehtiyat edirdim.Meşə sakitliyə qərq olmuşdu.Meşə demək olar ki, ermənilərlə dolu idi.Hər addımda bir erməni ilə rastlaşa bilərdim.Məni qış olmasına baxmayaraq soyuq tər basmışdı.Bədənimdən tər buz kimi olaraq axmağa başlayırdı.Avtomatı əlimdə bərk tutmuşdum. Belə yerdə bacardıqca cəld tərpənmək lazım idi ki,atəşi düşmənə birinci sən atasan.Biraz da getmişdim ki, qarşıda nəsə səs eşitdim.O, çox yaxın idi.Mən cəld yerə uzandım.Silahı səs gələn yerə tuşladım.Bütün diqqətim həmin yerdə idi.Avtomatın tətiyini əlimdə bərk saxlamışdım. Çünki mən

hər saniyə atəş açmağa hazır olmalıydım.Qorxunc saniyələr bir-birinin ardınca gedirdi.Üzümü tər basmışdı.Alnımdan sürüşüb gözümün üstünə axan tər damcıları gözümün içini yandırsa belə gözlərimi qırpırdım.Artıq hiss etdim ki,o nədirsə yaxınlaşır və qəfildən həmin yerdən bir boz dovşan çıxaraq qaçdı.Boz dovşanın ağaclıqdan çıxmağı ilə bədənindən qorxunc bir giziltinin keçməsi bir oldu.Yaxşı ki, özümü saxlaya bil ib atəş açmadım.Yoxsa adi bir dovşana görə döyüş yoldaşlarımın həyatını təhlükə altına atmış olardım.Qorxunc dəqiqələr artıq geridə qalmışdı.Mən özümə gəlmək üçün hələ bir neçə dəqiqə də yerdə uzanmış vəziyyətdə qaldım.Atəş səsi gəlmirdi.Mən dostlarıma görə narahat idim.Onları düşündüm.İndi onlar da mənim kimi həyatla ölüm arasında mübarizə aparırdılar.Öz canım yadımdan çıxırdı.Ürəyimdə onlara,onların vətən üçün vuruşmalarına sevinirdim.Gözümün qabağına kəndimiz gəldi.Anam həyətdə təndir qurub çörək bişirir,qonşular da,anama kömək etmək üçün bizə gəliblər.Bunları düşünəndə müharibəyə nifrətim daha da artırdı.Birazdan özümə gəlib ayağa qalxdım.Artıq içimdəki intiqam hissi daha da qızışmışdı.Mən bu əclafların ayağını bu torpaqdan kəsib evə qayıtmağım haqqında fikirləşərək irəli gedirdim.İçimdəki qəzəb mənim harada olduğumu mənə unutdurdu və mən az qala həyatım bahasına başa gələn bir səhv edəcəkdim.Lazım olduğundan daha çox sürətlə hərəkət etdiyimdən çox irəli getmişdim.Birdən məndən iki metr qabaqdakı ağacın arxasından çıxan erməninin avtomatının mənə tuşlandığını gördüm.O bağırdı.Bağıran zaman çox iyrənc bir sifət almışdı.Az qala üzünün tükü gözlərini bağlamışdı.Ağzını geniş açaraq qışqırdı və mənə atəş açdı.O, mənim sifətimi nişan almışdı.Mən avtomatı qaldırıb erməniyə atəş açmaq istəyirdim ki, erməninin avtomatından çıxan güllənin sol üzümü sürtüb keçdiyini hiss etdim.Sifətimi cızıb keçən güllənin istiliyini hiss etdim.Hər şey bir saniyənin içində baş vermişdi.Amma mən də özümü itirməyib

güllənin yanağımı cızması ilə eyni vaxtda erməniyə atəş açdım.Açdığım atəşdən çıxan güllə emənin açıq qalmış ağzından girərək,dişlərinin arasından keçib arxadan çıxdı.Ermənin gözləri bərəlmiş şəkildə ayaqları yerdən azacıq üzülərək yerə çırpıldı.Başının arxasından çıxan qan yerə axmağa başladı.Mənim atəşimdən sonra meşəni atışma bürüdü.Bizimkilər hücuma keçdi.Mən də dostlarımı tək qoymamaq üçün avtomatı əlimdə biraz da sıxaraq ermənilərin üstünə getdim.Ermənini açıq döyüşdə məğlub edəndən sonra mənim qətiyyətim birə on artmışdı.Biraz irəli qaçmışdım ki, döyüş yoldaşlarımın səsini eşitdim.Onlar artıq ermənilərlə vuruşurdular.Qaranlıqda atılan atəşlərdən çıxan işıqlardan mən döyüş yoldaşlarımın harada olduğunu bilirdim.Ermənilər bizdən çox olsalar da, zəif idilər.Biraz irəli gedib atəş açmağa başladım.Əgər biraz da gec tərpənib yerə uzanmasaydım,başımın üstündən uçan güllələr məni deşik-deşik edəcəkdi.Döyüş yoldaşlarımın arasından Azərin səsini eşidirdim.On bir nəfərin içində Azər bizdən yaşca böyük idi.Döyüş təcrübəsi də bizdən qat-qat çox olduğuna görə çox vaxtdı onun tapşırığına əməl edirdik.Biz müharibəyə gələndə o, artıq bir neçə döyüşdə iştirak etmişdi.Ona görə indiki döyüşdə Azərin öndə gedərək düşmənə hücum etməsində onun müharibə vaxtdı öyrəndiyi təcrübəsi heç də az deyildi.Mən indi də Azəri xatırlayıram.Müharibə qurtarandan sonra Türkiyəyə getdi.Ondan sonra əlaqəmiz kəsildi.Onun hər hərəkəti mənim yadımdadır.Həmin döyüşdə Azər əl qumbarasını düşmənin elə bir nöqtəsinə tullamışdı ki,partlayışın nəticəsində bir ermənin ayağının üzülüb özündən on metr kənara düşməsini digər ermənilər görüb geriyə qaçmağa başlamışdı.Biz az olsaq da qəhrəmancasına vuruşurduq.Artıq bizimkilərdən üç nəfər qəhrəmancasına həlak olmuşdu.Güllə səsləri səngimişdi.İrəlidə erməni gözə dəymirdi.Döyüş yoldaşlarımızdan

biri tələsərək gizləndiyi yerdən çıxaraq irəliyə doğru hərəkət etdi.Bunu görən Azər çox əsəbləşdi və qışqıraraq dedi:

-Cəhənnəm ol geriyə.Tez ol!-Azərin bağırtısı meşəyə yayıldı.

-Narahat olma onlar qorxaq dovşan kimi meşəyə qaçıblar-Bu sözü deyən gənc əsgər daha da irəli getdi.Biraz da gedib Azər gizlənən çönüb dedi:

-Bir bax hər şey mən deyən kimidir.Dovşanlar qaçıb buradan.

O,elə bu sözü deyib qurtarmışdı ki,qəfildən arxasında səs eşitdi.Çevrilmək istəyirdi ki, qaranlıqda ermənininin onun boğazına dirədiyi bıçaq parıldadı.Gənc əsgərimiz yerində donub qalmışdı.Erməni isə  öz dilində bağıraraq nəsə deyirdi.Biz onun nə dediyini bilməsək də situasiyadan məlum idi ki, erməni "yerinizdən çıxmasanız onu öldürəcəm" sözlərini deyir. Vəziyyəti belə görən Azər döyüş yoldaşımıza kömək etmək  üçün  meşəni fırlanıb ermənininin arxasına keçmək məqsədi ilə yavaş-yavaş hərəkət edərək meşənin içi ilə ermənininin arxasına keçməyə çalışdı.Biz hamımız Azərin hərəkətini izləyirdik.Emrəni isə quduz it kimi hürürdü.Qışqırdıca ağzının köpüyü dodaqlarından yerə süzülürdü.O,bizlərdən bir hərəkət olmayacağını görüb bıçağı biraz da döyüş yoldaşımızın boğazına sıxdı. Artıq onun boğazının dərsinin bıçağa dirənmiş hissəsindən qan axırdı.Erməni dostumuzun boğazını kəsmək istəyirdi ki, qəfil boğazının ulğumundan çıxan bıçağın təsirindən gözləri bərəldi.Azərin zərbəsi çox qüvvətli alındığından ermənininin boynundan vurulan bıçağın ucu qarşı tərəfdən bayıra çıxmışdı.Ermənininin əlindəki bıçaq yerə düşdü. Onun ulğumundan axan murdar erməni qanı bədəninə yayldı. Biz kənarda dursaq da, ermənininin xırıltısını eşidirdik.Xırıldadıqca ulğumundakı qan fışqıraraq yerə tökülürdü.Sonra Azərin qalın

səsini eşitdik.”Əclaf! Köpəkoğlu”.Azər bu sözləri deyib bıçağı dartıb erməninin boğazından çıxartdı.Sonra var qüvvəsiylə arxadan ona təpiklə vurub murdar leş kimi kənara tulladı.Sonra gənc əsgərin yaxasından tutub ağaca dirədi.”Bir də sənin boğazını bu əclafların bıçağına dirəndiyini görsəm sənin başını öz əllərimlə kəsəcəyəm.Bunu bilki bu bizlərə yaraşmaz”.O, bu sözləri deyəndən sonra digər dostlarımızdan birinin səsini eşitdik:

-Azər tez bura gəlin.O yaralanıb.

Biz hamımız yaralı yoldaşımızın başına toplaşdıq.Mən tez ona kömək etmək üçün yarasını sarıdım.Güllə qorxulu yerdən dəyməmişdi.Sağ tərəfdən çiynini yaralamışdı.Amma çoxlu qan itirdiyindən həyatı üçün təhlükə yarana bilərdi.Mənim sarıdığım sarğıya etibar etmək olmazdı.İndi neyləyək?-yoldaşlarımızdan biri soruşdu.

-Kəndə aparmaq lazımdır bunu.Biz bunu da çıxsaq yeddi nəfər qalırıq.Bizə kömək lazımdır-Azər qətiyyətlə cavab verdi.

-Yaxşı qalxın yavaş-yavaş gedəyin-Mən bunu deyib avtomatı əlimə aldım.Döyüş yoldaşlarımızdan ikisi yaralı əsgərimizin qoluna girərək ona getmək üçün kömək etdilər.Biz yavaş-yavaş irəliləyirdik.Bir saatdan sonra qabaqda gedən Azər çevrilərək dedi:

-Gəlin burda dincələk.Səhər davam edərik.

-Bəs bu?-Mən yaralı dostumuzu göstərərək soruşdum.

-Bir şey fikirləşərik.Mənə kömək edin ocaq qalayaq.Yoxsa soyuqdan donarıq.Biz Azərin dediklərinə əməl etdik.Bacardıqca çoxlu quru odun tapdıq.Amma heç ağlım kəsmirdi ki, bunlar

yana.Nəhayət, əlimizə keçəndən yığıb balaca odun qalağı düzəltdik.Yoldaşlarımızdan biri Azərdən soruşdu:

-Səncə bu yanar?

-Baxarıq –Azər bunu deyib çiynindəki avtomatı əlinə aldı.Darağı çıxarıb içindən beş-altı patron götürdü.Patronların ortasını bıçaqla yarıb içindəki barıtı odunların üstünə tökdü.Beş-altı patronun barıtını odunların üstünə tökəndən sonra cibindəki kibriti çıxartdı.Dənənin birini yandırıb odunların arasına atdı.Odunların aralarına tökülmüş barıtların alışması nəticəsində ocaq işimiz həll olundu.Azər çönüb gülümsünərək bizə dedi:

-Nə deyirdiniz bayaq?

Azərin bu sualından sonra biz gülüşməyə başladıq.Amma birdən nədənsə hamımızın yadına bir şey düşmüş kimi oldu.Kədər bizim üzümüzü bürüdü.Axı biz üç nəfər dostumuzu itirmişdik.Yaxşı ki,biz onların cəsədini gizlətmişdik.Yoxsa heyvanlar o yazıqları tanınmaz hala salardılar.Onları götürə bilməzdik.Çünki hara gedəcəyimizi bilmirdik.Amma kömək tapan kimi mütləq onların arxasınca gələcəkdik. Azər yaranmış sükutu pozaraq dedi:

-Allah onların qəbrini nurla doldursun.Onlar canlarını bu vətənə qurban verdilər.Vətəni qeyrətlə qoruyub canından keçənləri Allah sorğu-sualsız cənnətə qovuşdurur.Allah onlara rəhmət eləsin.

-Amin!-Hamımız bir ağızla dilləndik.Ocaq alov dilimlərini ətrafa səpələyərək gurhagurla yanırdı.Hamımız ocağa yaxın dayanmışdıq.Hər dəfə nəfəs aldıqda ağzımızdan buğ çıxırdı.Azər irəli yeriyib bizdən soruşdu:

-Hansınızda bıçaq var?-Onun sualı mənə qəribə gəldi.Çünki onun öz bıçağı vardı.Nəyə görə o, bizdən bıçaq istəsin.

-Məndə var-Aramızdakılardan bir nəfər cavab verdi.

-Mənə ver görüm-Azər bıçağı aldı.Ocağa yaxınlaşdı.Bıçağı közün içinə saldı və gözləməyə başladı.

-Sən neyləmək istəyirsən?-Mən soruşdum.

-Onun qızdırması çoxalıb.Təcili nəsə etməsək sabaha sağ çıxmaya bilər.

-Biz ona necə kömək edəcəyik?-Yenə sualı mən verdim.

-Güllə hələ də yaranın içindədir.Qızdırmanın əsas səbəbi də elə odur.Mən çalışacam onu çıxarım.Siz çalışın onu möhkəm tutun.Biz gülləni çıxarandan sonra o qan itirə bilər.Onsuz da o yetərincə qan itirib.Gülləni çıxarandan sonra qızmış bıçağı onun yarasına.Bu ona kömək edər-Azər bu sözləri deyib yanındakına bıçağı közdə saxlamağı tapşırdı.Digər yoldaşımızdan isə balaca nazik bıçaq aldı.Yaralı əsgəri ocağa yaxın gətirdik.Paltarını çıxartdıq.Yazığın halı özündə deyildi.Amma Azər nazik bıçağı onun yarasına toxunduranda o,elə qışqırdı ki, qulağımız bata.Azər əl saxladı:

-Qulaq as.Əgər biz onu çıxarmasaq sən ölə bilərsən.Al bunu dişlərinin arasında sıx.Mən buraların təhlükəsizliyinə əmin deyiləm.Azər yerdən balaca ağac parçasını götürüb yaralı dostumuzun dişlərinin arasına qoydu.Yazıq həmin ağac parçasını dişləri ilə sıxdı.Azər yenidən işinə davam etdi.O,yenə bağırırdı.Ağzındakı ağacı get-gedə bərk sıxırdı.Biz var gücümüzlə onun qollarını və ayaqlarını möhkəm tutmuşduq ki, o, Azərə mane

olmasın.Nəhayət, Azər gülləni çıxartdı.Onun əlləri qan idi.Tez çevrilib dedi:

-Tez ol bıçağı mənə ver.Közdə qızarmış bıçağı alıb yaralı əsgərin yarasına basdı.Bu səfər yazıq necə bağırdısa,həmin ağac parçasının onun ağzında qırılmasının səsini eşitdik.Birdən o özündən getdi.Azər onun yarasını sarıdı.Mən qorxmuşdum.O,özündən gedəndən sonra elə bildim ki, öldü. Amma Azərin hərəkətlərindəki rahatlığı görəndə biraz sakitləşdim.

-Qoy yatsın.Üstünü bərk basdırın ki, soyuq dəyməsin-Azər əlini əski ilə silə-silə bu sözləri bizə dedi.Artıq gecə saat 03:00 olardı.Hamı ocağın qırağında bürünüb yatmışdı.Amma mən oyaq idim .Nədənsə gözümə yuxu getmirdi.O da nədənsə yatmamışdı.Azər biraz kənardakı kötüyün üstündə oturmuşdu.Əlində ermənini öldürdüyü bıçağı fırladırdı.Mən yavaş-yavaş ona yaxınlaşdım.

-Niyə yatmamısan?

-Yuxum gəlmir Siyavuş-O sakitliklə cavab verdi.

-Elə mənim də. Sən olmasaydın biz çoxdan bu meşəlikdə qırılmışdıq.Bu gün iki yoldaşımızın həyatını real ölümdən qurtardın.Çox sağol.

-Mənə sağol demə,bu müharibədir.Sağ qalmaq üçün birgə hərəkət etmək lazımdır.

-Sən niyə bayaq yoldaşımızın yarasını sağaltmaq istəyəndə öz bıçağından istifadə etmədin?

-Mənim bıçağım bu gün erməni qanına bulaşdı.İsətmədim o murdar qan öz dostumun qanına toxunsun.Azərin bu cavabı indiyənədək mənim yadımdan çıxmayıb.Onun gözlərinə baxdım.Çox ciddi görkəmi vardı.Başını qaldırdı və mən onun ocağın işığında parıldayan gözlərini gördüm.Onda onun yaşı o qədər də çox deyildi.Birdən o,məndən soruşdu:

-Təhsilin var?

-Ali təhsilim yoxdu,ancaq texnikum təhsilim var.

-Nitşeni oxumusan?

Mən onun sualına bilmədim necə cavab verəm.Açığı oxuduğum illərdə Nitşenin adını eşitsəm də,ondan heç nə oxumamışdım.Onun belə sual verəcəyini gözləməzdim.

-Adını eşitmişəm.Ancaq təəssüf ki,əsərlərindən bixəbərəm.

-Bax həmin Nitşe deyib ki, “Mən öləcəm məni bu torpağa basdıracaqsınız,sonra isə mənə görə bu torpağı sevəcəksiniz”.İndi ay Siyavuş, biz nə qədər ölməliyik ki,bu millət bu torpağı sevsin?!

-Məgər başqa çarə var?

-Sənin atan kimdir?Peşəsi nədir?

-Kənddə traktor sürür.

-Bəs bugün ölən o üç nəfərin ataları nəçidir?Xəbərin var?

-Bir dənə Xəlilin atasını bilirəm.Səhv etmirəmsə onun onun atası kənddə xırda təsərrüfatçıdır.

-O iki nəfərin ataları da adi kənd adamlarıdır.Orda yaralı uzananın atası isə o,balaca olarkən ölüb.O ki,qaldı mənə.Mən heç bilmirəm atam haradadır və nəçidir.Müharibə başlayanda Dağıstanda işləyirdim.Sonra qayıtdım bura,könüllü olaraq müharibəyə gəldim.Gördüyün kimi,hələ də buradayam...Mən Azərin bu sözlərinə qarşılıq kimi bilmədim nə deyim.

-Yaxşı gəl yataq.Sabah işimiz çoxdu.Hələ bilmirik sabah bizi nə gözləyir.Bəlkə elə sabah bizim hamımız həlak olduq.

-Onda da deyəcəklər:"Müharibədə daha on bir nəfərimiz şəhid oldu.Vətən sağ olsun!-Mən cavab verdim.

-Baba Pünhan necə demişdi onu"Bir şəhid istəyirəm,Atası nazir,anası deputat olsun,bax onda deyərəm vətən başın sağ olsun"-Azər bunu deyib biraz gülümsündü.Sonra bizim hər ikimiz yatdıq.Səhər açılanda bütün bədənim keyimişdi.Yolumuza davam etdik.Yaralı yoldaşımızın halı biraz düzəlmişdı.Amma onun həkimə ehtiyacı olduğu göz qabağında idi. Bir saatdan sonra kəndin zastavasının qabağına çatdıq.Azər bizə yerimizdə dayanmağı tapşırıb,özü irəli getdi.Postda duran əsgər Azəri görən kimi,silahını ona tuşladı.Aydın idi ki,o,bizim azərbaycanlı olduğumuzu bilmirdi.O,Azərin üstünə qışqırdı

-Yerində qal.Yaxın gəlmə.Əllərini qaldır.

-Kamandirini çağır-Azər ona dedi.

-Dedim ki,əllərini qaldır.

-Biz düşmən deyilik.Azərbaycan döyüşçüləriyik.Komandirini çağır. Hərbi hissənin qapıları açıldı.İçəridən 20-yə yaxın əsgər çıxıb

avtomatlarını Azərə sarı tuşladılar.Qabaqda dayanan uca səslə dilləndi:

-Tez olun hamınız yerə yatın.

-Lənət şeytana deyəsən,mənimlə oyun oynayırsız.Tez olun komandirinizi çağırın!.-Azər səsini qaldıraraq yavaş-yavaş əsgərlərin üstünə yeridi.

-Yaxın gəlmə yoxsa atəş açacam.

Azər onun sözünə əhəmiyyət verməyərək.yavaş-yavaş onların üstünə yeriyirdi.Bunu görən əsgərlər Azərin ayağının qabağını güllə atəşinə tutdular.Azər heç gözünü də qırpmırdı.Qəfildən Azər öz avtomatını qaldırıb əsgərlərin başlarının üstünü güllə yağışına tutdu.Əsəbindən daraqdakı bütün güllələri havaya boşaltdı.Güllələrin səsindən və vıyıltısından əsgərlərin hamısı yerə uzanmışdılar.Güllə qurtarandan sonradedi:”gündə başımızın üstündən güllə yağış kimi yağır,siz də məni güllə ilə qorxutmaq istəyirsiz.-Azər bu sözləri deyib,əlini əl qumbarasına atdı. Qumbaranın ipini çəkib əlində hazır şəkildə əsgərlərin üstünə yeridi.

-Dedim ki.komandirinizi çağırın,yoxsa sizi də partladacam özümü də.Biz bütün olanları kənardan izləyirdik.Azər qumbara ilə əsgərləri qorxudub, hərbi hissədən içəri saldı.Nəhayət Azərin qabağına komandir çıxdı.Əlindəki qumbaranı var gücü ilə kənara tullayan Azər o partlayandan sonra üzünü komandirə tutub nəsə dedi.Komandir bizə sarı baxıb dedi:

-Tez içəri keçin.Bizdə Feldşer var.Yaralını müayinə edər.Həmin günü hərbi hissədə qaldıq.Hərbi hissənin Feldşeri Gizir Arazov

yaralı əsgərimizi müayinə etdi.Yarasına dərman qoydu.Gizir Alim Arazovun dediyinə görə əgər biz 30 dəqiqə də gec gəlsəydik onun yarası qanqrena verə bilərdi.Amma şükür ki,hər şey yaxşı oldu.

Qəssab Siyavuşun həyatına müharibə dövrü dərin iz buraxmışdır.Amma o həmişə təəssüfləndi ki,müharibə qurtarandan sonra Azəri bir daha görmədi.O,Türkiyəyə köçmüşdü.Müharibədən sonra öz evinə salamat qayıdan Siyavuş ilk vaxtlar həmin dəhşətləri tez-tez xatırlayıb yuxuda görsə də daha sonralar o,olub keçənləri qismən də olsa unutdu.Amma başına gələnləri kiməsə nəql etməyi çox sevirdi.Beləcə Siyavuş müharibə dövründən yavaş-yavaş uzaqlaşdı.Ailə qayğılarının çoxaldığı vaxtlar gələndə isə Siyavuş ümumiyyətlə o illər haqqında fikirləşmirdi.Onun iki qızı vardı.Onlar artıq böyümüşdülər.Böyük qızı Samirəyə bir neçə yerdən elçi gəlsə də,qız razı olmamışdı.Samirənin ərə getməsi məsələsi artıq ailənin probleminə çevrilmişdi.Problem Siyavuşla samirə arasında idi.Arada dedi-qodu yayılmışdı ki,Samirə qonşu kənddən olan bir nəfərlə sevişir. Adı da İsmətdir.Bu söz-söhbətlər Siyavuşu özündən çıxardırdı.Onun onsuzda son vaxtlar əsəbi yerində deyildi.Bir müddətdən sonra Samirəyə öz qohumlarından elçi gəlmişdi.Samirə isə”yox”deyib durmuşdu.Axırda da Siyavuş əsəbləşib onu vurdu:”Kəs səsini!Mən səni böyütməmişəm ki, mənim üzümə ağ olasan.Ağır otur batman gəl.Onu bil ki,sənin xoşbəxtliyini hamıdan çox mən istəyirəm”.Samirə o vaxtı atasına söz vermişdi ki,o kimi desə ona da gedecek.Amma hər şey başqa cür oldu. Elə”hə”verilən gecə Samirə İsmətə qoşulub qaçdı.Həmin hadisədən sonra Siyavuş ancaq bir söz dedi:”Kim nə edir özünə edir,mən onun arxasınca getmiyəcəm.Bacarırsa xoşbəxt olsun.”Samirə İsmətin evinə gəlin köçdü.Kasıb bir toy elədilər.İsmət Samirənin fikirləşdiyindən qat-qat kasıb idi.Yaxşıkı nənəsi varmış.Onu pensiyası ilə birtəhər dolana bilirdilər.Samirə elə

evliliyin ilk həftəsində İsmətə gəldiyinə peşman olmuşdu.İsmət heç yerdə işləmirdi.Amma Samirəyə evli olmadıqları vaxtda demişdi ki,kənddə böyük marketi var.Sonradan Samirə gördü ki, heç bir market yoxdu.İsmətlə yaşamaq Samirə üçün günü-gündən daha da dözülməz olurdu.Bu evə gələndən artıq qadınlıq gözəlliyini itirmişdi. Dərisində vaxtsız qırışlar əmələ gəlmişdi.Bura gəlməmişdən Samirənin gözəgəlimli bədəni və fiqurası vardı.Bircə eybi vardı.O da dodaqlarının nazik olmasıdır.Normal vəziyyətdə bu heç hiss olunmasa da,biraz ürəkdən gülən kimi,dodaqlarının nazikliyi nəzərə çarpırdı.Özünə əvvəlki kimi baxa bilmirdi.İntim münasibətdə isə İsmətdən istədiyini ala bilmirdi. İsmət bir kişi kimi onu yataqda təmin edə bilmirdi.Samirə isə yataq macəralarına üstünlük verən qadınlardan olduğuna görə intim münasibət zamanı şıltaqlıq etməyi sevirdi.Bu baxımdan İsmət Samirə üçün əlverişli deyildi.Ona görə ki,İsmət yataqda münasibətlə Samirəyə yaxınlaşanda birbaşa mətləbə keçirdi.Ona görə də onların yataqdakı münasibəti 6-7 dəqiqədən çox çəkməzdi.İsmət heç Samirənin boynunu,dodaqlarını öpməyə cəhd etmirdi.Bu da Samirəni əsəbləşdirirdi .Bir dəfə İsmət yataqdan çıxandan sonra Samirə öz ürəyində dedi:”Səninlə yatıb ehtirasımı soyutmaq əvəzinə bunu etməsəm daha yaxşıdır.”Yavaş-yavaş Samirə İsmətdən soyumağa başladı.O, nədənsə heç uşağa da qalmırdı.Üzü də yox idi ki,İsmətə desin ki,gəl həkimə gedək.Çünki bilirdi ki,bir aydan çoxdur ki,İsmətin cibində siçovullar oynayır.Arada zavodda işə düzəlmişdi.Sonradan həmin zavodu bağladılar.Neçə müddətdir ki,Samirə nə qarnına düz-ağıllı çörək yeyirdi,nə də əyninə münasib paltar geyinə bilirdi.Hərdən televizorda gözəl geyinmiş qızlar görəndə deyirdi:”Sənin gözəlliyin olmasa da,bu paltar səni yaxşı cazibədar görsədir.Mən səndən də gözələm.Gör o paltarı mən geyinsəm necə gözəl görünərəm.”Samirə hərdən evdə tək olanda qapını içəridən bağlayıb,keçirdi güzgünün qabağına.Paltarını tamam

soyunub bədənini nəzərdən keçirirdi.Onun doğurdan da gözəl bədən quruluşu vardı.Samirə güzgü qabağında bədəninin gözəlliyindən həzz alırdı və öz-özünə deyirdi:"Mənim televizorda ora-burasını göstərən modelyerlərdən nəyim əskikdi ki,İsmət onları görəndə ağzının suyunu yığıb qurtara bilmir."Hərdən Samirə soyunub bədəninə göz gəzdirəndə öz-özünə deyirdi:Heyf bu gözəlliyə ki,gəlib düşüb İsmət kimisinin əlinə o da maymaqlıq edib ondan istifadə etmir.Mən də yanıb-tökülürəm.

Bir həftə sonra İsmət Samirəni də götürüb bazara getmişdi.Evliliklərindən sonra bir yerə birlikdə getmələri elə də çox olmamışdı.Əslində son günlər İsmət işsizlik dərdi çəkməkdən elə bir hala düşmüşdü ki,Samirə onunla bir yerə birlikdə getməyə utanardı.Bazardan çıxandan sonra yolun qırağında dayanıb avtobus gözləyirdilər.Birazdan sonra qara rəngli "Nissan" düz onların yanında dayandı.ismət maşını tanıdı.Bu bələdiyyənin sədri Qabil Fərəcovun maşını idi.Maşını bu gün nədənsə Fərəcov özü sürürdü."Nissan"ın qabaq pəncərəsi aşağı endi.Şüşə aşağı enən kimi Fərəcov gözlərini əlində zənbil tutmuş Samirəyə zillədi.Fərəcov qara kostyum geymişdi.Üzünü isə təmiz qırxmışdı.İsmət onu görən kimi yaxına gəldi.

-Salam yoldaş Fərəcov.

-Əleykə.Hara belə?

-Evə.Avtobus gözləyirik.

-Mən də kəndə gedirəm.Əyləşin gedək.

-Yox narahat olmayın,birazdan avtobus gələcək.

-A kişi dedim gəl otur.

-Çox sağolun Fərəcov.Sizin bu yaxşılığınızı heç vaxt unutmayacağam-İsmət bunu deyib arvadına sarı getdi.İsmət aralanandan sonra Fərəcov yavaşca öz-özünə dedi:”Guya unutmayıb nə qələt edəcəksən”.İsmət Samirəylə birlikdə maşına sarı yaxınlaşdı.Arxa qapını açıb Samirəni əyləşdirdi,özü də onun yanında əyləşmək istəyirdi ki,Qabil Fərəcov dilləndi:

-Sən gəl qabaqda otur.

-Yox elə burada əyləşərəm.

-A kişi sənə dedim gəl qabağa.

İsmət daha etiraz etmədi.Arxa qapını ehmalca bağlayıb qaçaraq qabaq qapını açıb Fərəcovun yanında əyləşdi.Fərəcov maşını işə saldı.Qara rəngli “Nissan” yola düşdü.Biraz getmişdilər ki,Fərəcov qabaq güzgünü əliylə burub düzəltdi.İndi o rahatlıqla Samirəni görə bilirdi.Samirə bir dəfə başını qaldıranda gördü ki,Fərəcov maşının güzgüsündən gözünü ona dikib.Tez gözünü çəkdi.Bunu görən Fərəcov gülümsündü.

-Hardan gəlirsiz?-Fərəcov soruşdu.

-Bazardan-İsmət cavab verdi.

-Heç belə gözəli də avtobusa mindirərlər.Fərəcov bu sözü deyib yenidən gözlərini Samirəyə dikdi.Onun komplementindən sonra Samirənin nazik dodaqlarına azacıq təbəssüm qondu.İsmət isə Fərəcovun sözündən sonra qızararaq cavab verdi:

-Neyləyim,yoldaş Fərəcov.Əlbət maşınım olsa,maşınla aparıb gətirərəm.İşsiz-gücsüz adamam.

-İşsiz niyə olursan ə..? Sənin tayların qaz vurur qazan doldurur-Fərəcov kinayə ilə dedi.

-İş tapmaq çətindi yoldaş Fərəcov-İsmət yazıqcasına cavab verdi.

-Çətin olmaz,ölməmişik ki! “Simurq” kafesini yəqin tanıyırsan?

-Hə tanıyıram.

-Sabah get ora,deki,səni mən göndərmişəm.Axşam özüm də zəng vurub tapşıracam.Kafe böyükdür.Hələlik orada işlə,sonrasına baxarıq.

-Doğrudan deyirsiz yoldaş Fərəcov?-İsmət eşitdiklərinə inanmırdı.

-Mən bilən mənim səninlə zarafatım yoxdur-Fərəcov gülümsünərək cavab verdi.

-Çox sağolun.Min dəfə təşəkkür edirəm-İsmət təşəkkürünü bilmirdi necə bildirsin.Bütün deyilənləri arxada əyləşən Samirə də eşidirdi.Artıq Samirədə Fərəcova qarşı bir yaxınlıq hissi əmələ gəlmişdi.Fərəcovun özündən və maşınından gələn gözəl ətir qoxusu onu valeh edirdi.

-Bunu sənə görə etmirəm.Arxada əyləşən bu gözəl xanıma görə deyirəm.Heç rəvadırmı ki,belə gözəl xanım korluq çəksin.Fərəcov gülümsündü.Gözlərini isə Samirənin gözlərinə zilləmişdi.Artıq Samirə də açılışmışdı.Qarabir o da Fərəcova baxırdı.

-Yenə də çox sağolun-İsmət Fərəcovun atmacalarının heç birinin məzini bilmədən cavab verdi.”Nissan” artıq kəndə daxil olmuşdu.İsmətgilin evinə dönən yola yaxınlaşanda İsmət “qabaqda saxlayın biz düşək” dedi.Fərəcov İsmətin sözünə fikir vermədi,yolu dönüb maşını düz onların qapısının ağzına sürdü.Gəlib İsmətin darvazasının ağzında saxladı.Fərəcov:

-Bax indi düşə bilərsiz.

-Bu gün çox əziyyət çəkdiniz.Bizə xəcalət verdiniz-İsmət bunu deyib qapını açıb yerə düşdü.Sonra şüşədən Fərəcova dedi:

-Gedərdik evə.Qonağımız olun.

-Yox başqa vaxt-Fərəcov qısa cavab verdi.Samirə də dodağının altında Fərəcova “Çox sağolun” deyib arxa qapını açmaq istəyirdi ki,Fərəcov ona “Sən sağol gözəl” sözünü dedi.Samirə gülümsünüb maşından yerə endi.Onlar hər ikisi darvazaya sarı getdilər.Fərəcov fürsətdən istifadə edib Samirənin ora-burasını süzdü və dedi:

-Heyif sənin kimi tikəyə ki,onu yetim-yesir yeyir.Samirə darvazadan içəri keçəndən sonra Fərəcov maşını sürüb oradan uzaqlaşdı.

****

Səhərisi günü İsmət səhər yeməyini yeyib,rayona getdi.Samirə isə evdə qaldı.indi o sevinirdi”yaxşıkı İsmətin qabağına Fərəcov çıxdı.Yoxsa nənəsinin ölümündən sonra yazıq lap çökmüşdü.Yenə arada pensiyasını alırdı”Samiə bunları deyib ev-eşiyiyə əl gəzdirməyə başladı.Birdən həyətin qapısı açıldı.İçəri qırx yaşlı bir arvad girdi.Bu,qonşunun arvadı Sarıtel idi.Üzündən-gözündən

görsənirdi ki,cavanlığı o qədər də sakit keçməyib.Yaşı qırxı haqlasa da gözü-başı oynayırdı.Amma yenə də yaş öz sözünü deyirdi.Artıq bədən fiqurasını tamam itirmiş,üzünü qırışları kənardan hiss olunurdu.Samirə gündə olmasa da,həftədə bir dəfə Sarıtelin öz əriylə çıxardığı tamaşaya baxırdı və ya eşidirdi.Hərdən öz-özünə deyirdi"Mən bunların dava-dalaşına baxmaqdan bezmişəm,amma bunlar bir-birini qırmaqdan bezmiyiblər"Yazıq Valeh bu Sarıtelin əlindən lap boğaza yığmışdı.Sarıtel onu az qala divara dırmaşdırırdı.Sarıtelin nəsli-əcabətində elə bir adamqalmamışdıkı,Valehin söyüşünə tuş gəlməsin.Demək olar ki,həftədə bir dəfə də olsa,Sarıtel özünü Valehə söydürməsə rahatlaşa bilmirdi.Artıq deyəsən öyrəşmişdilər.Bəlkə bir həftəni dava-dalaşsız yola versəydilər,özlərini qəribə hiss edərdilər.Hə Sarıtel bax belə sarıtellik edirdi.

-Sabahın xeyir az!-Sarıtel özünəməxsus danışıq tərzində dilləndi.

-Sabahın xeyir Saritel xala!-Samirə cavab verdi.

-Sənə neçə dəfə deyəcəm mənə"xala"demə.

-Yaxşı Sarıtel xanım.-Samirə gülümsünərək dedi.

-Xanımlığımı çoxdan itirmişəm.İsmətciyəzin hardadı?

-İşə gedib.

-Bahoo sağol İsmət.Valehdən qeyrətli imişsən.Harada işləməyə gedib?

-Rayonda kafe var ora gedib.Deyəsən adı"simurq"du.

-Nə əcəb onu ora işə götürüblər?

-Bələdiyyənin sədri düzəltdi.

-Qabil!

-Aha hə.

-Dünən darvazanın qabağında dayanan onun maşını idi.

-Hə bizi yolda görüb götürdü.Deyəsən İsməti tanıyırmış.

-İsməti tanıyıb götürmüyübee ay başıboş-Sarıtel gülərək cavab verdi.

-Başqa nəyə görə ola bilərki?

-Yəqin gözünə maşının şüşəsindən sən sataşmısan

-Yox ta bir səndə.Hər şeyə öz ağlınla yanaşma.

-Düz deyirəmdəə neçə dəfə biz Valehdən bazardan qayıdanda gəlib yanımızdan düz keçib.Elə xeyirxah adam idi bizi də götürərdi.Bir də ki,sənə nolubki?Mən  qadınlığımla sən yanımda paltarımı dəyişəndə bədənini görüb səni yemək istiyirəm.O ki,qala kişi ola.

-Ehh.Sən də söz tapdın deməyə.-Samirə özünü Sarıtelin sözlərinə fikir verməmiş kimi aparırdı.Əslində isə Sarıtelin dedikləri onun canına yağ kimi yayılırdı.

-Səndə olan gözəllik və hüsnü-camal məndə olsaydə çoxdan Fərəcovun boğazına ip salıb arxamca hərləyirdim.

-Bəs Valeh?

-Külümü qoyum Valehin kişi təpəsinə-Sarıtel əsəbləşərək cavab verdi.

-Elə demə az!Ərindi.

-Yaxşı görək ərimmiş.İsmətlə heç olmasa tez-tez yatağa girirsən?

-Həə.Gündə bir yerdə yatırıqda-Samirə qəhqəhə çəkib güldü.

-Özünü bilməməzliyə qoyma.Mən başqa şeyi deyirəm.

-Yox.Artıq üç aydır ki,bir-birmizə yaxın durmuruq.

-Bıyy.Yox az!Valeh o vaxtı İsmətdən şükürlüymiş ki.Nəysəə..durum gedim.Sarıtel durub evlərinə getdi.Samirəni isə fikir aparmışdı.Əgər o,Fərəcov kimi insanların ağlını başından ala bilirsə,bəs niyə bu vəziyyətdə yaşayır?O,özünü qınayırdı.Gərək İsmətin şirin dilinə aldanıb tez ərə getməzdi.Qarşısına bəlkə Fərəcov kimisi çıxardı.Bəlkə elə atamın məni vermək istədiyi o adam indi Fərəcovdan da yüksəkdə duranın biridir.Samirə hərdən Fərəcovun sözlərini xatırlayırdı”Heç rəvadırmı belə gözəl korluq çəksin.””Bunu sənə görə etmirəm,arxada əyləşən bu gözəl xanıma görə edirəm.” “Sən sağol gözəl”Bu sözlər Samirənin Fərəcova istəyini artırırdı.Onun baxışlarını unuda bilmirdi.Axı o,Samirədə nə görmüşdü?”Bütün günü İsmətin gözünün qabağındayam,o,niyə mənə elə baxmır.?Mənə niyə bir dəfə demir ki,”Samirə sən çox gözəlsən”.Hər gün soyunub onunla yatağa girirəm.Düz üç aydan çoxdur ki,mənə toxunmur.Fərəcovun bahalı ətrinin qoxusu hələ də Samirənin burnundan getməmişdi.O,bu qoxunu heç vaxt İsmətdən ala bilməmişdi.”Görəsən,Fərəcov yataq macəralarını

xoşlayır?Yəqin ki hə.Görəsən o,öz arvadına qarşı hansı hisləri yaşayır.?Samirə artıq başqa adam olmuşdu.Daha onun İsmətə qarşı heç bir hissi qalmamışdı.İsmət Fərəcovun sayəsində"Simurq" kafesində işə düzəlmişdi.Tezdən gedib hava təzə qaralanda qayıdırdı.Biraz özünə gəlmişdi.Amma Samirəyə qarşı hisləri hələ də olduğu kimi idi.Soyuqluq davam edirdi.Günlərin birində bərk davaları oldu.İsmət özünü saxlaya bilməyib dedi:"Sən məni lap bezdirmisən,axşamacan işləyib sənin ac qarnını doydururam.Bəs sən nə verirsən mənə?5 ildən çoxdur ki,evliyik,amma mənə bir qotur uşaq da verə bilmirsən."-İsmətin bu sözü Samirəni atasının o vaxtı vurduğu şillədən də bərk tutdu.Özünü otağa salıb doyunca ağladı.Artıq ər-arvad bir evin altında küsülü kimi yaşayırdəlar.Davanın üstündən bir həftə keçəndən sonra Samirə İsmət evdən çıxandan sonra qərara aldı ki,tək bazara getsin.Özü qəsdən İsmətə demədi.Çünki bilirdi ki,qışqırıb baş-beynini aparacaq.Tək getdi bazara.Qayıdanda yolda tək dayanıb aftobus gözləyirdi.Yenə də təsadüfən həmin qara rəngli "Nissan"gəlib onun yanında dayandı.Qabil Fərəcov şüşəni endirdi.Fərəcov:

-Samirə,burda tək neynirsən?

-Evə gedirəm.Bazara gəlmişdim.

-Bəs İsmət hanı?

-İşdə.

-Gəl otur.

-Yox.Sağolun.

-Gəl otur dedim!-Fərəcov ciddi sifət aldı.Samirə etiraz etmədi bu səfər.Gəlib Fərəcovun maşınına əyləşdi.Maşın yola düşdü.Fərəcov bir an belə olsun gözlərini Samirədən çəkmirdi.Onun gözəlliyi onu dəli etmişdi.Həmin gün Samirə və Fərəcov bütün yol boyu söhbət etdilər.Fərəcov Samirəni ələ almaq üçün hər vasitəyə əl atırdı.Samirə isə Fərəcovla söhbətdən həzz alırdı.Daha Fərəcovla söhbət edərkən utanmırdı.Fərəcov isə hər həmlədə şikarını süzürdü.Fərəcov:

-İsmətlə necə yola gedirsən?

-Belə də..-Samirə çiyinlərini çəkdi.Amma açıq-aşkar şikayət etmədi.

-Onun nəyi olmasa da yaxşı bəxti var!

-Nəyə görə deyirsiz?

-Sizin kimi arvadı olduğuna görə.

-Siz belə fikirləşirsiz?

-Əlbəttə.İsmətin yerinə olsaydım..-Fərəcov ardını demədi nədənsə.

-Hə onun yerinə olsaydınız!Sözünüzü tamamlayın!

-Elə belə dedim-Fərəcov Samirəni hürkütmək istəmirdi.

-Yoxsa qorxursunuz deməyə?- Samirə özü də bilmədən Fərəcovu sıxışdırırdı.Onun bu sözü Fərəcovu tutdu.Çünki Fərəcovun əlinin altlndan çox qız və qadın keçmişdi.Amma ona meydan oxuyan olmamışdı.Ona görə də Samirəylə söhbətindəki bütün pərdələri alt-üst elədi.Fərəcov:

-Demək istəyirəm ki,İsmətin yerinə olsaydım heç yataqdan çıxmazdım-Fərəcov bu cümləni bir nəfəsə dedi.Ona elə gəldi ki,Samirə onun bu sözündən sonra utanıb başını aşağı salacaq.Amma Samirəyə bu söz təsir etmədi.Samirə:

-Onun intim münasibətə meyli azdı.

-Elə onsuzda hiss olunur-Fərəcovun artıq Samirədən xoşu gəlirdi.Bu görüşdən bir həftə sonra onlar təkrar görüşdülər.Daha sonra yenə,yenə, yenə,....Artıq onların hər ikisi bir-birindən heçnəyi gizlətmirdilər.İsmətin isə heçnədən xəbəri yox idi.Samirə hər şeyi Planlaşdırmışdı.Hər bazar günü bazarlıq adından evdən çıxırdı.İsmətin işdən təsadüfən evə qayıtması məsələsini isə Fərəcov həll etmişdi.”Simirq”un rəhbərinə tapşırıq vermişdi ki,bazar günü nə olur-olsun İsməti işdən heç yerə buraxmasın.Görüşün üçüncü həftəsində Fərəcov Samirəni Rayonun ən dəbdəbəli yerinə apardı.Yeyib-içdikdən sonra Fərəcov kostyumunun cibindən balaca dəri qutunu çıxartdı və dedi:

-Bu da məndən sənə ilk hədiyyə. Həyatı boyu heç kimdən,xüsüsəndə İsmətdən hədiyyə görməyən Samirə üçün bu hədiyyə çox maraqlı gəldi.Əlini uzadıb qutunu Fərəcovdan aldı.Qapağını açdı.Bu,qızıl boyunbağı idi.Uc hissəsində balaca ürək fiquru da vardır.Fərəcov:

-İstədim üzük alam.Amma sonra fikirləşdim ki,üzüyü evdə barmağına taxsan gərək İsmətə bir saat izahat yazasan.Düşündüm boyunbağı daha yaxşı olar.

-Təşəkkür edirəm ,çox gözəldir.

-Sən daha gözəlsən.Növbəti həftədəki görüşdə Fərəcov Samirə ilə yeyib içdikdən sonra dedi:

-Qalx gedək.

-Hara? Niyə tez qalxırıq?-Samirə təəccüblə soruşdu.

-Səni bir yer var ora aparacam.

-Hara? Gedəndə görərsən.Samirə masadan qalxdı.Fərəcovla birlikdə restorandan çıxdılar.Restoranın həyətində qara "Nissan" onları gözləyirdi.Maşına əyləşib oradan uzaqlaşdılar.

"Xəyanət"

Nədir axı xəyanət? Niyə insanlar ondan uzaqlaşa bilmir.Həyatın istənilən bir dövründə, daha doğrusu elə bir dövr olmayıb ki, həmin dövrdə "xəyanət"ə rast gəlməyəsən.Hələ ilk insanların dövründə Qabilin Habilə xəyanətinin şahidi olduq.Qardaşın qardaşa xəyanətinin.Zaman keçdi atanın oğula xəyanətini gördük.Qadının öz ərinə və ya kişinin öz arvadına xəyanətini isə hər addımda gördük.Milyon illər,əsrlər keçsə də, bunun qarşısını almaq mümkün olmadı.Açığı heç buna cəhd də eləmədik.Çünki bunun qarşısını almaq üçün edilən cəhdlər mənasızlıqdan başqa bir şey deyil.Xəyanətin qurbanı olub,o zərbəni almaq çox ağırdır.Xarakterdən asılı olaraq kimisi xəyanətə cavab olaraq xəaynət edəni sadəcə olaraq öz həyatından silir.Digərləri isə "xəyanətin cavabı ölümdür" deyir və xəyanət edəni öldürməklə ondan qisas alır.Məlum məsələdir ki,kişinin xəyanətinə biraz dırnaqarası baxırlar.Məsələn,elə qadın olur ki,əri ona xəyanət edir,lakin bir müddətdən sonra onu asanlıqla bağışlayıb hər şeyi unudur.Onda fikirləşəcəksiniz ki, həmin ər-arvadın arasında heç bir

sevgi hissi yoxdur.Arvadı da ona görə bağışlayıb ki,istəməyib ki,ailəsi dağılsın,uşaqları atasız qalsın.Mən belə bir faktı da görmüşəm ki, xəyanəti bağışlayan qadınlar bunu sadəcə bir cümləylə əsaslandırırlar "Nolsun ki, ərim mənə xəyanət edib,bir qadının yanında olub.O ki həmişə mənim yanımda olacaq".Sizcə bu iyrənclik deyil? Mənimçün iyrənclikdi.Tutaq ki, kişi xəyanət elədi,arvadı da onu birtəhər bağışladı.Yaxşı buna kim zamin dura bilər ki,onların ailə həyatı əvvəlki kimi olacaq.Heçnə bir-birinə münasibəti də dəyişməyəcək.Həmin kişi bütün ömrü boyu həyat yoldaşının yanında gözü-kölgəli gəzəcək.Əgər həmin kişidə vicdan deyilən bir hiss varsa,o, uşaqlarının gözünə dik baxa bilməyəcək.Bəzən mən bir fikirlə də rastlaşıram.Deyirlər ki,"kişi evdən çıxdısa subaydı".Mən belə düşünürəm ki, 85% qadın bu fikrə böyük qəzəblə yanaşırlar.Bu təbiidir.Bir şeyi qeyd etmək lazımdır ki, kişilərin əksəriyyəti onsuz da bu fikrə qulluq edirlər.Qadın kişini evən yola saldıqdan sonra onun arxasınca detektiv yollayır ki, get gör mənim kişim hardadır.Kişi evdən çıxır istədiyini edib qayıdır evə.Evli kişilərin əksəriyyətini gecə vaxtı burdan çıxdığını heç kəs dana bilməz.Mən burda nağıl danışmıram ki, real həyatda müşahidə etdiklərimdi.Dəhşət bilirsiz nədi? "Kişi gedib bir fahişəylə yatır,sonra gəlib arvadıyla bir yatağa girir.Necə də iyrənc bir vəziyyət.Mən həmişə demişəm və yenə də deyirəm.Deyirsiniz ki, kişi evdən çıxdı olur subay bir oğlan.Yaxşı qoy elə olsun.Mənim fikrim isə belədir:"Bir kişinin evdən çıxandan sonra özünü subay kimi hiss edib,istədiyini etməyə ixtiyarı var.Amma təkrar həmin evə qayıtmağa əsla ixtiyarı yoxdur.Elə hallar olur ki,kişinin xəyanət etməsinə səbəb elə qadının özü olur.İlahi...Bəzi qadınlar nə qədər deyinməyi xoşlayır.O qədər deyinirlər ki,axırda kişi baş götürüb evdən qaçır.Bəzi xanımlar isə ancaq toya gedəndə qəşəng geyinib ətirlənirlər.Bu da təbiiki kişiyə pis təsir edir."Gərək bir toy ola bəzənəsən,bir dəfə də mənimçün bəzən də.Qoy bir dəfə də mənim

ürəyim açılsın.Nəyə görə bir toya gedəndə səndən ətir qoxusu,başqa vaxt isə yemək qoxusu gəlməlidi”.Nəysə...Danışdıqca söhbət uzanır.Söhbət xəyanətdən getdikdə təbiiki ilk öncə kişinin qadına və qadının da kişiyə xəyanəti yada düşür.Bu da ondan irəli gəlir ki,xəyanətin ən çox kişi və qadın arasında olanına rast gəlirik.Qadının xəyanətə cavabı bəzən çox ağır olur.Bu tədbir bəzi qadınlara aiddir.Gəlin uzaq,çox uzaq bir keçmişə nəzər salaq.Dünya ədəbiyyatına pəncərə antik dövrdən açılır.Hətta biz bu dövrdə də xəyanətə rast gəlirik.Məsələn,götürək Evpiridin “Medeya” faciəsini.Qısa şəkildə desək məzmun odur ki.Medeyaya əri Yazon tərəfindən xəyanət olunur.Medeya isə bunun cavabını çox dəhşətli bir hərəkətlə verir.Mən Homerin əsərlərindən tutmuş XX əsrə qədər olan əsərlərin çoxusun oxumuşam.Əksəriyyətində xəyanətlə rastlaşmışam.Amma indiyənə qədər oxuduğum əsərlərdə Medeya kimi bir qadına rast gəlməmişəm.Drayzerin “Dahi” romanının qəhrəmanı olan Yucin Vitla da nadir tapılan obrazlardandır.Çünki, o başqalarına bənzəmir və başqaları da onun düşüncələrinə yaxın bir düşüncədə ola bilmir.O,həyatı boyu ideal qadın və ideal gözəllik axtarışında olan bir gəncdir.Mən belə düşünürəm ki,əgər biz Yucini XX əsrin dahisi hesab ediriksə,onda Medeyanı da Antik dövrün dahisi hesab edə bilərik.Medeya öz ərini sevən saf qəlbli,azadfikirli,səmimi bir qadındır.Amma xəyanət gör onu nəyə çevirdi.Bir qadın axı nə qədər qəzəb hissi keçirsin ki,öz uşaqlarının başını kəssin.Təbii ki,indiki zamanda inanmıram Medeyanın vəziyyətinə düşən bir qadın onun elədiyini edə bilsin.Axı Medeyaya xəyanəti əri Yazon etmişdi.O,niyə uşaqlarını məhv elədi? Bu suala cavab vermək üçün bir neçə fikir söyləyim.Amma təbii ki,söylədiyim fikirlər Medeyanın haqlı olduğunu sübut edə bilməyəcək.Hər şeydən əvvəl Antik dövrdən xəbəri olanlar bilməlidir ki,Medeya adi bir qadın deyil.Yazonla o,asanlıqla bir-birinə qovuşmamışdır.Arqonavtlar haqqında əfsanəni də çox yaxşı

bilirik.Yazon və Medeya bir-birinə qovuşmaq üçün ağır sınaqlarla rastlaşmış,hətta dəfələrlə də ölümlə üz-üzə gəlmişdilər.Bu qədər əzab-əziyyətdən sonra Yazona qovuşmuş Medeya sonradan Yazonda xəyanət görəndə o artıq əvvəlki Medeya ola bilməzdi.Medeya Yazona bilmirdi necə izah etsin kiŞ onun xəyanətinə görə o hansı acı hisslər keçirir.Bəs Yazon neylədi?Necə izah edirdi etdiyi hərəkəti? “Mən uşaqlarımızın yaxşı yaşaması üçün kralın qızıyla yatıb dururam”.Mənə elə gəlir ki,Medeya uşaqlarını öldürməklə Yazona onu bildirmək istəyirdi ki,”Bax öz uşaqlarının necə ölməsinə və əzab çək.Bilki,sən mənə xəyanət edəndə mən də belə əzab çəkmişəm”.Xəyanət bizimlə bərabər yaşayır.Nə vaxt özünü göstərməsi isə bilinmir.Xəyanət Qorio Ata kimi bir insanı rəzil bir vəziyyətə saldı.Qızların atasına xəyanəti...

Xəyanət edən insan (istər kişi olsun,istər qadın,fərqi yoxdur) budaqdan qopmuş yarpağa bənzəyir.Yarpaq budaqdan qopdusa heç vaxt yerinə qayıda bilməz.O,mütləq hardasa məhv olacaq.Xəyanət edən insan da.yarpaq budaqdan qopduğu kimi,o da ailəsindən həmin şəkildə qopur və bir daha geriyə qayıda bilmir.Bunu bacara bilmir.

“20 dəqiqəlik yaşantının 10 saniyəlik həzzi”

Qabil Fərəcovun idarə etdiyi qara rəngli “Nissan” gəlib bir binanın qarşısında dayandı.Bina təzə istifadəyə verilən binalardan olduğuna görə,xarici görünüşü çox mənzərəli idi.Fərəcov maşından endi.Tez keçib arxa qapını.Fərəcov:

-Gəlib çatdıq.Düşə bilərsən.Fərəcovla Samirə artıq ilk görüşlərindən bir-birinə “sən” deyə müraciət edirdi.

-Biz bura niyə gəlmişik?

-Üçüncü mərtəbədə bir mənzil var.Dostum onu mənə satmaq istəyir.Gedək bax gör necədi.

Samirə özünü Fərəcovun sözünə inanmış kimi apardı.Maşından endi və birlikdə binaya daxil oldular.Fərəcov əlindəki açarla mənzilin qapısını açdı.Samirəni birinci içəri saldı.Ardınca özü də mənzilə daxil olub qapını içəridən bağladı.Ev iki otaq,hamam,tualet və mətbəxdən ibarət idi.Məişət avadanlıqlarının demək olar ki,hamısı vardı.İki nəfərlik çarpayı,divan-kreslo,geniş ekranlı televizor,qarşısında bəzənmək üçün böyük termo güzgü vardı.Ev olduqca səliqəli idi.Samirə özünü evə baxmış kimi göstərdi.Mətbəxə baxdı,hamamı gözdən keçirdi və s.Sonra keçib termonun qabağında əyləşdi.Güzgüdə özünə baxdı.Saçlarını yanına tökmüşdü.Bu ona daha çox yaraşırdı.Belə olanda o heç qadına yox,ərə getməmiş qıza bənzəyirdi.Əyninə mavi köynək geyinmişdi.Beş ildir ki,ərdə olmasına baxmayaraq döşləri yenə də dik qalmışdı.Mavi köynəkdən bu dik döşlərin necə dik qaldığını görmək olurdu.Dodaqları nazik idi.Amma normal vəziyyətdə bu hiss olunmadığına görə Samirə çalışırdı ki,Fərəcovun yanında yetərincə az gülsün.Birdən Fərəcov arxadan Samirəyə yaxınlaşdı.Saçlarını sol tərəfdən geri itələyib boynundan öpdü.Fərəcov Samirənin bədəninin od tutub yandığını öz dodaqlarında hiss etdi.Öpüşlə bərabər Samirənin bir azacıq ah çəkməsi bir oldu.O,özünü zəngin bir adamın xanımı kimi hiss edirdi.Əlini çantasına salıb ordan Fərəcovun aldığı hədiyyəni çıxardı.Samirə:

-Kömək elə taxım.Görüm necə yaraşır.Fərəcov boyunbağını qabından çıxartdı.Samirə isə saçlarını əlinə yığıb qaldırdı ki,onlar Fərəcova mane olmasın.Fərəcov boyunbağını Samirənin boynundan asandan sonra fürsətdən istifadə edib onun boynunu bir də öpdü.Bu öpüşlərin cavabında Samirə ancaq susurdu.Fərəcov istəyirdi

ki,Samirə “yox eləmə” sözlərini tez-tez desin.Bu Fərəcovun ehtirasını qaldırırdı.Amma Samirə susurdu.Fərəcov boyunbağını asandan sonra dedi:

-Mən onsuz da bilirdim ki,bu sənə çox yarşacaq.

-Təşəkkür edirəm.Samirə bunu deyib ayağa durdu.Çevriləndə özünü artıq Fərəcovun qolları arasında gördü.Fərəcov Samirənin ortasından tutub özünə sıxdı.Yaxınlaşdırdı özünə və dodaqlarından öpdü.Belini biraz da möhkəm özünə sıxdıqca Fərəcov hiss edirdi ki,Samirə artıq bişib.Yenə onun dodağından öpməyə başladı.Yavaş-yavaş mavi köynək yuxarı qalxırdı.Fərəcov Samirənin köynəyini çıxarmaq istəyəndə Samirə etiraz etmək istədi:

-Bəlkə lazım deyil.Biz çox qabağa getdik.Mən qorxuram

-İsmətdən qorxursan?-Fərəcov pıçıltıyla dilləndi.”İsmət” adını eşidəndə Samirənin yadına onun sözləri düşdü.”5 ildən çoxdur ki,evliyik,mənə qotur uşaq da verə bilmədin”.Samirə bunları xatırlayanda içində İsmətə qarşı acı bir nifrət hissi keçirdi.Fərəcov isə başladığı işi sona çatdırmaq fikrində idi.Nəhayət Fərəcovun canı mavi köynəkdən qurtuldu.Samirənin od-tutub yanan isti bədəni Fərəcovun qolları arasında idi.Dikəlmiş sinəsini gizlətmək üçün geydiyi ağ rəngli alt geyimi isə bu gözəlliyə daha bir gözəllik əlavə edirdi.Fərəcov Samirənin bədənin öpüb doyandan sonra onun əlindən tutub yatağa sarı gətirdi.Yatağa uzatdı.Samirənin bədəninə kip oturmuş şalvarını birtəhər çıxardı.Sonra alt geyimlərinin hamısını çıxardı.Fərəcovun aldığı qızılı boyunbağı Samirənin boynunda asılaraq iki döşünün yuxarı hissəsinə düşmüşdü.Samirənin döşlərinin arasından gələn gözəl qoxu Fərəcovu birtəhər etmişdi.10 dəqiqədən sonra onların hər ikisi çılpaq şəkildə yataqda uzanmışdılar.Fərəcovun çəkisi ağır idi.Ona

görə çalışırdı Samirəylə ehtiyatlı davransın.Birazdan hər şey bitdi.Hər şey qurtarandan sonra əlavə 10 dəqiqə yataqda söhbət edib sonra durub paltarlarını geyinməyə başladılar.Həmin gün hər şey Samirə üçün çox pis oldu.Artıq o,əvvəlki kimi ola bilmirdi.Axşam İsmət evə gələndə nə qədər eləsə də,onun gözlərinin içinə baxa bilmədi.Yeməyi İsmətin qabağına qoyub o biri otağa qaçırdı.Çünki qorxurdu ki,İsmət ondan nəsə soruşar,o da onun üzünə baxa bilməz.Sonra İsmət hər şeyi anlayar.Həmin gecə Samirə yata bilmədi.Üzünü bir saniyə belə olsun ərinə sarı çevirə bilmədi.Çox narahat idi.İçində nəsə bir şey onu incidirdi.Yatmağa qoymurdu.Tezdən duranda balışının yarısı su idi.Görünür,Samirə bütün gecəni acı göz yaşı axıtmışdı. Yerindən qalxmaq istəmirdi.Bir saniyə belə İsmətlə rastlaşmaq,onun gözlərinə baxmaq istəmirdi.Utanırdı.Əzab çəkirdi.Yatağından qalxmadı gözlədi İsmət çıxıb getsin,sonra dursun.Nəhayət,darvazanın səsi eşidildi. Demək İsmət getdi.Samirə yatağından qalxdı.Güzgünün qabağına keçdi. Qəfildən güzgüdə öz əksini görüb qorxdu.Bir günün içində Samirə çox pis günə qalmışdı.Bütün gecəni ağladığından gözləri qızarmışdı.Bədəni əvvəlki bədəni olsa da,bu Samirəyə elə gəlmirdi.Ona elə gəlirdi ki,bədəninin rəngi solub.Sanki,bədəni içəridən ləkələnib.Dünənki gündən sonra beli bərk ağrıyırdı.Halsızlaşmışdı.Özünü çox pis hiss edirdi.İçərisində bir qorxu dolanırdı.Dünənki 20 dəqiqəlik yaşantının 10 saniyəlik ləzzəti görünür,ona baha başa gəlib.Onun vicdanı təmiz deyildi. Bəlkə də,İsmət ona yaxşı baxmırdı.Buna görə Fərəcovun qucağına girmək lazım idi?Samirənin indi bildiyi bir şey vardı.Dünən Fərəcovun Yatağına girməyi ilə İsmətə bir şey olmayıb.Olan elə onun özünə olub.İsmət dünən rahat çörəyini yeyib,yatdı,tezdən də durub işə getdi. Bəs mən?Dünən siçovul kimi girməyə yer axtarmışam ki,İsmətin üzünə baxmayım,gecəni yatmayıb acı göz yaşı axıtmışam,vicdanımın ləkəsi artıq xaricdən də bədənimdə hiss

olunur.İndi necə olacaq bəs?Mən necə eliyəcəm?Kaş o vaxtı atamın dedikləri ilə razılaşardım.Samirənin yadına 6 il əvvəl atası Siyavuşun dediyi sözlər düşdü:"Onu bilki,sənin xoşbəxtliyini hamıdan çox birinci mən istəyirəm"Samirə bu sözləri xatırlayanda gözləri doldu.Gör nə vaxtdan valideynlərinin üzünü görmür. O,özünü saxlaya bilmədi və hönkürtüsü otağa yayıldı.Samirə özünü qurban vermişdi.O,özünü 20 dəqiqəlik yaşantının 10 saniyəlik həzzinə qurban vernişdi.Həmin görüşdən sonra nə qədər "20 dəqiqələr" "10 saniyələr" keçsə də onun həyatı əvvəlki kimi olmadı.O,özünü dəbdəbəli binanın üçüncü mərtəbəsindəki mənzilin yatağında məhv elədi.Aradan xeyli keçdi.Samirə daha Fərəcovla görüşmürdü.Ümumiyyətlə bazarlıq etməyə də getmirdi ki,o təsadüf,lənətə gəlmiş o təsadüf bir də olmasın. Fərəcov onu bir də görməsin.Daha sonra İsmətin əmisioğlunun toyundan evə gələrkən qəzaya düşdüyünü və elə yerindəcə keçindiyini eşidən Samirə üçün hər şey,bu fani dünya onun üçün cəhənnəm oldu.İsmət artıq yoxdur.O,ölmüşdü.Dəhşətli yol qəzasının qurbanı olmuşdu.İsməti kənd qəbiristanlığında dəfn etdilər.Dəfin mərasiminə İsmətin çoxlu qohumları gəlsə də,Samirə onların heç birini tanımırdı.Çünki,onlar heç vaxt İsmətin evinə gəlməmişdilər.Samirə bir müddət tənha yaşayandan sonra artıq belə həyata dözə bilmədi.Dəfələrlə özünə qəsd etmək istəsə də bacarmadı.Daha sonra Samirədən səs-soraq çıxmadı.Fərəcov Samirəni həmin kənddə saxlamadı.Bir müddət ərzaqla təmin etdi onu.Daha sonra özüylə Bakıya apardı.Sonra kənddə söz çıxdı ki,Fərəcov Samirəyə kömək edib.Onu öz şirkətində işə düzəldib.Buna görə də Fərəcovun kənddə hörməti artmışdı.Hamının etibarını qazandı və Samirədən sonra Suğra arvadın nəvəsi Minəxanıma da kömək etdi.Fərəcov həyatın qanunlarıyla oturub-durmağı xoşlamırdı.O,adətən öz yaratdığı qanunlara tabe olurdu.Qabil Fərəcov bax belə Fərəcov idi.

****

Qarayev idarə etdiyi maşını mərhum Şamxal Əsədovun evinin qabağında saxladı.Maşından birinci olaraq Leytenant Qarayev daha sonra isə Polkovnik düşdü.Cəbiyev üçün qarşısındakı göy darvazanı açıb həyətə girmək çox çətin idi.Həyətdən gələn nalə səslərindən aydın görünürdü ki, həyətdə ağlaşma var.Səhərin bəd xəbəri artıq bu darvazadan içəri daxil olmuşdu.Polkovnik yerində dayanıb diqqətlə darvazaya baxırdı.Qarayev içəri keçmək üçün polkovniki gözləyirdi.O,isə yerindən tərpənmirdi.Çox qəribə sifət almışdı.Bilmək olmurdu,bu əsəbdəndi,yoxsa onun daxilindəki ciddiyyətin xaricdəki təzahürüdü.Bir az dayanandan sonra əlini döş cibinə salıb qara rəngli siqaret qutusunu çıxartdı.İçindən bir siqaret çıxarıb damağına qoydu.Alışqanla yandırıb,tüstünü ciyərlərinə çəkdi.Qarayeva aşağı tonla dedi:"Biraz gözlə sonra həyətə daxil olarıq"bunu deyib bir-iki addım kənara çəkildi.Siqareti çəkməyindən görünürdü ki,onu narahat edən nəsə var.Onu indi düşündürən o idi ki,bu darvazadan içəri girən kimi,yetmiş yaşlı qoca arvadın gözüyaşlı,çarəsiz,yazıq və tənha baxışları ilə rastlaşacaq.Keçən səfər Cəbiyev onun əlindəki şaxtanın uzun müddət silinməyən izini görəndə çox təsirlənmişdi.Onun əllərinin necə ayazlı şaxtalardan çıxdığını o polkovnik o dəqiqə anlamışdı.Bu əllər ona öz nənəsini xatırlatmışdı.Həmin gün polkovnik onunla söhbət etmişdi.Gözləri çuxura düşən arvadın məzlum baxışları polkovniki başdan ayağa süzmüşdü.Cəbiyev fikirləşəndə ki,indi darvazanın arxasında həmin çuxura düşmüş gözlərin ağlamaqdan qızarmış olduğunu görəcək,onda heç içəri girmək istəmirdi.Amma polkovnik bu evə mütləq daxil olmalıydı.Bəzi şeyləri gözdən keçirmək lazım idi.Siqareti yerə tullayıb,karişni ayaqqabısıyla onu söndürdü,sonra Qarayeva yaxınlaşıbi:"İndi içəri keçə bilərik"dedi.Qarayev darvazanı açıb birinci olaraq polkovnikin içəri

girməyini gözlədi.Cəbiyev içəri daxil oldu.Həyətdə Şamxalın nənəsindən başqa üç arvad və yaşlı bir kişi vardı. Görünür,hələ səhər olduğundan kənd adamlarının çoxsunun xəbəri yoxmuş.Xəbərləri yoxmuş ki,Şamxalın nənəsi bu dəqiqə fəryad edib,nəvəsini istəyir.Göz yaşı axıdıb nalə çəkir.Dizlərinə döyüb,ağarmış saçlarını yolur.Cəbiyev həyətə daxil oldu.Onu görən Şamxalın nənəsi irəli yeriyib,polkovnikin ayaqlarına düşdü.Cəbiyev tez arvadın qollarından tutub ayağa qaldırdı.70 yaşlı qocanın məzlum baxışları Cəbiyevin iti baxışları ilə toqquşdu.Cinayət axtarış bölməsində işlədiyi müddətdə polkovnik bir çoxlarının baxışlarının onun gözünə zilləndiyini görmüşdü. Çoxları polkovnikin iti baxışlarına tab gətirə bilmirdi.O,çox zaman şübhəliləri iti baxışları ilə sınağa çəkirdi.Bəzən bu baxışlar lap qorxunc bir görkəm alırdı.Polkovnikin baxışları indi bu yetmiş yaşlı qocanın baxışları ilə toqquşmuşdu.O,gözləyirdi ki,indi qoca gözlərini onun gözündən yayındıracaq.Amma belə olmadı.Kədərlə dolu baxışlar polkovnikə zillənmişdi.Bu gözlərin məzlum baxışı polkovnikin qəlbini parça-parça edirdi.Nəhayət Cəbiyev yetmiş yaşlı bu taqətsiz,beli bükülmüş,əlləri qırışmış qocanın ümüdsüz,çarəsiz,köməksiz baxışlarına dözə bilmədi.Gözlərini qocanın gözlərindən yayındırmağa məcbur oldu.Qoca isə sümükləri çıxmış əlləri ilə polkovnikin qollarından bərk yapışmışdı.

-Sənə qurban olum nolar de ki,Şamxalımı gətirmisən.Susma denən.O ölə bilməz.Məni tək qoymaz.Yalvarıram denənki,o sağdır.Yəqin yenə gecəni dəyirmanda keçirib.Ona görə evə gəlməyib.Hə,hə milis.O dəyirmandadımı? Yazıq balam yəqin acdır.Eybi yox birazdan gələr çörək verərəm.Gedim çayı qızdırım.Niyə susursan milis?Bu qoca arvad səndən çoxmu şey istədi?Bircə kəlmə söz dedi.Söz de mənə yalvarıram.Çox qocalmışam,bu ağır yükü qaldırmağa mənim yüküm

çatmaz,çatmaz,çatmaz...Ay Şamxal...!-Qocanın naləsi get-gedə yüksəlirdi.Bunu görən arvadlar ona yaxınlaşdılar.Qolundan tutub aparmaq istəsələr də,o polkovniki buraxmaq istəmirdi.Cəbiyev susurdu.Nə edəcəyini bilmirdi.Çalışırdı onun baxışlarına tuş gəlməsin.Nəhayət onu polkovnikdən uzaqlaşdıra bildilər.Cəbiyev kostyumunun qollarını əli ilə düzəldib evə sarı addımladı.Həyəti gözdən keçirdi.Həyətdəki kişi onlara yaxınlaşdı.Qarayev polis formasında olduğuna görə bu kişi anlamışdı ki,bunlar polisdəndir.Polkovnik çevrilib həmin kişiyə baxdı və soruşdu:

-Siz mərhumun nəyisiniz?

-Qonşusuyam-Yaşlı kişi astadan cavab verdi.

-Xəbəri kimdən eşitdiniz?

-Səhər yerimdə uzanmışdım.Bir də gördüm bu yazığın səsi gəlir.Tez qapıya çıxdım.Bağın içindən keçib bunların həyətinə girdim.Gördüm yazıq arvad dizlərini yerə atıb nalə çəkir.

-Bəs bu qocaya xəbəri kim çatdırıb?-Polkovnik ətrafına göz gəzdirə-gəzdirə soruşdu.

- Allahyar gəlib, deyib.

-O hardan bilib bəs?

-Vallah ta orasın bilmirəm-Yaşlı kişi yazıqcasına cavab verdi.

-Siz həyətə daxil olanda Allahyar burada idi?

-Yox.Həyətdə ancaq bu yazıq arvadın özü idi.Allahyar xəbəri verəndən sonra deyəsən hadisə yerinə qaçıb.

-Aydındır-Polkovnik biraz irəli getdi.Sonra qəfildən həmin kişiyə sarı çevrilərək soruşdu.

Polkovnik:

-Demək siz həyətə girəndə Allahyarı burda görmədiniz?

-Görmədim.

-Siz həmin günü Şamxalın nənəsinin səsini eşitməzdən əvvəl bu həyətdə nəsə bir səs eşitmisiz?

-Yox eşitməmişəm.

-Bəs darvazanın səsi?

-Darvazanın səsi?-Yaşlı kişi təəccübləndi.

-Bəli! Allahyar bu evə qonaq gəlmirdi ki,darvazanı ehmalca açıb bağlaya!

-Vallah yeganə eşitdiyim səs bu yazıq qocanın səsi olub.

-Ümumiyyətlə bu darvaza açılan zaman çıxardığı səs sizin uzandığınız otaqda eşidilə bilərmi?

-Yavaş açılsa yox,amma biraz möhkəm açılsa eşidilər.

-Buna əminsiniz?-Polkovnik dəqiqləşdirmək üçün soruşdu.

-Vallah nə deyim amma mənim yadıma bir şey düşdü.Hardasa iki ayın söhbətidi.

-Eşidirəm sizi-Polkovnik bütün diqqətini bu kişinin söylədiklərinə yönəltdi.

-Bir dəfə Şamxal dəyirmanda olan bir vaxtda bu yazıq arvadın qan təzyiqi çox yuxarı qalxmışdı.İncəvara,qaynının arvadı yanında imiş.Tez Şamxalın telefonuna zəng vurub məsələni ona çatdırıb.Mən onda elə həmənki otaqda uzanmışdım.Birdən qonşu darvazanın açıldığını çox aydın eşitdim.Şamxal tələsik darvazanı açaraq həyətə daxil olmuşdu.Sözüm ondadır ki, o vaxtdı asanlıqla darvazanın səsini eşitdim və gəlib maraqlandım ki, nə olub.

-Aydındır.Çox sağolun-Polkovnik bu sözləri deyib daşdan hörülmə pilləkana yaxınlaşdı.Dörd pillədən ibarət olan bu balaca pilləkən məhəccərə bitişik idi.Polkovnik həmin pilləkanla çıxıb evə daxil olmaq firkindəydi.Pilləkanla yavaş-yavaş addımlayırdı.Birdən polkovnik dayandı.Ətrafına göz gəzdirdi.Həyətdəki adamların başı yazıq qocanı sakitləşdirməyə qarışmışdı.Cəbiyev ayaqlarını qatlayıb aşağı əyildi.Onun gözü pilləkanın ikinci pilləsindəki daşın tinində ilişib qalan nisbətən yaş palçıq parçasına sataşdı.Bu palçıq,daha doğrusu azacıq qurumuş palçıq hansısa ayaqqabının altından çıxaraq bura yapışmışdı.Polkovnik pilləkanın hər tərəfinə diqqətlə göz gəzdirməyə başladı.Bunu görən Qarayev ancaq susurdu.Hələlik heçnə soruşmadı.Çünki bilirdi ki,Rəsul Cəbiyev ona heçnə deməyəcək.Dəyirmanda Cəbiyev ona lazım olduğundan çox şey demişdi.Cəbiyev dörd pillədən ibarət olan bu balaca pilləkanın hər tərəfinə diqqətlə göz gəzdirdi.Bu palçıq parçası ancaq ikinci pillədə idi.Həmin torpaq parçasının daşın tinində hansı vəziyyətdə ilişib qalması polkovnikə çox şey deyirdi.Bəlkə də fikirləşmək olar ki,pilləkanın ikinci pilləsindəki daşın tininə ilişib qalan adi palçıq axı polkovnikin niyə diqqətini cəlb etməlidir? Cavab çox sadədir.Əslində polkovnikin diqqətini çəkən adi palçıq parçası deyil,başqa şeydi.Amma nə? Polkovnik axı bu yaş torpaq

parçasında qeyri-adi nə görmüşdü? Qış vaxtdı pilləkanın daşına palçığın ilişməsi çox təbiidir.Polkovnikin gördüyü iz bizim çox zaman ayaqqabımızın altını təmizləmək üçün onun altını harasa çəp vəziyyətdə sürtdüyümüz vaxt sürtülən yerdə qalan palçığa bənzəyirdi.Polkovnik yenə öz kiçik köməkçisi olan “böyüdücü şüşə”ni (zərrəbi) çıxartdı.Cəbiyev zərrəbini palçıq qırığına yaxınlaşdırdı.Sonra zərrəbinlə həmin palçıq qırıntısının kənarlarını nəzərdən keçirdi.İşini bitirəndən sonra evə daxil oldu.Leytenant Qarayev də onun arxasınca içəri daxil oldu.Polkovnik artıq bir dəfə bu evdə olmuşdu.Şamxalla söhbət də eləmişdi.İndi isə bu evdə heç kəs yox idi.Ev ona əvvəlki  kimi görsənmirdi.Birinci dəfə o bu evə daxil olanda ev ona çox hənirtili gəlmişdi.Hiss olunurdu ki,evdə yaşayış var.Otaqda peç yanırdı.Otağın hərarətini çöldən içəri girən kimi hiss etmişdi.İndi isə o,heç nə hiss etmədi.Otaqlar buz kimi,divarlar soyuq,işıqlar sönülü,televizor sönülü...Elə bir içəridə həyat bir anlıq dayanıb.Çölün hərarəti ilə içərinin hərarəti fərqlənmirdi.Polkovnik  Şamxalın otağının harda olduğunu birinci dəfə gələndən yadında saxlamışdı.Ona görə də birbaşa Şamxalın otağına sarı getdi.Qapını açıb içəri daxil oldu.Otaq o qədər də geniş deyildi.Ona görə də buranı qızdırmaq üçün içəridə heç bir vasitəyə rast gəlinmədi.Polkovnik diqqətlə hər tərəfə göz gəzdirdi.Qapının kəndarında dayanmışdı.Polkovnik şkafa yaxınlaşdı.Şkafda dəftər var idi.Bu dəftər Cıbiyevə tanış idi.Birinci dəfə bu evə gələndə Şamxal onu yerə salmışdı.Onda polkovnik həmin dəftərin birinci səhifəsini və onun içindən düşən iki şəkili görmüşdü.Şəkillərdən biri yerə üzüaşağı düşdüyündən Polkovnik onu görə bilməmişdi.Digərini isə görmüşdü.O,şəkildə saçlarını yanına tökmüş,ağ dərili,qara saçlı bir qızı görmüşdü və onu tanımışdı.Polkovnik dəftəri əlində sıxaraq,oradan götürdü.Cəbiyevin arxası Qareyeva sarı olduğundan leytenantın

gözü polkovnikin nə etdiyini görmürdü.Polkovnik dəftəri əlində vərəqləyirdi. Qarayev:

-Siz orda nə edirsiniz?

-Dəftərin vərəqlərini sayıram-polkovnik cavab verdi.Onun cavabı Qarayeva gülməlin gəldi və fikirləşdi ki,Polkovnik yumor hissini hələ itirmiyib.İçəri keçdib Cəbiyevə yaxınlaşdı.Gördüyü mənzərə onu heyrətləndirdi.O,zarafat etmirmiş.Doğurdan da dəftərdəki vərəqləri sayırdı.Qarayev heçnə anlamadı.Qarayev:

-Bu dəftər sizə niyə maraqlı gəlir?Onun vərəqlərini niyə sayırsız? Polkovnikin əlində tutduğu dəftər adi 40 vərəqli dəftər idi.Üstünə İngilis yazıçısı Jozef Addisonun sözləri yazılmışdı"Təvözakarlıq ləyaqətin yalnız bəzəyi deyil,həm də keşikçisidir"

-Bu dəftərdə hesab-kitabdan qırx vərəq olmalıdır.Düzdü?-polkovnik içərisi yarısına qədər yazılmış,qalanı isə ağ vərəqdən ibarət olan dəftəri göstərərək soruşdu.

-Hə təbii.Nolubki?

-Amma burda 38 vərəq var.İki vərəq cırılıb.

-Yəqin nəsə olub ortasından iki vərəq qopardıblar.

-Ortasından yox!-polkovnik astadan cavab verdi

-Necə yəni?-Qarayev könülsüz soruşdu.Polkovnikin elementar şeylərə çox diqqət etməsi onun ürəyini sıxırdı.

-Əvvəlcə dəftərin son vərəqi cırılıb götürülüb,sonuncu vərəqin cırılması nəticəsində birinci vərəq də qopub.

-Siz bunu necə bildiniz?-Qarayev soruşdu

-Biraz səbrin olsun biləcəksən-Polkovnik cavab verdi.

-Bu dəftər axı nə dəftəridir?orda nə yazılıb?

-Bu,Şamxalın gündəliyidir.Özünə aid bəzi şeyləri yazıb bura.Başqa heçnə. Bu dəftəri özümüzlə aparacıyıq.Lazım olacaq bizə.-Polkovnik bunları deyib otağa sonuncu dəfə göz gəzdirdi.Şfaneli yoxladı.Şkafa göz gəzdirdi və nəhayət,döşəməyə baxanda orada ayaq izləri gördü.Tez aşağı əyildi.Ayaq izləri şox qəribə düşmüşdü.Qarayev də aşağı əyildi.Ayaq izlərinə diqqətlə baxaraq dedi:

-Bu izlər göstərir ki,kimsə bu otaqda olub.Özüdə ayaqqabı ilə.

-Sən haqlısan Qarayev!Bu otağa kimsə ayaqqabıyla daxil olub.Bir bax qapının ağzında da var bu izlərdən.-polkovnik qapının ağzını göstərərək dedi.O,qapının ağzına yaxınlaşdı.Buradakı izlər içəridəki izlərdən fərqlənirdi.Qapının ağzındakı ayaqqabı izləri içəridəki izlərdən fərqli olaraq bütöv olması Cinayət axtarışı üzrə ekspert olan Polkovnik Rəsul Cəbiyevə çox şey dedi.Artıq Polkovnik öz beynində araşdırma aparmağa başlamışdı.Ən xırda detalları belə götür-qoy edib bütün incəliyi ilə araşdırmağa çalışırdı.Artıq Polkovnik qatilə yaxınlaşmışdı.

****

Peşəkar olmaq hər zaman irəli getmək deməkdir.Öz işinin ustası olmağı bacarmaq üçün ən vacibi odur ki,gördüyün işi sevəsən.Həvəslə görülən iş insanı yormaz.Elə işlər varki,o,birbaşa fiziki gücə əsaslanır.Əgər həmin işdə fiziki cəhətdən çox zəifsənsə,o

işə getməyinə dəyməz.Elə işlər də var ki,o səndən iti hafizə,geniş təfəkkür və dərin təxəyyültələb edir.Məsələn,peşekar detektivlərdə təfəkkürün,hafizənin və təxəyyülün olması vacib şərtdir.Şerlok Holms haqqında eşitmişik.Şotland yazıçısı Artur Konan Doylun yaratdığı xəfiyyə obrazı.İlk dəfə 1887-ci ildə Doylun əsərində peyda olmuş Holms Londonda Beyker-strit,221B ünvanında yaşayır və cənubi və mərkəzi İngiltərə və kontinental Avropa boyu cinayətkarları təqib edir,dolaşıq cinayət işlərinin üstünü açırdı.Ümumiyyətlə Konan Doylun qələmindən 4 povest və 56 hekayə çıxıb ki,onlar da Holmsun 1878-1914-cü illərdəki fəaliyyətini əhatə edir.Çox zaman deyilir ki,Şerlok Holms elə Doylun özüdür.Daha doğrusu onun prototipidir.Holms geniş təfəkkür və təxəyyül sahibi olduğundan açılması müşkül olan cinayətlərin üstünü açmağı bacarırdı.O,təhqiqat zamanı ağılagəlməz üsullardan istifadə edirdi.Buna görə qatili asanlıqla tapa bilirdi.Kriminalistikadan məlumdur ki,qatil cinayət törədərkən aşağıdakı ardıcıllıqla gedir.

1)Törədəcək olduğu cinayətin planını hazırlamaq

2)Qətli törətmək.

3)Həmin qətldən yayınmaq.

Qatil daha çox 3-cü mərhələdə səhvə yol verir.Bəzən xırda bir detal qatili ifşa edə bilər.Qatilin buraxdığı xırda bir səhv,peşəkar xəfiyyə üçün böyük dəlildi.Dünyada təxəyyüllü qatillər də çox olub.Bəzən elə cinayətlər törədilib ki,üstündən 10 il,20 il keçsə də qatili tapmaq mümkün olmayıb. Bu həmin qatilin peşəkar işləməsi deməkdir.Siyasi detektiv ustası olan Çingiz Abdullayevin "Unudulmaz röya" əsərində qatil özünü 11 il gizli saxlaya bimişdi.Həmin cinayət intihar adıyla bağlanmışdı.Hamı da

mərhumun intihar etməsinə inanmışdı.Təkcə onun həyat yoldaşından başqa.Nəhayət həmin cinayətin üstü 11 il sonra xəfiyyə Dronqo tərəfindən açılır və qatil gec də olsa cəzasına çatır.Digər detektiv yazıçımız Elxan Elatlının “Qanunsuz əməliyyat” detektiv-məhəbbət romanında isə törədilmiş cinayətin üstü 24 il sonra açılır.Belə hadisələrə detektiv janrında yazılmış əsərlərdə tez-tez rast gəlmək olar.Detektivin təxəyyülünün qatilin təxəyyülündən qat-qat üstün olması isə vacib şərtlərdən biridir.

****

Polkovnik və Leytenant Qarayev evin qapısını açıb,həyətə çıxdılar.Həyətdə bir-neçəcavan oğlan oturmuşdu.Görünür,bunlar Polkovnikin Şamxalın otağında axtarış apardığı vaxtda gəlmişdilər.Polkovnik təzə gələnləri bir-bir gözdən keçirdi.Onun gözü həyətdə oturmuş bir cavana sataşdı.O,bu insanı tanıyırdı.Hətta bu adamla polkovnikin qısa söhbəti də olmuşdur.Əyninə qara kurtka,qara cins şalvar geyinən bu oğlanın üzünün qəribə ifadəsi vardı.Gözlərini Şamxalın nənəsinə dikmişdi.Üzünü çevirəndə qapının ağzında dayanan polkovnikin iti baxışlarının ona baxdığını görüb,tez gözünü çəkdi və istər-istəməz həyacanlandı.Qalxıb getmək istədi.Amma tez də fikrindən daşındı.Polkovnikə sarı baxmağa cürət etmirdi.Polkovnik və leytenant Qarayev pilləkandan yavaş-yavaş düşərək adamlara yaxınlaşdılar. Polkovnikin tanıdığı bu cavanın adı Eyvaz Dadaşovdur.Polkovnik ona yaxınlaşsa da,hələlik heçnə demək istəmədi.Dadaşov isə özünü başqa yerə baxan və fikri başqa yerdə olan adam kimi aparırdı.Qəfildən üzünü Qarayev və Polkovnikə çevirdi.Hörmət əlaməti olaraq tez ayağa qalxdı. Eyvaz:

-Şamxal niyə intihar edib?

-Onun intihar edib-etməməsi haqqında dəqiq məlumatı biz belə bilmirik. Heç bilmirəm bu kənddə camaat niyə belə tez qərar çıxarıb onu əlində bayraq edir-Qarayev biraz əsəbləşmişdi.

-Axı onu niyə öldürsünlər ki?Yetim oğlan idi.Dəyirmanda işləməklə hamımızın işinə kömək edirdi.Onun kiminləsə düşmən münasibəti saxladığını eşitməmişik.Açığı o qədər də yaxın deyildik.Amma salam-eleykemiz vardı-Eyvaz sakit-sakit danışırdı.İstəmirdi onun dediklərini Şamxalın nənəsi eşitsin.Polkovnik biraz kənara yeridi.Əlini yenə döş cibinə saldı.Qara siqaret qutusunu çıxartdı.İçindən bir siqaret çıxardıb,damağına qoydu.Alışqanla yandırıb tüstünü ciyərlərinə çəkdi.Hava soyuq olduğundan Polkovnikin ağzının buğu tüstüyə qarışaraq havaya çıxırdı.O,nəsə fikirləşirdi.Qarayev və Eyvaz isə söhbəti davam etdirirdilər.Cəbiyev o qədər də kənarda dayanmamışdı.Ona görə də Eyvazın Qarayevin suallarına verdiyi cavabı eşidirdi.Qarayev:

-Yadına sala bildin?

-Nəyi?-Eyvaz təəccüblə soruşdu.

-Fevralın 23-nü.Gecə saat 11:00-da harda olduğunu.

-Mən axı sizə dedim.Fevralın 23-də marketə siqaret almağa getmişdim. Siqareti alıb evə qayıtdım.Vəssalam.

-Eyvaz,mənimlə oyun oynama-Qarayev dişlərini bir-birinə sıxaraq əsəblə dilləndi.Amma səsi yetərincə aşağı tonda idi.Hətta polkovnik də onların səsini güclə eşidirdi.

-Mən sizinlə oyun oynamıram.

-Qulaq as Eyvaz!Məni uşaq yerinə qoyma.Birinci söhbətimizdə deyəsən mənim üzümü yumşaq görmüsən.Onu bil ki,mən səni rahat buraxmayacaydım.Sadecə olaraq Polkovnik mənə tapşırdı ki,səni çox sıxışdırmayım.Bildin!!!

-Hə bildim.Amma mənim bu kənddə olanlardan heç bir xəbərim yoxdu. Daha doğrusu bu işlərin mənimlə əlaqəsi olmayıb.Mən İlhamı yaxşı birisi kimi tanımışam.-Eyvaz asta-asta danışaraq bu sözləri Qarayeva dedi.

-Deyirsən,İlhamı yaxşı birisi kimi tanımısan?-Qarayev sualedici baxışlarını Eyvazın gözlərinə zillədi.O,artıq özünü polkovnikin yetirməsi kimi hiss edirdi.Bu qısa müddətdə o,Cəbiyevdən çox şey öyrənmişdi.Onu özünə müəllim hesab edirdi.

-Hə elədir.Ondan mənə pislik keçməyib.Heç vaxt.

-Ona görə camaatın içində az qalıbsız ki,bir-birinizi öldürəsiz?

-Başa düşmədi!-Eyvaz tutulmuşdu.O,doğurdan da Qarayevin bu sualının məqsədini və hansı mənada verdiyini bilmirdi.

-Burda başa düşülməməli bir şey yoxdu.İlhamın ölümündən bir müddət əvvəl sənin onunla davan olub.Camaat sizi güclə sakitləşdirib.Əgər ondan sənə bir pislik keçməyibsə və sən onu yaxşı birisi kimi tanıyıbsansa onda bu davaya nə səbəb ola bilər.Deməк belə çıxır ki,səndən ona nəsə bir pislik keçib.

-Mən ona heç bir pislik etməmişəm.Sadecə olaraq anlaşılmazlıq olmuşdu.Sonra barışmışdıq.

-Nə vaxt?-Qarayev sual verdi.

-Elə sabahsı gün.

-Dəqiq?-Qarayev çox ciddi sifət almışdı.

-Hə dəqiq

-Arxamca gəl-Qarayev bu sözləri çox əsəbi dedi.Darvazaya sarı addımlayıb onu açıb  çölə çıxdı.Polkovnik sakitcə siqaretini çəkirdi.Eyvaz Leytenantın arxasınca çölə çıxdı.Qarayev maşına yaxınlaşdı.Qəfildən çevrildi.Əsəbi baxışlarını Dadaşova zillədi.Birdən Qarayev hər iki əliylə Eyvazın yaxasından yapışdı.Onu çevirərək maşına dirədi. Eyvaz:

-Dəli olmusuz? Bu nə hərəkətdir?Əlini çək yaxamdan!

Qarayev:

-Kəs səsini! Deyəsən sizlərin üzünə biraz xoş baxan kimi ayağınız yer alır.Mənlə oyun oynama.Polkovnik olmasaydı inankı dişlərini qarnına tökərdim.

-Mən sizə olanı dedim.

-Yalan deyirsən!-Qarayev səsini yüksəltdi.Eyvaz dartınaraq Leytenantın əlindən qurtulmaq istəsə də onda heç nə alınmırdı.Əksinə Qarayev get-gedə özündən çıxırdı.

-Əl çək məndən-Eyvaz biraz səsini qaldırdı.

-Sən yalandan deyirsən ki,sabahısı İlhamla barışmısan.Onunla barışıb eləməmisən.Mən bunu dəqiq bilirəm-Qarayev Eyvazı sıxışdırdı.

-Düzdür,onu yalan dedim.Amma bu o demək deyil ki,İlhamın ölümündə mən təqsirkar deyiləm.

-Lənətə gələsən de görüm 23-ü gecə saat 11-də harda olmusan?

-Qarayev sənə dedim ki, mənim bu işdə günahım yoxdur.Harda olduğumun isə bu məsələyə heç dəxli yoxdur.

-Dəxli olub-olmadığı aydınlaşacaq.İlhamla dalaşanda dediyin sözlərin arxasında nə dayanırdı?

-Hansı sözün?

-Məni özümdən çıxartma Eyvaz!-Qarayev birazda bağırdı.

-Mən sənin nədən danışdığını bilmirəm.Dava zamanı insan çox söz deyə bilər.Mən onun hamısını əzbərdən biləsi deyiləm ki.

-Sən onda demisən ki,"İlham mən bu işi belə qoymayacağam".Sənin bu sözü deməyini ordakıların hamısı eşidib.İndi mənə de görüm sən hansı işdən danışırdın? Cavab ver!! Tez ol! Yoxsa bu saat başınla şüşəni qırıq-qırıq edəcəm.

-Bilmirəm! Mən heçnə bilmirəm.Get o lənətə gəlmiş qatili başqa yerdə axtar.Qarayev az qalmışdı ki,birdən sağ tərəfdən qalın bir səs eşitdi.

-Qarayev,burax onu.Leytenant çevriləndə yanında Cəbiyevi gördü.Polkovnik çox sakit görünürdü.

Qarayev:

-Polkovnik,bu adam qoy mənə izah etsin görüm fevralın 23-də gecə saat 11-də harda olub? O,dükandan siqaret alıb qayıtmaq üçün uzağı 15 dəqiqə vaxtdan istifadə edə bilərdi.Bu adam 11-ə işləmiş evdən çıxıb saat 23:45-də evə qayıdıb,bəlkə daha gec.Bu qədər vaxtdı o harda ola bilərdi.

-Mən siqaret alandan sonra onu evdə çəkə bilməzdim.Anamın tütün iysinə qarşı allergiyası var.Bir siqaret çəkib birazda hava almaq istədim.Vəssalam.

Polkovnik:

-Qarayev,sən Eyvazı burax getsin.Mən onun harda olduğunu sonra sənə izah edərəm.Hələlik burax getsin.Hər şeyin bir vaxtdı var-Polkovnik irəli yeriyib Eyvazın qolundan tutdu.Onu Qarayevdən kənarlaşdırmaq məqsədi ilə özüylə apardı.Üç-dörd addım yeriyəndən sonra polkovnik Eyvaza dedi:

-Yaxşı olar ki, evə gedəsən-Bunu deyibb geri qayıtdı.Eyvaz isə evlərinə sarı getməyə başladı.Cəbiyev biraz yeriyəndən sonra yenidən çevrildi.

Polkovnik:

-Dadaşov!-Onu arxasınca səsləndi.Bunu eşidən Eyvaz geri çevrildi.Eyvaz:

-Eşidirəm.

-Onu bilki hava almaq üçün fevral ayında saat yarım çöldə qalmağa ehtiyac yoxdur.Polkovnik bu sözləri deyib geri çevrildi.Geri

çevriləndə bir nəfərin darvazadan içəri keçdiyini gördü.Amma tam görə bilmədiyindən onun kimliyini tanımadı.Polkovnik:

-İçəri keçən kim idi?

Qarayev:

-Allahyar.

-Onunla söhbət etmək istəyirəm gedək içəri.Qarayev və Polkovnik darvazanı açıb yenidən içəri daxil oldular.

****

Həyətdəki adamlar demək olar ki,əvvəlkilər idi.Dəyişən bir şey vardı.O da Eyvazın olmaması və Allahyarın həyətdə olması idi.Allahyar bu günkü hadisədən xəbər tutan ilk adam idi.Teymur səhər Şamxalın cəsədini köhnə dəyirmanda görəndən sonra xəbəri camaata çatdırmaq üçün kəndin içərisinə qaçmışdı.Tezdən olduğuna görə onun qarşısına heç kim çıxmırdı.Əslində Teymur gördüyü cəsədin Şamxal olduğunu dəqiq bilmirdi.Amma düşünmüşdü ki, bu ancaq Şamxal ola bilər.O,dəyirmanın içərisinə baxanda yuxarıdan bir insanın asıldığını görmüşdü.Cəsədin üzü o tərəfə baxdığından Teymur Şamxalın üzünü görə bilməmişdi Xəbəri çatdırmaq üçün oradan uzaqlaşmışdı.Kəndin içərisinə girəndə iki ağsaqqaldan başqa keç kimə rast gəlməmişdi.Məsələni həmin kişilər deyəndən sonra onlar dəyirmana tərəf qaçdılar.Gördüyü mənzərə onu qorxutduğundan Teymur həmin kişilərlə dəyirmana qayıtmaq istəməyib havanın tam işıqlanmağını gözləmək istədi.Sonra yolda Allahyarla rastlaşımıdı.Allahyar Teymurun həyəcanlı olduğunu görüb soruşmuşdu:

-Bu vaxtdı hara belə? Sənə nə olub?

-Şamxal özünü öldürüb!-Teymur dili topuq vura-vura demişdi.Eşitdiyi xəbərə təəccüblənən Allahyar:

-Gic-gic sarsaxlama.Şamxal niyə özün öldürür.Deyəsən səhərin yuxusundan ayılmamısan

-Sarsaqlamıram.Tezdən dəyirmanda birinin boğazından asılı olduğunu gördüm.Bu yəqin ki, Şamxaldır

-Ola bilməz.

-Sənə deyirəm ki,öz gözümlə görmüşəm.Artıq bunu iki nəfərə demişəm.Onlar elə indi ora qaçdılar.

-Yox, bu Şamxal ola bilməz.Mən bu saat...Allahyar bunu deyib ölənin Şamxal olub-olmadığını dəqiqləşdirmək üçün Şamxalın evinə qaçmışdır.

****

Polkovnik və Qarayev həyətə daxil oldular.Həyətə daxil olanda Allahyar həyətdə oturmuşdu.Polkovnik yavaş-yavaş addımlayaraq ona yaxınlaşdı.Allahyara onu görən kimi tez ayağa qalxdı və soruşdu:

-Siz nəsə öyrənə bildiniz? Onun ölümü intihardır?

-Olar biraz kənarda söhbət edək? Sizə bir neçə sualım var.

-Olar-Allahyar cavab verdi.

Polkovnik Allahyarla birlikdə kənara çəkildi.Cəbiyev yenidən əlini döş cibinə saldı.Qara rəngli siqaret qutusunu çıxardıb içindən bir siqaret götürdü.

Polkovnik:

-Çəkirsiz?

-Arada çəkirəm,amma indi ürəyim istəmir.

Cəbiyev siqareti alışqanla yandırıb dərindən bir tüstü aldıqdan sonra Allahyardan soruşdu:

-Bugünki xəbəri kimdən eşitmisən?

-Teymurdan

-Saat neçə olardı?

-Dəqiq bilmirəm.Amma hava hələ tam işıqlaşmamışdı.

-O vaxtdı nə yaxşı kəndin içində olmusuz?

-Rayona gedəcəkdim.

-Maşınla?

-Hə.

-Öz maşınınla?

-Yox dayımın.

-Onda siz əvvəlcə dayınızgilə getməliydiniz?

-Hə.Elə onlara gedəndə Teymurla rastlaşdım.

-Siz xəbəri eşidəndə ilk öncə nə etdiniz?

-Teymuru orda qoyub Şamxalgilə qaçdım.

-Niyə bəs Şamxalgilin evinə?-Polkovnik suallarını sərbəst şəkildə verirdi.

-Teymur mənə xəbər verəndə dedi ki,o cəsədin Şamxal olub-olmadığına əmin deyil.Mən dəqiqləşdirmək məqsədi ilə bura qaçmışdım.Həm də həmin an çox həyəcanlı idim.Eşitdiyim xəbər məni çox sarsıtmışdı.

-Yəqin darvazanı möhkəm açmış olardız?

-Orası yadımda deyil.

-Birbaşa evə daxil oldunuz?

-İçəri girib Şamxalın nənəsini çağırdım.O,deyəsən yatmışdı.Mənim səsimə oyanmışdı.Evin ortasında onunla rastlaşdım.Elə məni görən kimi dedi ki,Şamxal evdə yoxdur.Bir də soruşdu ki,səhər-səhər xeyir ola?

-Siz,ona hadisəni dediniz?-Polkovnik soruşdu.

-Dedim.Tez də oradan uzaqlaşıb dəyirmana qaçdım.

-Yazıq arvadı o vəziyyətdə qoyub qaçdınız?

-Mən bildim ki, bu xəbər ona pis təsir edəcək.Demək istəmirdim.Qəfil ağzımdan qaçırdım.Sonra gördüm ki,onun düşdüyü hala baxa bilməyəcəm.Dedim birazdan qonşular gələr və onu sakitləşdirərlər.mən isə tez dəyirmana qaçdım.

-Siz Şamxalın otağına girmədiniz?

-Yox.Mənim orda nə işim var.Nənəsi dedi də,o evdə yoxdur...Allahyar yenə nəsə demək istəyirdi ki,cib telefonu zəng çaldı.Əlini cibinə salıb telefonunu çıxartdı.Gələn zəngə baxıb adboy verdi.Sonra yenidən telefonunu cibinə qoydu.

-Siz onda evə bir dəfə girmisiniz,Şamxalın nənəsi ilə söhbətdən sonra qayıdıb çıxıb getmisiniz dəyirmana?

-Bəli.Mən evə bir dəfə girib çıxmışam.Nolubki?

-Darvazadan çıxanda ətrafda kimisə görmədiniz?

-Xeyir görmədim.

-Yaxşı Allahyar,gedə bilərsən,amma səninlə işimiz qurtarmadı.

-Mən heç yerə getmirəm.Nə sualınız olsa verərsiniz-Allahyar bu sözü deyib çevrildi və həyətdəki adamların yanına getdi.Polkovnik yenidən əllərini döş cibinə salıb qara siqaret qutusundan bir siqaret götürüb damağına qoydu,alışqanla yandırıb dərindən bir tüstü aldı.Ayaqlarını qatlayıb aşağı əyildi.Siqaret çəkə-çəkə gözlərini yerə zillədi.Onun göz qapaqları azacıq aşağı enmişdi.Qarayev Polkovnikin yanına gəldi.Qarayev nədənsə çox əsəbi görsənirdi

Qarayev:

Gərək o əclafın başını əzməyimə icazə verərdin.

-Kimin?-Polkovnik Qarayevin üzünə baxmadan soruşdu.

-Kimi olacaq,o,əclafın.Eyvazı deyirəm.Mənim bacıoğlumu da,bu yazıq Şamxalı da o öldürüb.

-Nolubki?

-Şamxalın telefonunu azərceldə yoxlatdırıblar.Ona axırıncı dəfə zəng edən Eyvaz olub.Özü də gecə saat 02:00-da.Əclafın biri əclaf!

-Dayan görək,çox tələsmə.Hardan öyrəndi məlumatı?

-Baş müstəntiq Əlizadə zəng vurmuşdu.O, artıq Eyvazın arxasınca adam yollayıb.

-O telefonu mənim üçün müstəntiqdən ala bilərsən?-Polkovnik soruşdu.

-Nəyinizə lazımdır?

-İstəyirəm onu mən də yoxlatdıram.

-Polkovnik,biz onsuz da Eyvazdan şübhələnmişdik.İndi də əlimizdə sübut var.Qoy o əclaf bizə iki şeyi izah etsin.Desin görək fevralın 23-də gecə saat 11-də harada olub.Onu da izah etsin görək gecə saat 2-də Şamxala niyə zəng vurub.Şamxalın nənəsi də deyir ki, Şamxal məhz evdən saat 2-də çıxıb.

-Sən o telefonu ala bilərsən,ya yox?-Polkovnik hövsələdən çıxırdı.

-Yaxşı alaram.Problem deyil.Çalışaram elə bu gün alam.

-Oldu.Gedək.Burda qalmağın bir mənası yoxdur.

“Şamxalın gündəliyindən”

Sən xoşbəxtsən.Bunu bilirəm və acı çəkirəm.Amma elə bilmə ki,mənim acı çəkməyimin səbəbi sənin xoşbəxtliyindir.Bəlkə də bu yazını oxusan,məndən soruşardın ki,niyə acı çəkirsən? Mən bu suala cavab tapa bilməzdim.Bilmirəm! Cavab verməyə gücüm çatmır.Sevgi...İlk baxışdan mənə gülünc görünən bir hiss.Məktəbdə demək olar ki,dostlarımın əksəriyyəti mənə sevgidən danışanda həmişə gülərdilər. Heç vaxt inanmazdım ki, mən də kimisə sevə bilərəm.Bağlana bilərəm. Amma bu oldu.Mən səni sevdim.Lakin bilirdim ki, bu sevginin xoşbəxt nəticəsi heç vaxt ola bilməz.Təmiz ürəklə kimisə sevmək böyük risk tələb edir.Əgər o sevgi alınmasa,bax onda o yükü qaldırmaq çox çətindir. Bilirsən mənim bədbəxtliyim nədir? Qoy deyim biləsən.Mən səni həqiqətən sevirəm.Bunu kimsəyə sübut etmək mənə lazım deyil.Özüm bilirəmsə,bəsimdir.Səni təmiz ürəklə sevdim və elə o gündən o sevginin arxasınca dayanmadan qaçdım.Ona çata bilməyəcəyimi bilə-bilə qaçdım. Artıq dərk eləmişəm ki,mən ona çata bilməyəcəm.Geri qayıtmaq lazımdır.Qayıtmaq istəyəndə isə alınmadı...

İllər keçdi.....Səndən qalan izləri,
Qəlbimdən çıxardıb atmıram hələ.
Gör məni nə qədər geriyə atdın,
O vaxtdan qaçıram,çatmıram hələ.

Görünür, mən mümkün olmayan sevginin arxasınca o qədər qaçmışam ki,ona çata bilməyəndən sonra qayıdıb özümə çata

bilmirəm. Bacarmıram! Mən əvvəlki kimi olmaq istəyirəm.Əvvəlki düşüncədə qalmaq istəyirəm.İstəmirəm gecələr səni düşünüb yatam.İstəyirəm yatağıma uzanan kimi yuxu məni aparsın.Bir də tezdən oyanım.Mən ümidsiz yaşamaq istəmirəm.Ancaq ümidsiz günlər məndən əl çəkmir.

Qurtarıb getmədi ümidsiz günlər
Yenə də döydü qapımı mənim
Açmadım,başıma gətirdi nələr.
Sakitcə durmuşkən çoxaldı qəmim

Lənətə gələsən sən axı necə varlıqsan ki,səni unutmaq olmur?.Sən axı kimsən? Sən də mənim kimi bir insansan.Hamı kimi sənin də əllərin, ayaqların,barmaqların,burnun,qulağın,gözlərin var.Axı səndə nə varki mən sənə bu qədər bağlanmışam? Sənin yoxluğun niyə hər şeydə əskiklik yaradır?.Niyə?...Son vaxtlar hiss edirəm ki,həyatımın son günlərini yaşayıram.Ölümümə bəlkə də çox az qalıb.Görəsən,mən öləndən sonra yenə əzab çəkəcəm?Yəqin ki,yox.Kaş ki ölümümdən əvvəl bircə dəfə də olsun səni görə bilərdim.Onda bəlkə də,rahat ölə bildim......O gün yenə də yuxuma gəlmişdin.Amma bu səfər tək idin.Yanında heç kim yox idi.Harasa gedirdin.Yol ikimizin də tanıdığımız yol idi.Həmişə o yol adamlarla dolu olardı.Amma bu səfər orda heç kəs yox idi.Elə bil dünyada bir sən idin,bir də mən.Arxanca yeridim.Sənə çata bilmirdim.Çox Sürətlə hərəkət edirdin.Həmin an mənim hansı hisslər keçirdiyimi bilirsən?Yox bilmirsən!O yuxudan ayılmaq belə mənimçün dəhşət idi.....

O gecə yenə də yuxuma gəldin, Yeridim arxanca,çata
bilmədim. Qəfildən oyandım ,baxdım otağa
O gecə bir daha yata bilmədim, .

Yadındadı,uşaq vaxtı sən,İlham və mən kağızdan gəmi düzəldib,kəndə axan balaca arxda yarışardıq.Kimin düzəltdiyi kağız gəmi birinci olaraq çatsaydı o da qalib gəlirdi.Amma o yarışda heç birimiz qalib gələ bilmədik.Birinci olaraq İlhamın düzəltdiyi kağız gəmi su ilə doldu və aşdı. Daha sonra isə mənim düzəltdiyim kağız gəmi su ilə doldu və aşdı.Başımız öz gəmimizə qarışdığından,sonradan sənin düzəltdiyin kağız gəminin üzərək hara getdiyini heç birimiz bilmədik.Bəlkə də həmin hadisə bizim həyatımızı,gələcək həyatımıza işarə idi.Birinci İlhamın kağız gəmisi batdı,həyatdan da birinci İlham köçdü.Yəqin indi də növbə mənimdi.Sənin isə bizdən sonra hara getdiyini nə İlham biləcək,nə də Şamxal biləcək.Biz bu həyatdan nakam getsək də,sən xoşbəxt ol.Biz?Heç bilmirəm niyə bu qədər əminəm ki,mən öləcəm.O fevralın 23-nü lənətə gəlsin.Kaş həmin gün evdən çölə çıxanda ayaqlarım sınardı.Ora getməzdim.Ora getməsəydim indi İlham sağ idi.Bəlkə də,o səni xoşbəxt edə bilərdi.Mən axı niyə belə iş tutdum.Mən ki artıq öz qismətimlə barışmışdım.Bəs necə oldu ki,mən belə bir işin olmasına şərait yaratdım. Başqası da mənim ucabatımdan indi ömrünün axrına kimi vicdan əzabı çəkəcək.Hər şeydə günahkar mənəm.Gərək İlham üstümə gələndə oradan qaçıb uzaqlaşardım.Amma gör əvəzində mən neylədim?İki nəfərin həyatını korladım.Mən heç vaxt istəməzdim belə olsun.İlhamı vurmaq istəmirdim,sadecə olaraq ona hər şeyi izah etmək istəyirdim.O isə mənim üstümə atıldı.Məni vurmağa,təhqir etməyə başladı.Mənim başqa çarəm yox idi.Kaş zamanı geri qaytara bilərdim..............................
..........................................................................................................
..........................................................................................................
.............

****

Polkovnik Rəsul Cəbiyev Şamxalın dəftərini öz balaca portfelinə qoyub ayağa durdu.Baş vermiş qətldən 5 gün keçmişdi.Bu beş günün ərzində Polkovnik bütün dəlilləri və şahidləri nəzərdən keçirdi.Hələ Şamxal ölməmişdən əvvəl Bakıya göndərdiyi şəkillər və adlar haqqında ətraflı məlumat topladı.Cəbiyev eyni zamanda Usta Səfərin vaxtilə qonşusu olan Səyyadın nəyə görə qəfildən kənddən köçməsini də öyrənmişdi. Qarayev Polkovnikin istədiyini yerinə yetirdi.Şamxalın ölümündə təqsirli bilinən Eyvaz Dadaşovun həmin gecə nəyə görə Şamxala zəng etməsi məsələsi də araşdırıldı.Eyvaz istintaq zamanı bildirmişdi ki,Şamxal ölən gecə telefon onun özündə olmayıb.Buna səbəb olaraq isə demişdi ki, telefonunu iki gün olar ki,itirib.Amma Baş müstəntiq Əlizadə və Qarayev ona inanmamışdılar.Ona görə də Eyvazı həqiqəti deyənə kimi müvəqqəti kamerada saxlayırdılar.Polkovnik Qarayevin vasitəsilə Şamxalın üstündən tapılan mobil telefonu əldə etmişdir.Baş müstəntiq Əlizadə buna görəbir neçə dəfə Qarayevə acıqlanmışdı.Polkovnik Şamxalın telefonunu ətraflı yoxlatdırdıqdan sonra hər şey aydın oldu.Cəbiyev qatilin kimliyini öyrəndi.Eyni zamanda bu iki qətlin hansı səbəbdən törədildiyini də müəyyənləşdirdi.Polkovnik bu gün axşam Bakıya qayıtmaq istəyirdi.Daha doğrusu qayıdacaqdı!.Çünki artıq biletini almışdı .Amma Qarayevin Polkovnikin axşam qatarı ilə Bakıya qayıdacağını bilmirdi.Cəbiyev Şamxalın gündəliyini oxuyub portfelinə qoyandan sonra o biri otağa keçdi.Qarayev stolda Selcanla əyləşib söhbət edirdi.Leytenant işə getməyə hazırlaşmışdı.Polkovnikin gəldiyini görüb tez ayağa qalxdı.Qarayev:

-Siz harasa getmək istiyirsiz?-Qarayev polkovnikin geyimindən anladı ki,o,harasa getmək üçün hazırlaşıb.

-Qarayev,mən axşam qatarıyla Bakıya qayıdacam.

-Bakıya qayıdacaqsız?-Qarayev təəccüblə soruşdu.

-Nəsə olub Bakıda?-Selcan qardaşına tərəf baxıb soruşdu.O,sevimli qardaşının getməsini heç istəməzdi.Bu bir neçə müddət ərzində ona öyrəşmişdi.Neçə il olardı ki,qardaşıyla belə uzun müddət bir yerdə olmamışdılar.

-Hə.Artıq mənim getmək vaxtımdır.-Polkovnik üzünü Selcana tutub cavab verdi.

-Bəs bu hadisələr necə olsun?-Leytenant soruşdu.

-Qarayev,mən artıq bu işin üstünü açmışam.Qatilin kimliyini də dəqiq bilirəm.

-Kimdi?-Qarayev irəli yeriyərək soruşdu.

-Kim eliyib bütün bunları?-Selcan leytenantın ardınca soruşdu.

-Gedək bölməyə orada söhbət edərik.Gərək bütün bunları Rayon prokurorluğu və eləcə də Əlizadə bilsin.Orada mən hər şeyi əvvəldən axıra kimi nə olduğunu danışacam.Ondan sonrası qalır sizin boynunuza- polkovnik Qarayevin gözlərinə baxaraq bu sözləri dedi.

-Elə bu dəqiqə gedək-Qarayev cavab verdi.

-Mən bilmədim axı?-Selcan dedi.

-Sən biz qayıdanda bilərsən!-Qarayev bunu deyib Polkovniklə birlikdə evdən çıxdı.

"Polkovnik Qatilin adını çəkdi"

Əlizadə öz kabinetində əyləşmişdi.Gözlərini qarşısında əyləşən iki nəfərə dikmişdi.Biraz səbrsizlənirdi.O,artıq bu iki nəfərin nəyə görə onun qarşısında əyləşdiyini bilirdi.Bu iki nəfər Polkovnik Rəsul Cəbiyev və Leytenant Qarayev idi.Cəbiyevin bu işi araşdırması Baş Müstəntiq Əlizadəni əsəbləşdirsə də o,polkovnikə həmişə böyük rəğbət hissi ilə yanaşırdı.Əlizadə Polkovniki üzbəüz çox da yaxşı tanımasa da onun haqqında çox eşitmişdi.Müstəntiq:

-Polkovnik,bu hadisələr başımızı elə qarışdırdı ki,sizin kimi hörmətli bir insanla aağıllı-başlı söhbət etmədik.Bəlkə də siz fikirləşirsiniz ki,sizin bura gəlməyinizi biz istəməmişdik.İnanın ki,belə deyil.Mən həmişə istəmişəm ki,sizin kimi insanlar bizim rayona gəlib qonağımız olsun.Ada-ildə bir dəfə gədiniz,onu da bu hadisələr qoymadı görək nə edək.Bizim prokurorluq sizə həmişə böyük hörmətlə yanaşıb.Xahiş edirəm bu axşam Qarayevlə bizim evə buyurasız.İstiyirəm sakitlikdə əyləşib bir az söhbət edək.polkovnik:

-Yox çox sağolun.Mən bu axşam qatarla Bakıya qayıtmaq istəyirəm.

-Bax bu çox pis oldu.Soruşmaq ayıb olmasın,sizin kimi hörmətli bir adam niyə qatarla gedib-gəlir?

-Mən qatarla getməyə həmişə üstünlük vermişəm.

-Lap yaxşı  polkovnik.Yaxşı yol.

Qarayev bu söhbətdən səbirsizlənib,dedi:

-Yoldaş müstəntiq,Cəbiyev baş vermiş bu iki  ölüm işinin üstünü açıb.O, bunu danışmaq üçün bura gəlib.Qarayevin bu sözlərindən

sonra Əlizadənin sifət mimikası dəyişdi.Yavaş-yavaş qalxdı.Gözlərini Polkovnikə zillədi.Mestəntiq:

-Demək polkovnik,bu iki ölüm hadisəsi intihar deyil?

-Xeyr!Burda heçbir intihar olmuyub.İlhamı da,Şamxalı da öldürüblər!

-Kim eliyib bunları polkovnik?-Əlizadə təəccüblənmişdi.

-Xahiş edirəm,əyləşin.-polkovnik Əlizadəni ayaq üstə dayandığını görüb dedi.Müstəntiq yavaş-yavaş əyləşdi.Müstəntiq:

-Eşidirəm sizi!Siz necə öyrəndiniz onların intihar etmədiyini.?

Polkovnik:

-Mən sizə hər şeyi əvvəldən axıra kimi necə var elə də danışacam.

-Eşidirik sizi-Əlizadə bütün diqqətiylə polkovnikə  baxaraq dedi.

Polkovnik sözə başladı:

Mən bura sizə məlum olduğu kimi,Qarayevin xahişı ilə gəlmişdim.Onda ortada bir ölüm hadisəsi vardı.İlham Quluyevin ölümü.Leytenant mənə bildirdi ki,İlhamın cəsədi tibbi ekspertizadan keçən zaman məlum olub ki,onunun başının arxa hissəsində zədə qeydə alınıb.Amma bu zədə izini Usta Səfərə heçkim deməyib.Bura gələndə öyrəndim ki,Tibbi ekspertizaya rəhbərliyi Səlim Cəfərzadə edib.Demək məlum faktı Cəfərzadə gizlədib.Məni ilk şübhəyə salan da,bu oldu.Axı nəyə görə bu zədə izi gizlədilsin?İlham Qarabağ kanalına yıxılandan sonra 150 metr su ilə üzərək irəli gedib.Onun cəsədi körpüdən 150 metr irəlidə tapılıb. Cəfərzadə onu gizlətmək

əvəzinə deyə bilərdi ki,bu zədə İlham suda qaldığı müddətdə olub.Onun başı harasa dəyib illham öləndən sonra,ya da elə özünü körpüdən atanda dəyib.Amma Cəfərzadə bunu etməyib.Zədə faktını səbəbsiz yerə gizlədib.Bunun səbəbi bir müddət nənə müəmmalı göründü.Sonra mən cəsədi ilk tapan Əhmədalıyla söhbət etdim.Ondan xahiş etdim ki,bizi həmin körpünün yanına aparsın.Biz körpünün yanına gedəndən sonra mən körpünün hər tərəfinə göz gəzdirdim.Elə orada məndə şübhələr yaranmağa başladı.Körpünün yan dəmirləri bir az qabağa əyilmişdi.Sanki nəsə özünü həmin dəmir qoruyuculara çırpmışdı və bu da dəmirlərin irəliyə doğru əyilməsinə səbəb olmuşdu.Qoruyucu dəmirlərin həmin vəziyyətdə irəli çıxması məni bir az şübhələndirsə də, bu hələ heçnə demək deyildi.Mən körpünün digər hissəsinə diqqət yetirəndə gördüm ki,körpünün bu hissəsində hər şey qaydasındadı.Heç bir dəmir əyilməsinə rast gəlmədim.Sonra mən Usta Səfərin evinə getdim.Onunla söhbətimdən sonra məlum oldu ki,İlham fevralın 23-də gecə saat 22:30 radələrində evə gəlib,ancaq çox çəkmədən geri qayıdıb. Söhbət zamanı o da məlum oldu ki,İlham öz otağına daxil olandan sonra ona zəng gəlib.Ona kimin zəng elədiyini heç kəs bilmiyib.Heç nə danışdığı da eşidilməyib.Telefonun zəng səsini Güllü xanım mətbəxtdə olarkən eşidib.Lakin İlhamın kiminlə danışdığını eşitməyib.Zəngdən sonra İlham evdən çıxıb və gecə evə qayıtmayıb.Atasıgil də elə bilib ki,o,əmisigildə qalıb.Çünki İlham çox vaxt onlarda qalarmış.Mən fürsətdən istifadə edib evi gözdən keçirtdim.Birinci olaraq İlhamın otağına daxil oldum.Oranı gözdən keçirəndən sonra balaca dolab kimi,yeri gördüm.Öyrənəndən sonra bildim ki,İlham bəzi əşyalarını bu balaca bağlı yerdə saxlıyarmış.Oranın qapısı açarla bağlı olduğundan mən Qarayevdən xahiş etdim ki,açarları gətirsin.Bu zaman Güllü xanım dedi ki,açarlar Səyidənin- İlhamın bacısının otağındadır.Qarayev otağa açarı gətirməyə getdi.Bu zaman otağa Səyidə daxil oldu.Mən ondan

İlham evə gələn zaman onun harada olduğunu soruşdum.O,isə cavab verdi ki,öz otağında kitab oxuyurmuş.Sonra Səyidədən soruşdum ki,Anan deyir,İlham otağa daxil olanda onun telefonuna zəng gəlib.Soruşdum sən də zəng səsini eşitmisən?O,isə əminliklə cavab verdi ki,eşidib.Sonra Qarayev otağa daxil oldu.O,gec qayıtmışdı.Mən ondan nəyə görə gec qayıtdığını soruşanda o,mənə cavab verdi ki,otaqda olanda ona sizdən zəng gəlib.Polkovnik bunu deyib Əlizadənin üzünə baxdı.Müstəntiq:

-Hə ola bilər.Burda nə varki?

Polkovnik davam etdi:Məsələ orasındadır ki,Qarayevə zəng o,Səyidənin otağında olanda gəlib.

-Bununla nə demək istəyirsiz?-Qarayev soruşdu.Söhbətin gedişi onu qorxudurdu.Polkovnik:

-Sizə zəng gələndə mən İlhamın otağında idim və sizin telefonunuzun zəng səsini eşitmədim.Səyidə bəs həmin gün İlhamın telefonunun zəngini necə eşidib.?Axı o,mənə əminliklə dedi ki,anası kimi o da İlhamın telefonunun zəng səsini eşidib.Demək onda belə çıxırdı ki,ya Səyidə nəyisə gizlədir,ya da anası.

Qarayev:

-Polkovnik,yoxsa demək istəyirsiz ki,İlhamın ölümündə ya Səyidənin,ya da onun anasının əli var?

-Qarayev,mən hələ heçnə deməmişəm.Biraz səbriniz olsun.İcazə verin sözümü bitirim

-Davam edin polkovnik-deyə Əlizadə dilləndi.

Polkovnik:

Mən açarları alıb,balaca şkafı açdım.Ordan iki şəkil çıxdı.Biri İlhamın dostlarının,biri isə onun gələcək nişanlısının.Mən şəkilləri yerinə qoyduqdan sonra otaqda fırlandım.Zəng məsələsi hələ də mənə qaranlıq qalmışdı.Ona görə qərara gəldim ki,hər şeyi dəqiqləşdirim.Otaqdakı pəncərəyə yaxınlaşdım.Gizlincə telefonumda zəngli saatı qardum.Telefon iki dəqiqədən sonra zəng çalmalıydı.Telefonu gizlincə pəncərənin ağzına qoydum.Sonra Səyidədən onun otağına getmək istədiyimi söylədim.O da etiraz etmədi.Mən onun otağına daxil oldum. Bütün diqqətim qolumdakı saatda idi.Mən iki dəqiqənin gəlib çatmasını gözləyirdim.Telefon mənim qurduğa əsasən iki dəqiqədən sonra zəng çalmalı,bir dəqiqədən sonra dayanmalı,daha bir dəqiqəkeçdikdən sonra yenidən zəng çalmalı idi.Nəhayət,gözlədiyim iki dəqiqə keçdi.Amma mən heç bir telefon zəngi eşitmirdim.Deməli Səyidə mənə yalan ifadə verib. Mən növbəti iki dəqiqə çatana kimi o otağı gözdən keçirdim.Səyidənin otağında üzü bağa baxan pəncərə vardı.Pəncərə yaxınlaşdım.Onu açıb ətrafa boylandım.Daha sonra aşağı baxdım.Pəncərənin aşağısında,yəni yerdə ayaq izləri vardı.Amma təzə ayaq izləri deyildi.Çökəkliyi dərin olduğuna görə bu izlər yox olmamışdı.Biraz kənardan baxanda hiss olunmazdı.Polkovnik üzünü Qarayeva tutub soruşdu:

-Dəyirmanda dediyim sözlər yadınızdadı?

Onzuzda söhbətin gedişinin təsirində olan Qarayev özündə deyildi.Bu saat o,heçnə yadına sala bilmirdi.Qarayev:

-Siz orda çox şey danışmışdınız.Hansını dediyinizi bilmirəm.

-Mən onda sizə dedim ki,birinci dəfədir ki,bir işi araşdıranda"oxşar" izlərə rast gəlirəm.Yadınızdadırsa biz dəyirmanda da çökəkliyi dərin olan ayaq izlərinə rast gəldik.Orda o izləri kimsə yuxarıdan-dəyirmanın pəncərəsindən tullananda salmışdı.Usta Səfərin evində də kimsə Səyidənin otağının pəncərəsindən tullananda o izləri salmışdı.Amma həmin izlər başqa-başqa adamlara məxsus izlərdir.Mən Səyidənin otağından çıxdıqdan sonra mətbəxtə getdim.Güllü xanımın dediyinə görə İlham otağa girəndə o,mətbəxtdə olub.Telefonun zəngini də mətbəxtdə olanda eşitdiyini söyləmişdi.Mən mətbəxtdə fırlanıb,növbəti telefon zəngini gözlədim.Nəhayət,mən öz telefonumun səsini eşitdim. Qarayev:

-Bu mənim də yadımdadır.

Polkovnik qısa fasilədən sonra davam etdi.Deməк məlum oldu ki,Güllü xanım həmin günü mətbəxtdə olanda həqiqətən də telefon zəngini eşidib.Amma Səyidə heç bir zəng səsi eşitməyib.Mənə maraqlı gəldi ki, Səyidə zəng səsini eşitmədiyi halda niyə yalandan deyir ki,eşidib.Bu bir müddət mənimçün qaranlıq qaldı.Daha sonra mən İlhamın dostları Allahyar və Şamxalla söhbət etdim.Allahyar mənə dedi ki,fevralın 23-də gecə saat 22:00-dan 12-yə kimi öz evlərində olub.Həmin gün anasının doğum günü imiş.Allahyar eyni zamanda söylədi ki,həmin günü,yəni fevralın 23-də Şamxal da onunla olub.Allahyar Fərəcovla söhbətdən sonra Şamxalın evinə getdik.Şamxal Əsədov mənimlə söhbət etdiyi zaman çox həyacanlanırdı.Nədənsə bərk qorxurdu.Söhbət zamanı mən ona fevralın 23-də gecə saat 23:00-da harada olduğunu soruşdum.O,isə mənə Allahyargildə olduğunu söylədi.Allahyarla Şamxalın dedikləri üst-üstə düşürdü.Mən orda olanda Şamxalın ehtiyyatsız hərəkəti nəticəsində mühüm bir faktı aşkarladım.Şamxal stolun üstündəki dəftəri bilmədən yerə saldı.Dəftərin arasından iki şəkil yerə düşdü.Şəkillərdən biri üzüaşağı düşdüyünə görə onu görə

bilmədim.Digərini isə gördüm.Şəkildəki qız idi.Mən o qızı tanıdım.Çünki o qızı Usta Səfərin evində görmüşdüm.Qarayev:-Səyidəni??

-Yox. -

Bəs kim?Siz onu hardan tanıdınız?-Qarayev soruşdu. -

Siz davam edin polkovnik-deyə Əlizadə dilləndi.Polkovnik: -

Mənim gördüyüm şəkildəki qızla İlhamın otağında gördüyüm şəkildəki qız eyni qız idi.İlhamın gələcək nişanlısının şəkli Şamxalın dəftərinin arasından çıxdı.Şamxal tez şəkli götürüb,dəftərin arasına qoydu.Dəftəri isə şkafda gizlətdi.Mən sonradan anladım ki,Şamxal İlhamın nişanlısını dəlicəsinə sevirmiş.Lakin bunu heç kimə bildirmirmiş.Sonrakı araşdırmalarda Eyvaz Dadaşovla söhbət etməli oldum.Fevralı 23-də Eyvaz siqaret almaq məqsədilə marketə gedib.Market çox yaxında olub. Marketdə işləyən satıcıdan biz bu barədə soruşduq.Onun ifadəsindən məlum oldu ki,fevralın 23-də gecə saat 22:15 radələrində Eyvaz həqiqətən marketdən siqaret alaraq çıxmışdır.Lakin evə çox gec qayıdıb. Bu vaxt ərzində harada olduğunu onunla əsaslandırır ki,güya siqareti evdə çəkə bilmədiyinə görə çöldə həm hava alırmış,həm də siqaret çəkirmiş.Amma bu o qədərdə inandırıcı səslənmir.Daha sonra öyrəndim ki,İlham ölümündən üç gün əvvəl Eyvazla hansısa səbəbdən dava edib.Camaat onları aralaşdırandan sonra Eyvaz deyib ki,”İlham mən bu məsələni belə qoymayacam”Onun hansı məsələdən danışdığını biz hələ ki,bilmirdik.Amma mən təxmini izə düşmüşdüm.Sonra mən təsadüfən orta məktəbə gedib,Habil müəllimlə söhbət etdim.Yaxşı ki,bunu etmişəm.Habil müəllim bu işdə mənə özüdə bilmədən çox böyük köməklik göstərdi.Yəqin Habil müəllimi tanıyırsız?-Polkovnik soruşdu. Müstəntiq:-Bəli tanıyırıq.Bələdiyyənin sədri Qabil Fərəcovun qardaşıdı.Allahyarın əmisidi.Dayanmayın davam edin.Hər şeyi ardıcıllıqla necə araşdırmısınızsa bizim heçnədən xəbərimiz olmayıb.Davam edin.

Polkovnik  yenidən davam etmək üçün sözə başladı.

Habil müəllimin bu il Seyidəli adında bir oğlu beyn xərçəngindən dünyasını dəyişmişdi.Onun oğlunun dəfninə nə Qabil Fərəcovun özü,nə də onun oğlu Allahyar gəlmişdir.Bunu mənə Habil müəllimin özü dedi.Onda mənə bir şey şübhəli gəldi.Eşitdiyimə görə İlhamın ölüm xəbərini eşidəndən sonra Qabil Fərəcov başsağlığı üçün Usta Səfərin qapısınacan gedib. Allahyar isə İlhamın ölümündən sonra o qapıdan əl çəkmir.Nə iş oldu kömək edir.Elə Fərəcovun özü də əlindən gələn köməyi Usta Səfərdən əsirgəməyib.Bu necə ola bilər ki,doğma qardaşının yeganə övladı ölə,amma sən onun qapısını belə açmayasan,ona dəstək olub,kömək etmiyəsən,başsağlığı vermiyəsən.Yad birinin qapısınacan gedib,onaköməklik göstərəsən.Əgər elə ürəyi yumşaqsansa birinci elə doğma qardaşına kömək elədə.Allahyar əmisioğlu öləndə Habil müəllimin qapısına belə ayağını atmayıb.İndi isə Usta Səfərin  qapısında canfəşanlıq edir.Demək,burda başqa məsələ var.Hətta Habil müəllim Allahyarla İlhamın dostluğuna da inanmadı.Onun dediyinə görə Allahyar İlham ölən günə qədər bir dəfə də olsun Usta Səfərin həyətinə girməyib.İndi gün hardan çıxdı ki,Allahyar o qapıdan əl çəkmir.Habil müəllimdən onu da öyrəndim ki,Qabil Fərəcov kənddə və rayonda bir neçə nəfərə kömək edib.Mən Fərəcovun yardım etdiyi adamları kimliyini soruşdum.Məlum oldu  ki,Fərəcov kənddə İsmətin arvadı Samirəyə,rəhmətlik Suğra arvadın nəvəsi Minəxanıma və rayonda bir neçə qadına köməklik göstərib.Mənə birinci maraqlı gəldi ki,Fərəcov ancaq qadınlara və qızlara köməklik edir,özü də ya əri öləndən sonra tək qalmış qadına,ya da boşanmışlara,ya da ki atılmış qızlara.Sonra Habil müəllimdən Allahyar haqqında bir-neçə söz soruşdum.Öyrəndim ki,Allahyar bir müddət Usta Səfərin qonşuluğundakı Səyyadın qızıyla bir-birini istiyiblər.Daha sonra hansısa səbəbdən Səyyad kənddən köçüb

getmişdi.Qızını isə özüylə aparmışdır.Mən Fərəcovun köməklik göstərdiyi o qadınların və qızların adını öyrəndim.Şəkillərini çətin də olsa əldə etdikdən sonra onları Bakıya yolladım.Bakıdakı dostum Kazım Qafarlıdan xahiş etdim ki,bu qadınların orada nə işlə məşğul olduqlarını öyrənib mənə bildirsin.Eyni zamanda Qabil Fərəcovun Bakıda nə işlə məşğul olduğunu öyrənməyi də Qafarlıdan xahiş etmişdim.Üstündən bir müddət keçdikdən sonra Qafarlı mənə zəng vurub öyrəndiklərini dedi.Məlum oldu ki,İsmətin arvadı Samirənin adı dəyişdirilərək Dubaya satılmışdır.İndiyənə qədər də ondan xəbər yoxdur.Minəxanımı isə barda tapıblar.Fərəcov görünür,onlara köməyi belə edirmiş.

-Alçaq!Mənim bələdiyyəmə bax!-Müstəntiq əlin stola vuraraq dedi.Onun sözünə qüvvət olaraq,Qarayev də fikrini bildirdi. – Mənim elə əvvəldən ondan gözüm su içmirdi.Əclaflığa bax! -Siz davam edin Polkovnik!-Əlizadə polkovnikə baxıb dedi. Polkovnik:

-Qabil Fərəcovun gördüyü bütün işləri araşdırandan sonra ortaya bir çox faktlar çıxdı.Habil müəllimlə etdiyim söhbətdən sonra artıq məndə şübhə yaranmışdı ki,Fərəcovun İlhamın ölümüylə nəsə əlaqəsi var.Məhkəmə tibb ekspertizasının əsas nümayəndəsi olan Səlim Cəfərzadə məhz Fərəcovun tapşırığı ilə müayinənin bəzi faktlarını Usta Səfərdən və bütün Rayon prokurorluğundan gizlətmişdi.Deməli,Qabil Fərəcovun məqsədi o olub ki,İlhamın müəmmalı ölümünü intihar adıyla tezliklə bağlayıb,yenidən Bakıya qayıdaraq öz çirkin əməlləriylə məşğul olsun.Fərəcovun bu ölüm işinin intihar olmasını sübut etmək üçün dəridən-qabıqdan çıxması aydın şəkildə görsədir ki,onun bu işlə birbaşa əlaqəsi var və o,kimisə qorumaq üçün bu işə baş qoşub.Qabil Fərəcov özü qatil ola bilməz,çünki fevralın 23-də o,burda olmuyub,Bakıda olub.Həm də ki,həmişə səliqəli kostyumda,qalstuq taxmış”Bələdiyyə sədri”nin kimisə gecə saat 23:00-da körpü üstünə çağırıb,sonradan onunla

dalaşaraq körpüdən kanala tullaması biraz məntiqə uyğun deyil.Onda belə çıxırdı ki,yaİlhamı öldürmək üçün Fərəcov adam tutub, ya da qatil kimdirsə ona yaxın birisidi və o da onu qorumaq üçün intihara meylli fikirləri sübüta yetirməyə çalışıb,təbiiki bu işdə ona Məhkəmə tibb ekspertizasını əsas nümüyəndəsi Səlim Cəfərzadə köməklik göstərib.Mən Fərəcovun İlhamı öldürmək üçün adam tutduğuna inanmadığıma görə,daha çox qatilin Fərəcova yaxın birisinin olması fikrinin üstündə qalırdım.Bir maraqlı məsələ də vardır ki,rayon yerində "Bələdiyyə sədri"vəsifəsi o qədər də yüksək vəsifə deyil.Səlim Cəfərzadə də heç də balaca adam deyildi.Amma olanlar Səlim Cəfərzadənin Fərəcovun əlaltısı olduğunu gəstərir. Demək,Cəfərzadənin özünün də bu işlərdə əli olub.Ona görə o hər həmlədə İlhamın intihar etməsi faktını sübuta yetirməyə çalışıb.Əgər Leytenant Qarayev olmasaydı,Cəfərzadə böyük ehtimal ki,bunu edəcəkdi.Qarayev cəld tərpənib və Cəfərzadənin gizlətdiyi faktı üzə çıxarıb.Daha sonra Şamxal Əsədovun ölüm xəbərini eşitdim.Dəyirmanda ilkin təhqiqatı Qarayevlə mən apardım.Əvvəlcə dəyirmanın içini,daha sonra Şamxalın otağını gözdən keçirtdim.Eyvazla söhbət etdim.Allahyarın ifadəsini aldım. Həmin təhqiqat və söhbətlərdn sonra mənim şübhələrim özünü doğrultdu.Mən artıq qatili tapmışdım.Qatil doğurdan da Qabil Fərəcovun yaxını imiş -Kim?- Əlizadə cəld soruşdu. -O alçaq kimdi?-Əlizadənin ardınca Qarayev dilləndi.

Polkovnik:

-Şübhə altında əsasən üç nəfər vardı..Eyvaz Dadaşov.Şamxal Əsədov və Allahyar Fərəcov.Amma mən daha çox Allahyar Fərəcovdan şübhələnirdim.Lakin Allahyar Fərəcov birinci ifadə zamanı demişdi ki,fevralın 23-də gecə saat 23:00-da öz evində olub. Şamxal Əsədovun da onunla olmasını demişdi.Şamxal özü də ifadə zamanı Allahyarın dediklərini təsdiq etdi.Allahyar mənimlə danışan

zaman özünü çox sərbəst aparırdı.Daha doğrusu çalışırdı..Amma Şamxalın ifadə zamanı qorxması və həyəcanlanması onu göstərirdi ki,o,nəyisə bilir,deməyə qorxur.Mən Şamxalla görüşəndə onun dodağında yara izi vardı.Yara onu göstərirdi ki,ya o,nədənsə bərk qorxub,ya da kiminləsə bərk davası olub.O,mənə dedi ki,bir gün əvvəl dəyirmandan çıxanda qorxub.Amma bu heç də inandırıcı deyildi.Çünki onun dodağındakı yara bir günün yarasına bənzəmirdi .Şamxalın ölümündən sonra mən yenidən Allahyar Fərəcovdan şübhələndim.Allahyar Şamxalı məcbur etmişdi ki,polisə yalan ifadə verərək,fevralın 23-də onun evində olduğunu desin.Onların hər ikisi ifadə zamanı dedilər ki,fevralın 23-də Allahyargildə olublar.Əslində isə fevralın 23-də onların heç biri Fərəcovun evində olmayıblar.Onlar həmin gecə doğurdan da bir yerdə olublar,ancaq tamam başqa yerdə.Artıq mən qəti olaraq bilirdim ki,fevralın 23-də İlham Quluyevi Qarabağ kanalına tullayan və Şamxal əsədovu köhnə dəyirmanda öldürən Allahyar Fərəcov olmuşdur
-Polkovnik,bəs siz hardan bildiniz ki,Şamxal Əsədov intihar etmiyib.?-Əlizadə rahat şəkildə soruşdu.Çünki artıq qatilin kimliyini bilirdi.
Polkovnik:
-Birincisi dəyirmanın qapısına asılan qıfıldan şübhələndim.Biz Qarayevlə birlikdə dəyirmana daxil olanda açarlar həmin qıfılın üstündə qalmışdı.Bu da onu göstərirdi ki,həmin gecə Şamxal dəyirmana uzunmüddətə gəlmiyib.Sadecə 5 dəqiqəyə içəridən nəyisə götürüb çıxacaqmış.O,dəyirmana tək gəlmiyib.Allahyar da onunla imiş.Dəyirmana Allahyar da Şamxalla birlikdə daxil olub.Lakin nə Allahyar girdiyi qapıdan geri qayıdıb,nə Şamxal öz ayağıyla dəyirmanda çıxıb.İçəridə mənim gözümə Şamxalın asıldığı ip sataşdı.Cəsədin boğaz nahiyəsini gözdən keçirdəndən sonra gördüm ki,o,bu iplə boğulmayıb.Dərinin sıxılma hissəsi qızarmışdı.Lakin çoz nazik qızartı izi idi.Yuxarıdan sallanan ip isə

çox qalın idi. Eyni zamanda,mən qızartıya zərrəbinlə baxdıqda sıxılaraq qızarmış dəridə paslı simin pas qırıntılarına rast gəldim.Mən həmin paslı simi içəridə nə qədər axtarsam da tapa bilmədim.Yəqin onu hər ehtimala görə özüylə aparmağa qərara gəlib.Paslı simi Allahyarın özüylə ora gətirməsini,ya da içəridən götürməsini dəqiqləşdirə bilməsəm də onu dəqiq bilirdim ki,Allahyar Şamxalı paslı simlə boğazından tutaraq,boğub öldürmüşdür.Daha sonra ipi cəsədin boğazına bağlayaraq yuxarı qaldırıb və bacardıqca hər şeyi intihara oxşatmağa çalışıb.Dəyirmanda mənim gözümə balaca taxta tabletka stulun kənarda aşaraq qalması sataşdı.Əgər Şamxal özünü asmaq məqsədilə ayağının altına həmin stulu qoymuşdusa,onda o tabletkanın aşaraq o qədər kənara getməsi heç ağlabatan deyil. Birinci stulun oturacaq hissəsi dördkünc fiqurunda idi.Yer isə yumşaq və nəm idi.Şamxal asılan zaman həmin tabletka aşmalıydı.Amma o qədər kənara gedə bilməzdi.Həmin stulu Şamxalın ayağının altına Allahyar qoyub.Çünki,onun əsas məqsədi hər şeyi intihara bənzətmək idi.Stulu Şamxalın ayağının altına qoyur,sonra isə onu təpiklə vuraraq cəsədin ayağının altından çıxardır.Lakin stulun normadan artıq kənara düşməsini nəzərə almağı unudur.Sonra mən içəridə daha bir izə rast gəldim.Bu, kənarda Taxtanın üstünə düşmüş iz idi.İz onu göstərirdi ki,bura telefona bənzər əşya qoyulub və həmin əşya uzunmüddət orda qaldığına görə o,götürüləndən sonra həmin yerdə onun izi qalmışdır.Sonra mən dəqiqləşdirdim ki,həmin naməlum əşya telefon olub.Özü də Allahyar Fərəcovun telefonu.Qatil cinayəti törədəndən sonra taxta fanerkayla örtülmüş pəncərədən tullanaraq dəyirmandan çıxmışdır.Onun taxta fanerkayla örtülmüş pəncərədən çıxmasını uzunmüddət içəridə dəqiqləşdirə bilmirdim.Çünki kənardan baxanda açıq-aydın görsənirdi ki,həmin fanerka ora mismarlarla bərkidilib.Lakin pəncərənin aşağısında yerə aşmış dəmir çəllək

göstərirdi ki,Allahyar məhz buradan çıxıb.Mən dəmir çəlləyi düzəldib üstünə çıxdım və həmin an məlum oldu ki,fanerkaya vurulan mismarlar onu heç yerə bərkitmir.Onların hamısı sadecə olaraq boşluğa vurulmuşdu.Qatilin bunu fikirləşib etdiyinə inanmıram.

Bəlkə də o,hər şeyi əvvəlcədən planlaşdırıbmış.Amma bir şeyi dəqiq bilirəm ki,Allahyar həmin gün dəyirmana gəlməyində əsas məqsəd Şamxalı öldürmək olub.O,dəyirmanın qapısını içəridən bağlayır və pəncərədən aşağı tullanaraq oradan uzaqlaşır.Pəncərədn tullanan zaman çökəkliyi dərin olan ayaq izini torpağa salır.Hətta dərin çökəkliyi olan ayaqqabı izinin içində bir-iki dənə buğda dənəsi də vardır.Bu buğda dənələri Allahyarın ayaqqabısının altına o,içəridə olanda yapışıb.Buğdalar sonradan mənə çox kömək etdi. Sonradan sizin dediyinizə görə Şamxalın telefonu cibindən aşkarlanaraq götürülmüşdür.Allahyar həmin günü qəsdən Şamxalın telefonunu özüylə aparmamışdır.Bunun səbəbini mən sonradan anladım.Birazdan bu haqda danışacam.İndi isə Şamxalın evində nədən şübhələndiyimi sizə danışmaq istəyirəm.Birinci ondan şübhələndim ki,Allahyar Şamxalın ölüm xəbərini dəqiqləşdirmək üçün onun yaşadığı evin qapısını açırsa,onda məntiqlə yanaşdıqda həmin an darvazanın səsi bərkdən çıxmalıdır.Lakin qonşunun dediyinə görə o,heç bir səs eşitmiyib.Heç eşidə də bilməzdi.Çünki, Allahyar həmin darvazanı qaça-qaça gələrək açıb,içəri daxil olmamışdı.Əksinə,o,darvazanı çox ehtiyyatla açaraq içəri daxil olmuşdu.Bunu ona görə etmişdi ki,səs çıxarmasın.Onun ifadəsinə görə o,evə bircə dəfə daxil olub,xəbəri dəqiqləşdirib və oradan çıxaraq dəyirmana qaçıb.Allahyarın verdiyi bu ifadə ağ yalandan başqa bir şey deyildi.Əslində Allahyar o evdə Şamxalın nənəsiylə etdiyi söhbətdən əvvəl artıq bir dəfə olmuşdu.Allahyar Şamxalın

nənəsiylə rastlaşanda o,artıq ikinci dəfə idi o evə daxil olmuşdu.Birinci dəfə evə daxil olanda Şamxalın nənəsi yatılı olduğundan bunu bilmir,Allahyar yavaş-yavaş addımlayaraq Şamxalın otağına daxil olur.Otaqda Şamxalın dəftərini tapır və onun son vərəqinə yazılmış məktubu cırıb götürür.Bu vaxt görür ki, dəftərin birinci vərəqi də qopmaq üzrədir.Şübhə qalmasın deyə həmin vərəqi də qopardır.Mən bunu həmin dəftərin sayından bildim .Bir də mən birinci dəfə Şamxalla o otaqda görüşəndə o,ehtiyyatsızlıq edib,dəftəri yerə salmışdı.Mən dəftərin birinci vərəqini görmüşdüm.Orada cümlənin "Tənhalıq mənim dostumdur" ifadəsi ilə başladığı mənim yadımda qalmışdı.Amma bu səfər dəftəri gözdən keçirəndə gördüm ki,birinci vərəq yerində deyil.Çünki,həmin səhifəni Allahyar özüylə aparmışdır.Həmin otaqda mən daha bir şübhəli məqamla rastlaşdım.Bu,yarımçıq ayaq izləri idi.Yəni,qatil içəridə ayaqqabısının burnuyla hərəkət edərək səs çıxarmamağa çalışırmış.Lakin bu zaman Allahyarın bütün bədən ağrlığı ayaq pəcələrinin üzərinə düşdüyünə görə ayaqqabının burun hissəsi döşəməyə bərk sıxılaraq orada iz qoymuşdur.O,bunu Şamxalın nənəsinin yuxudan oyanmaması üçün edib.Qatilin ən böyük səhvi pilləkanlarla yuxarı qalxdığı vaxt buraxdığı səhv olub. Mən evin qapısının ağzındakı dördpilləli daş pilləkanın ikinci pilləsində ayaqqabı altından qopan yaş torpaq parçasına rast gəldim.Bu balaca palçıq məhz Allahyarın ayaqqabısının altından çıxmışdı.O,pilləkanı ikinci dəfə yalandan qaçaraq çıxmaq istəyəndə nəm torpaq parçası onun ayaqqabısından qoparaq daşın tininə ilişmişdi.Bu nəm torpağın tərkibində buğda dənəsi vardı.Bir neçə buğda dənəsi.Deməli bu onu görsədir ki,Allahyar Şamxalın evinə gəlməmişdən qabaq dəyirmanda olub.Özünün deməyinə görə isə o, xəbəri Teymurdan eşidib və birbaşa Şamxalın evinə gəlib.Bəs onda onun ayaqqabısının altında səhər-səhər nəyə görə buğda dənələri olmalıdır?Deməli,həmin gecə Allahyar dəyirmanda olub.O,ifadə

zamanı mənə bildirdi ki,cəmi bir dəfə evə daxil olub və çıxıb.Mən onunla söhbət etdiyim zaman onun ayaqqabıları diqqətimi cəlb etdi.Tapdığım bütün ayaq izləri bu ayaqqabıya uyğun gəlirdi.Bu ayaqqabıya uyğun gələn ayaq izləri pilləkanda vardı və onların sayı onu görsədirdi ki,Allahyar o evə bir dəfə yox,iki dəfə daxil olub.Bunlardan əlavə onunla söhbət etdiyim zaman onun mobil telefonuna zəng gələndə mən onun telefonunu gördüm və bildim ki, dəyirmandakı telefon izi məhz Allahyarın işlətdiyi telefonun uzunluğuna və eninə tam uyğundur.Allahyar bizim Eyvaz Dadaşovdan şübhələndiyimizi çox gözəl bilirdi və bundan da istifadə etməklə təhlükəni özündən tam uzaqlaşdırmaq istəyib.Dadaşovun dediyinə görə o,telefonunu itirib.Əslində isə itirməyib.Telefonu müəmmalı şəkildə yoxa çıxıb.Daha doğrusu Allahyar oğurlayıb.Eyvaz isə elə bilib ki,telefonunu itirib.Telefon bir müddət sönlü qalıb.Eyvazın telefonundan gecə saat 2-də Şamxala zəng gəlib.Amma zəng vuran Eyvaz olmayıb.Allahyar olub.Allahyar hər şeyi əvvəlcədən planlaşdırıb.Qətldən bir gün əvvəl Allahyar dəyirmana-Şamxalın yanına gedib.Bir az keçəndən sonra Allahyar qəsdən öz sönmüş telefonunu içəridəki taxtanın üstünə qoyur.Telefonun orda qaldığını Şamxal görmür.Səhərisi günü gecə saat ikidə Allahyar Eyvazdan oğurladığı telefonu açır və Şamxala zəng vurur.Şamxal da telefonu açanda Allahyar ona bildirir ki,dünən telefonu dəyirmanda unudub.Mümkündürsə indi gedib götürmələrini ondan xahış edir.Şamxal isə ona bildirir ki,çox gecdi,tezdən götürməyi məsləhət görür.Amma Allahyar əl çəkmir.Telefonuna vacib zəng gələcəyini bəhanə edərək,Şamxalı yola gətirir.Onlar birlikdə dəyirmana gedirlər.Qıfılı açan Şamxal tez qayıdacaqlarını düşünüb açarı heç qıfıldan çıxarmır.Amma yazıq bilmirdi ki,o,içəridən nə tez qayıdacaq,nə də gec.Ümumiyyətlə o,qayıtmayacaq.İçəri girən kimi Allahyar qəfildən Şamxalın üstünə atılaraq onu paslı simlə boğmağa başlayır.Qatil boyca Şamxaldan

hündür,çəkicə ağır,qol baxımından daha qüvvətli olduğuna görə Şamxal ona müqavimət göstərə bilmiyib və Allahyarın əlində boğularaq ölür.Sonra isə danışdıqlarımı edərək oradan uzaqlaşır.O, Şamxalın telefonunu qəsdən onun cibindən götürmür.Düşünür ki,birdən sübut olunar ki,Şamxal intihar etmiyib.Qoy onda da şübhə altına Eyvaz Dadaşov alınsın.Çünki sonuncu zəng ona Dadaşovun telefonundan gəlib.Bundan əlavə Allahyar Şamxalın otağında dəftəri də qəsdən məhv etməmişdi ki,çünki o dəftərdə yazılanlar sübut edirdi ki,Şamxal İlhamın gələcək nışanlısını dəli kimi sevirmiş.Yəqin elə İlhamı da Şamxal öldürüb.Ona görə öldürüb ki,qızı rahatlıqla ələ keçirsin.Lakin İlhamı öldürəndən sonra vicdan əzabı çəkib və bu əzabdan qurtulmaq üçün özünü asıb.Allahyar o qədər də ağılsız deyilmiş.Yəqin bütün bunları atasından öyrənib.Mən onunla ilk dəfə rastlaşanda hiss etdim ki,bu insan ancaq xarici görünüşcə insandır.Daxili isə murdar iblisdi.
Əlizadə:
-Polkovnik,Allahyar nəyə görə İlhamı və Şamxalı öldürüb?Axı burda bir səbəb olmalıdır.
Palkovnik Cəbiyev:
-Haqlısınız Cənab Müstəntiq.Səbəbsiz heçnə olmur.Allahyar Usta Səfərin qonşuluğundakı Səyyadın qızı ilə bir-birlərini "sevirmişlər" Qız isə uşaqlıqdan İlhamla bir yerdə böyümüşdülər.İlham onu öz balaca bacısı kimi çox istəyirdi.İlhama həmişə "qardaşım" deyərdi. Allahyar atasının "qadın alveri"ilə məşğul olduğunu çox gözəl bilirdi.Qabil Fərəcovun Bakıda hansısa bir şirkətlə iş birliyi qurduğu haqqında eşitmisiz.Amma o şirkətin əslində necə bir şirkət olduğunu bu rayonda heç kəs bilmir.Mən Bakıdakı dostum Qafarlının vasitəsilə öyrəndim ki,Qabil Fərəcov neçə illərdir ki,gizli şəkildə"qadın alveri" ilə məşğuldur.Bunu rayonda heç kəs bilmirmiş.Daha sonra Allahyarın səhvi ucbatından İlham bunu öyrənir.Allahyar Səyyadın qızına heç vaxt ciddi münasibət

bəsləməyib.Sadecə bu qızın cazibədarlığı onu dəli edirmiş.O,qızla yatmaq üçün elə bir ümid qalmır ki,qıza verməsin.Yazıq qız isə onu həqiqətən sevirmiş və inanırmış.Allahyar neçə dəfə həmin qızla cinsi əlaqədə olmağa cəhd etsə də,qız buna razı olmur.Nəhayət bir gün qız evdə tək olanda Allahyar Səyyadın evinə gəlir.Söhbət əsnasında qıza bildirir ki,onunla yatmaq istiyir.Qız isə həmişəki kimi Allahyara etiraz edir.Allahyar bundan çox əsəbləşir və qızı məcbur soyundurur və öz qadını edir.Bakirəliyini itirmiş qız dəfələrlə Allahyardan xahiş edir ki,onunla evlənsin.Amma Allahyarın onunla evlənmək fikri olmur.Məcbur olub hər şeyi atasına danışır.Oğlunun etdiyi hərəkət Fərəcovu hiddətləndirsə də ona heçnə etmir.Bir gün o qız yenə evdə tək olanda Allahyar onun yanına gəlir və qıza bildirir ki,tezliklə onunla evlənəcək.Eşitdiyi sözlərdən çox sevinən qız özünü unudaraq yenidən Allahyara təslim olur.Sonra Allahyarın telefonuna zəng gəlir.Zəng vuran onun atası Fərəcov olur.Danışmaq üçün mətbəxtə keçən Allahyar İlhamın evə necə daxil olduğunu görmür.İlham isə özü də bilmədən Allahyarın atasıyla telefon danışığını eşidir.Allahyarın aşağı tonla dediyi sözlər İlhamı dəhşətə gətirir.Allahyarın atasıyla söhbətindən məlum olur ki,Allahyar Qabil Fərəcovun tapşırığı ilə o qıza onunla evlənəcəyini deyir.Məqsədləri isə bu olub ki,Allahyar o qızla evlənib Bakıya köçəcək və bir müddətdən sonra xaricilərə satacaqlar.İlham bunları eşidəndə özünü saxlaya bilmiyib mətbəxtə keçərək Allahyarı yumruqla vurur.Bərk davaları olur.Allahyar böyük səhv etdiyini bilir.Atasının gizli işlərinin üstünü açacağından qorxur.İlhamdan xahiş edir ki,bunu kimsənin yanında deməsin.O vaxtdan sonra Allahyar elə hər yerdə bir həmlə gəzirdi ki,İlhamı öldürsün.İlham isə Allahyara bildirmişdi ki,əgər bu qıza bir də yaxınlaşsa hər şeyi polisə xəbər verəcək.Daha sonra işə Qabil Fərəcov qarışır.Səyyada zəng vurub onu hədələyir və kənddən çıxıb getməsini tələb edir.Bir müddətdən sonra Səyyad evini də sataraq kənddən köçür.O vaxtdan

ondan heç bir xəbər yox imiş.Kənddə İlhamla Allahyarın bir yerdə gəzdiyinə görə onları bir-birinə dost hesab edirmişlər.Əslində isə İlhamın həmişə Allahyardan zəhləsi gedib.Allahyar qəsdən onun yanından əl çəkmirdi.Hər dəfə də ona tapşırırdı ki,ağzını möhkəm saxlasın.Amma içindəki qorxu hissi onu günü-gündən məhv edirdi. Əgər bu xəbəri kiməsə desəydi onda Fərəcov oğlu olmasına baxmayaraq Allahyarın dərisini soyardı.Daha sonra Şamxalın İlhamın nişanlısını dəlicəsinə sevdiyini öyrəndi və bundan istifadə etməyə çalışırdı.Şamxalı həmişə bu məsələdə sancırdı .İstiyirdi Şamxal İlhamı özünə düşmən bilsin.Məqsədi isə İlhamı Şamxalın əliylə öldürmək idi.Bunu bir-iki dəfə sözgəlişi Şamxala bildirmişdi. Amma Şamxal həmişə deyirdi ki,"İlhamı düşmən gözündə görmür, sadecə bir bəladı başıma gəlib.Mən onun nişanlısını sevsəm də ömrümün axrına kimi susacam.Şamxalın belə danışığı Allahyarı həmişə acıqlandırırdı.Bir müddətdən sonra Allahyar Şamxaldan bir hərəkət görməyərək özü hərəkətə keçir.Fevralın 23-də gecə saat 22:30-da İlhama zəng vuraraq onu Qarabağ kanalının üstündəki körpünün yanına çağırır və təcili işi olduğunu deyir.Daha sonra Allahyar sonradan onu ələ verəcək bir işi görür.İlhamdan sonra Şamxala zəng vurur.Mən Qarayevdən xahiş etmişdim ki,Şamxalın telefonunu mənimçün əldə etsin.Allahyar o telefonu Şamxalın cibində saxlamaqla bütün şübhələri Eyvazın üstünə yönəltmək istiyirdi.Amma onun ağlına gəlməmişdi ki,Cəbiyev həmin telefona fevralın 23-də gecə saat 22:30-da kimin zəng etdiyini öyrənə bilər. Mən o telefonu Qarayevdən məhz o məqsədlə almaq istiyirdim ki,görüm fevralın 23-də gecə Şamxala kimdən zəng gəlib.Telefonu yoxlatdırandan sonra məlum oldu ki,fevralın 23-də gecə saat 22:30 radələrində Şamxalın telefonuna Allahyarın nömrəsindən zəng gəlib və onlar üç dəqiqəyə yaxın telefonla danışıblar.Allahyar isə öz ifadəsində bildirmişdi ki,bütün gecəni Şamxalla birlikdə öz evində olub.Bir evdə ola-ola bunlar telefonla niyə danışsınlar ki? Demək

belə çıxır ki,həmin gecə nə Allahyar evdə olub,nə də Şamxal.Onlar sadəcə bir-birlərini qorumaq üçün yalan ifadə veriblər.Fevralın 23-də gecə saat 22:45 radələrində Allahyar,İlham və Şamxal körpünün üstündə görüşüblər.Söhbət əsnasında Allahyar İlhama Şamxalın onun nişanlısını istəməyini deyib.Hələ bildirib ki,onun nişanlısının şəkli Şamxalın otağını bəziyir.Məsələni daha da dramatikləşdirmək üçün Allahyar özündən bir neçə şey də uydurur.Eşitdiyi xəbərdən çox əsəbləşən İlham Şamxalın yaxasından yapışaraq hər şeyin doğru olub-olmadığını ondan soruşur.Şamxal isə məcbur olub hər şeyi etiraf edir.İlham Şamxalı yerə yıxır.Bərk davaları olur.Şamxal İlhamın altından birtəhər çıxıb ayağa qalxır.Lakin İlham onun üstünə yenidən atılaraq Şamxalı körpünün dəmirlərinə çırpır.Allahyar istəyir ki, Şamxal onu körpüdən aşağı atsın,ya da əksinə İlham onu.Allahyarın məqsədi o olur ki,nə yolla olursa olsun bu gecə İlhamdan canını qurtarsın.O,artıq qərarını vermişdi.İlham bu gecə ya torpaq altına,ya da dörd divar arasına getməli idi.Şamxal dava zamanı ancaq özünü qorumaqla məşğul olub.Axırda Allahyar görür ki,Şamxal İlhama heç nə edə bilməyəcək və hər şeyi özü etmək qərarına gəlir.Yerdən əlinin içi boyda daş parçasını götürür.Yaxınlaşıb İlhamın başının arxasından qüvvətli zərbə ilə vurur.Aldığı zərbənin təsirindən İlham müvazinətini itirir və körpüdən birbaş suya yıxılır.Axın çox güclü olduğundan və gecə zülmətindən İlhamı suya yıxılandan sonra görmək mümkün olmur.Baş vermiş hadisənin təsirindən Şamxal özünə gələ bilmir,hər şeyin həqiqət olduğuna inanmır.Allahyar isə ağır-ağır nəfəs alaraq kənarda dayanmışdı.Həmin gecə İlhamın son gecəsi olur.Səhər saat 7:45-ə kimi,yəni Çoban Əhmədalı onu tapana kimi İlhamın cəsədi bütün gecəni buz kimi suda qalır.Allahyar Şamxala bildirir ki,guya o qorxub ki,İlham Şamxalı suya atar.Aralaşdırmaq istəyib,nəticədə İlhamı öldürüb.O,özünü elə aparıb ki,guya bu hadisədə qurbandı.Həmin  günün axşamı Allahyar olanları atasına

bildirir.Atası Fərəcov da elə gecə ikən öz əlaltısı Səlim Cəfərzadəyə zəng vurur.Daha sonra özü də kəndə gələrək hər şeyə nəzarət etmək istəyib.Sən demə Cəfərzadə özü də Fərəcovla birlikdə “qadın alver”i ilə məşğul olurmuş.Hadisədən sonra Şamxal günlərlə özünə gələ bilmiyib.Nəhayət hər şeyi məktuba yazaraq polisə verməyi qərara alır.Məktubu isə həmin gündəliyin arxasına yazır.Son vərəqinə.Son vərəqinə yazmaqla artıq hər şeyin sona yetdiyini bildirmək istəyirmiş.Amma Şamxal bu məktub haqqında Allahyara deməklə öz ölüm kağızına qol atmış olur.Allahyar Şamxalı susdurmağa məcbur olur.Şamxalı öldürəndən sonra Allahyar onun otağından o məktubu tapır və özüylə apararaq məhv edir.İndi qaldı Eyvazın məsələsi.Eyvaz Dadaşovun bu məsələdə heç bir günahı yoxdur.Eyvaz fevralın 23-də doğurdan da siqaret almaq üçün marketə gedir.Amma marketdən çıxandan sonra evə qayıtmır,nə də bir yerdə gəzmir.O,birbaşa Usta Səfərin bağına gedir.Eyvaz və Səyidə bir-birlərini sevirmişlər.Fevralın 23-də İlham evə qayıdan zaman,yəni saat 22:30-da Səyidə öz otağında olmuyub.O,həmin vaxt  bağda Eyvazla söhbət edirmiş.Səyidə pəncərədən tullanan zaman yerə ayaq izləri düşmüşdür.İlhamla Eyvazın davası da məhz bu məsələ üstündə düşüb.Davadan sonra Eyvaz ona deyib ki,”Mən bu məsələni belə qoymayacam”.Eyvaz belə deməklə İlhama bildirib ki,sizin qapıya elçi yolluyacam.Lakin bir müddətdən sonra Eyvazın atası Usta Səfərə baş sağlığı vermək üçün o qapıya gedir.Mənim deyəcəklərim bu qədər Cənab Müstəntiq

Əlizadə:

-Cənab Polkovnik, bu işdə bizə etdiyiniz kömǝkliyə görə bütün bölməmiz adından sizə dərin təşəkkürümü bildirirəm.Doğrudan da,böyük əziyyət çəkməli olmusunuz.Belə dolaşıq cinayət işini açmaq bizim üçün çox çətin olacaqdı. Sizə söz verirəm bu işdə əli olanların hamısı ədalət məhkəməsində cavab verəcək.

Polkovnik:

-Mən buna

heç şübhə etmirəm Cənab Müstəntiq! Qarayev:

-Mən də bacım və eyni zamanda Usta Səfərin ailəsi adından sizə öz təşəkkürümü bildirirəm.Sağolun ki,mənim sözümü yerə salmadınız.İndi mən bilirəm o alçaqların başına nə oyun gətirəcəm.Fərəcovların bu kənddən ayağını kəsməyi sizə söz verirəm .

Polkovnik:

-Mən sadəcə olaraq həqiqəti üzə çıxartdım.Ola bilsin ki,siz Cəfərzadə,Allahyar və Fərəcov kimi insanları ilk dəfədir ki,görürsüz.Mən isə xəfiyyə olduğum müddətdə o qədər Cəfərzadələr,o qədər Allahyarlar,o qədər Fərəcovlar görmüşəm ki.Allahyar heç olmasa öz adından çəkinib o işləri görməzdi.Onun adı "Allahyar"olmalı deyildi.Onun adı "İblis","Şeytan","Qatil" olmalıdır.

"Epiloq"

Axşam saat 23:00-da qatar stansiyadan səs sala-sala yola düşdü.Polkovnik Rəsul Cəbiyev qatarın şüşəsindən çölə baxırdı.O,bu yerlərdən yenidən uzaqlaşırdı.Bir də Allah bilir nə vaxt geri qayıdacaqdı.Bəlkə bir də qayıtmıyacaqdı.Yox bəlkə bacısını görmək üçün Leytenant Qarayevi və dostu Habil müəllimi görmək üçün qayıdardı.Hələlik isə getməli idi.Tənha qalacaqdı yenə.Amma bu onu narahat etmirdi.Şamxalın gündəliyində oxuduğu bir cümlə Cəbiyevin diqqətini cəlb etmişdi."Tənhalıq mənim dostumdur".İndi Polkovnik düşünürdü ki, bəlkə də Şamxal haqlı imiş.Mən indi Bakıdakı tənha otağıma daxil olmaq üçün tələsirəm.Çünki orda məni dostum gözləyir."Tənhalıq" adında dostum gözləyir məni.Şamxal təmiz insan idi.O,həqiqətən sevirdi.Onun məhəbbəti saf məhəbbət idi.Ona görə o, Allahyar kimi iblisin sözünə uymadı.Allahyarın daxilindəki murdarlıq Şamxalın

daxilindəki məhəbbətə qalib gələ bilmədi.İlham və Şamxal çox tez əbədiyyətə qovuşub bu həyatdan köçsələr də onlar həmişə xatırlanacaqlar.Allahyar isə heç vaxt həyata niyə gəlib niyə getdiyini bilməyəcək.Şamxal cinayət törətmədi.Çünki həqiqi məhəbbət heç vaxt cinayət törətməz.Cinayəti törədən pozğun xislətdir,ağılsız ehtirasdır,şəhvətdir,pula hərislikdir,korlanmış mənəviyyatdır,satılmış ruhdur,çirkabla dolu bədəndir,daim pis baxan gözlərdir,yalandır,böhtandır,ləyaqətsizlikdir,şərəfsizlikdir, tərbiyəsizlikdir,əxlaqsızlıqdır,murdarlıqdır,birinin ayağının altını qazmaqdır,başqasının kədərinə gülməkdir,satqınlıqdır,yaltaqlıqdır, vəhşilikdir....Polkovnik artıq bunları unutmaq istəyirdi.İndi bəlkə də Qabil Fərəcov istintaqdan yaxasını qurtarıb yenidən insanların mənəviyyatını pozmaqla məşğul olacaq.Birdəki,təkcə Fərəcovun tutulması ilə dünya təmizlənsəydi nə vardı ki.Nə isə....Sözün bitdiyi yer bu olsa daha yaxşıdır.

Beyləqan – Sumqayıt 2015

Avqust-noyabr

## AFORİZMLƏR

1.Söyləmək mümkün olmayan başqa bir şey də vardır,lakin onu danışmaq üçün həm zaman,həm məkan,həm də dost lazımdır(C.Rumi)

2.Açıqca nifrət etmək,yalançı bir tərif etməkdən daha hörmətə layiqdir (F.Dostoyevski)

3.Bütün bədbəxtliklər yoxluqdan deyil,çoxluqdan gəlir.(L.Tolstoy)

4.Ey dostlar,candan və qəlbdən olmayan dilin söylədiyi gözəl sözlər zibillikdə yetişən yaşıllıq kimidir.O yaşıllıq yeməyə və qoxulamağa yaramır.Ey oğul,ona uzaqdan bax və keç.(C.Rumi)

5.Əslində insana ən çox əzab verən şey xəyal qırıqlığı deyil ,mümkün olduğu halda baş vermiyən sevinclərdir.(F.Dostoyevski)

6.”Qartal”qonduğu budağın qırılmağından heç vaxt qorxmaz,çünki, güvəndiyi budaq deyil,Qanadlarıdı.

7.Ləyaqətsizlərdən intiqam alınmaz,çünki,onlar “ləyaqətsiz”adını daşımaqla çoxdan cəzalanıblar.

8.Yalnız uşaqlıq arzularının həyata keçməsi xoşbəxtlik gətirə bilər.(Z.Freyd)

9.Hər şeydən öncə yaxşı insan olaq,ondan sonra xoşbəxt olarıq.(Jan Jak Russo)

10.Əyyaşlığın sonu yorğunluq və səfalət,səfalətin sonu isə heçlik və fəlakətdir.(A.Şaiq)

11.Ey igid,ağıl şəhvətin ziddidir,kim şəhvət əsiridirsə,ona ağıllı demə.

12.Qəlbin qırılması qabırğanın qırılmasına bənzər,zahirən heçnə bilinməz,amma hər nəfəs aldıqda acı verər.(B.Vahabzadə)

13.Rəsm rəssamı necə anlaya bilər ki,ona bütün qüdrəti verən Rəssamdır(C.Rumi)

14.Həqiqi məhəbbətlə kimisə sevib ona bağlanmaq böyük risk tələb edir.

15.Bütün xoşbəxt ailələr bir-birinə bənzər,bədbəxt ailələrin isə hərəsi bir cürə bədbəxtdir.(L.Tolstoy)

15.Heç bir şey gec gələn xoşbəxtlik qədər pis və incidici ola bilməz..(İ.S.Turgenov)

16.Yarını itirən qurd sıxıntıdan ölür,lakin heç vaxt Xəyanət etmir.Bəziləri isə yarına xəyanət edərək onu öldürür.

17.Ölümdən qorxanın iki səbəbi ola bilər:Ya sığınacaq bir Rəbbi yoxdur,ya da bu dünyaya çox bağlıdır.(Hz.Yusif)

18.Eşq müqəddəsdir,çirkli könüllərdə yuva qurmaz.(Hz.Yusif)

19.Mən də sizin kimi qorxuların niyə gecələr hökm sürdüyünün səbəblərini düşünürdüm.İyirmi il düşündükdən sonra qorxuların qaranlıqdan doğmadığını anladım;qorxular da ulduzlar kimi həmişə oradadırlar,amma gün işığı onları gizləyir(Nitşe)

20.Optimizm mücərrəd anlayışdır,Pessimizm isə realdır.(Volter)

21.Heç kim sənin dalğalarla necə boğuşduğuna baxmaz.Gəmini sahilə çatdırıb çatdırmadığına baxar.(V.Hüqo)

22.Olmasaydı dərya qədər dərdim,Dərdim olmadığını mən dərd edərdim.(B.Vahabzadə)

23.Suda hünər hanı eşqi soyuda,Eş odu yandırar soyuq suyu da.(Şekspir)

24.Dürüst bir insan daima uşaq qalır.(Sokrat)

25.Gözdən yaş çıxarmı ürək yanmasa?(M.M)

26.Çox gülən insan,hər kəsdən çox yaralarını gizlədər.(F.M.Dostoyevski)

27.Danışmaq,bir ehtiyac ola bilər,amma susmaq bir sənətdir.(İ.V.Höte)

28.Pis günlərin yaxşı tərəfləri də var!İnsanları tanıyırsan!Esas da,doğma insanları!..(J.Broşn)

29.Savaşı zənginlər çıxarır,yoxsullar ölür...!(Sartr)

30.İnsanın şərəflə yaşaya bilməsi üçün ən düzgün yol,olduğu kimi görünməsidir.(Sokrat)

31.Diqqət et!Əsəbin keçici ola bilər,amma ətrafına vurduğun ziyanın izi mütləq qalacaq.(Paulo Ceolyo)

32.Şikayət etdiyiniz həyat,bəlkə də başqasının xəyalıdır..(Tolstoy)

33.Qadınları ya anlayın,ya da sevin!İkisini birdən istifadə etməyin.(Şekspir)